RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 84 (10104) 14 may 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan - Slovakiya: siyasi əlaqələr yüksək səviyyədədir

### Prezident İlham Əliyev Slovakiya Milli Şurası Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Slovakiya Respublikası Milli Şurasının Sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ötən il Slovakiyaya rəsmi səfəri çərçivəsində keçirdiyi görüşləri, o cümlədən Rixard Raşi ilə görüşünü məmnunluqla xatırladı.

Müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişafını vurğulayan dövlətimizin başçısı qarşılıqlı hörmətə, dostluğa və tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin genişlənməsində parlamentlərimiz arasındakı münasibətlərin roluna toxundu.

Prezident İlham Əliyev Rixard Raşinin böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməsinin önəmini qeyd edərək bildirdi ki, bu, tərəfdaşlığımızın daha bir göstəricisidir.

Qəbula görə nümayəndə heyəti adından minnətdarlığını ifadə edən qonaq dövlətimizin başçısı ilə görüşdən şərəf hissi keçirdiklərini dedi.

Rixard Raşi Azərbaycan Prezidentinə Slovakiyaya ilk rəsmi səfər etdiyinə görə minnətdarlığını bildirdi.

Dəfələrlə ölkəmizə səfər etdiyini məmnunluqla xatırlayan qonaq 2022-ci ildə Azərbaycana səfəri çərçivəsində Şuşada olduğunu dedi. O bildirdi ki, bu səfəri əsnasında da Qarabağa gedəcək, orada aparılan bərpa-quruculuq işləri, həmçinin Xankəndidə Qarabağ Universitetinin fəaliyyəti ilə tanış olacaq.

Rixard Raşi Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev sülhün gücləndirilməsi üçün ölkəmiz tərəfindən görülən tədbirlərdən danışdı, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı da daxil olmaqla ölkələrimiz arasında ticarət münasibətlərinin yaradıldığını dedi.

Söhbət zamanı Azərbaycanla Slovakiya arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulduğu vurğulanaraq, siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edildi.

Slovakiya şirkətlərinin Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında iştirakına toxunularaq, bunun Azərbaycan-Slovakiya dostluğunun göstəricisi olduğu vurğulandı.

Görüşdə beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində əməkdaşlıq müzakirə olundu, iqtisadi-ticari, enerji, müdafiə sənayesi, təhsil, humanitar, müasir texnologiyalar, mədəniyyət, idman, turizm və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Tezliklə Bakı ilə Bratislava arasında birbaşa uçuşların həyata keçiriləcəyi bildirilərək, bunun turizm və insanlararası təmasların genişlənməsinə töhfə verəcəyi qeyd olundu.



## COP29-dan WUF13-ə

Mayın 17-də Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası öz işinə başlayacaq. Prezident İlham Əliyev mayın 12-də Bakı Olimpiya Stadionunun ərazisində mayın 17-22-də keçiriləcək "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası ilə bağlı görülən işlərlə tanış olub.

Məlumat verək ki, tədbir məkanı Bakı Olimpiya Stadionu və onun ətrafında formalaşdırılan ümumi əməliyyat əhatə dairəsi üzrə 53 hektar təşkil edir. Bunun 43 hektarı əsas tədbir məkanı, 10 hektarı isə əsas nəqliyyat terminalı və parklanma-transfer zonası kimi planlaşdırılıb. Qeydiyyat, sessiya, sərgi, media, nəqliyyat, texniki təminat, könüllülər və məkan xidmətləri vahid əməliyyat sistemi kimi təşkil olunub.

Yüksəksəviyyəli qonaqlar və nümayəndə heyətləri üçün xüsusi zonalar ayrılıb. Burada dövlət və hökumət nümayəndələrinin qəbulu, ikitərəfli görüşlər, istirahət sahəsi və qidalanma xidməti üçün xüsusi məkanlar nəzərdə tutulub.

Mövcud hazırlıq səviyyəsi forumun yüksək iştirakçı axınını, çoxsaylı paralel tədbirləri və beynəlxalq nümayəndə heyətlərinin qəbullarını uyğun şəkildə planlaşdırmağa imkan verir...

COP29-dan sonra BMT-nin ikinci ən böyük platforması hesab olunan bu forumda Bakının evsahibliyi edəcəyi BMT-nin Məskunlaşma Proqramı və Azərbaycan hökuməti tərəfindən birgə təşkil olunan WUF13 dünyanın diqqətini yenidən ölkəmizə yönəldəcək. İndiyədək 180 ölkədən 32 mindən çox şəxsin qeydiyyatdan keçməsi WUF tarixində rekord göstəricidir. Bu mühüm tədbirdə Azərbaycan dövləti tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misilsiz yenidənqurma və şəhərsalma modeli, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə tətbiq edilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, bu regionların "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı görülmüş işlər müasir urbanizasiya və ekoloji bərpa sahəsində qabaqcıl nümunələr kimi dünya ictimaiyyətinə təqdim ediləcək. Qeyd edək ki, WUF13, həmçinin WUF tarixində ilk dəfə liderlər sammiti seqmentinin proqrama daxil edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

"Avroviziya"nın təntənəsindən COP29-un qlobal iqlim qərarlarına qədər keçilən yol Azərbaycanın inkişaf strategiyasının güzgüsüdür. WUF13-ün timsalında isə dünyanın yeni şəhərsalma fəlsəfəsi Bakıda formalaşacaq.

Göründüyü kimi, ölkəmiz hər bir tədbirdə həm öz mədəniyyətini, həm də yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirərək dünyanı sülh, həmrəylik və dayanıqlı inkişaf ətrafında birləşdirməyə davam edir.

4

## Gələcəyin qurucusu

### Heydər Əliyevin şəhərsalma irsi bugünkü memarlar üçün nümunə və məktəbdir



Bakının ən uca nöqtələrindən birindən Xəzərin mavi sularına boylanan "Gülüstan" sarayı təkcə memarlıq abidəsi deyil, həm də Azərbaycanın müasir tarixinin canlı şahididir. 1980-ci illərdən bəri ölkənin diplomatik və mədəni həyatının mərkəzi olan bu möhtəşəm tikili özündə modernizmlə milli ornamentlərin vəhdətini birləşdirir.

Saray 1979-1980-ci illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və Əliş Ləmbəranskinin nəzarəti ilə inşa edilib. Binanın memarları Nazim Hacıbəyov və Hafiz Əmirxanov, konstruktorları isə Novruz İsmayılov və Kamil Kərimovdur. O zaman memar Hafiz Əmirxanovun rəhbərlik etdiyi yaradıcı heyət qarşısında çətin bir tapşırıq qoyulmuşdu: bina həm müasir (modernist) üslubda olmalı, həm də Azərbaycanın milli memarlıq ənənələrini özündə yaşatmalı idi. Nəticə gözləniləndən uğurlu oldu - bina inşasından iki il sonra - 1982-ci ildə müəllif kollektivi SSRİ Dövlət Mükafatına layiq görüldü. Sarayın eyvanları, asma tavanları və geniş şüşə fasadları o dövr üçün mühəndislikdə inqilab hesab edilirdi.

7

## Paytaxtımız yaşıllıqlar və parklar şəhərinə çevrilir

Paytaxtımız həm də dünyada ən çox heykəllərin ucaldıldığı şəhərlərdən biridir. Son illər Bakıda Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev kimi dörd böyük bəstəkarımızın, Bülbül, Rəşid Behbudov və Müslüm Maqomayev kimi üç görkəmli müğənnimizin heykəlləri qoyulub. Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakının mərkəzində Dədə Qorqud abidəsi və Koroğlu heykəli ucaldılıb.

Ən əlamətdar hadisələrdən biri də Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıda Aşıq Ələsgərin heykəlinin qoyulması oldu. Hər üç abidənin açılışında Prezident şəxsən iştirak etdi.

O da əlamətdardır ki, Azərbaycan xalqının başını uca edən bu şəxsiyyətlərin əksəriyyətinin heykəlləri son vaxtlar salınmış park və bağlarda ucaldılmışdır. Sözün həqiqi mənasında, Prezident İlham Əliyev paytaxtımızı parklar şəhərinə çevirir. Son zamanlara qədər neft şəhəri kimi tanınan paytaxtımızda parkların salınmasının nə demək olduğunu təsəvvür etmək çətin deyil.

8



## Cənubi Qafqazın geosiyasi transformasiyası: ssenarilər və proqnozlar




Bəzi ekspertlər hazırkı mərhələdə Cənubi Qafqazı "qlobal rəqabətin mərkəzi" kimi təqdim edir və onun başlıca əlamətləri olaraq bir sıra faktorları vurğulayırlar: "Çinin "Bir kəmər, bir yol" təşəbbüsü sürəti və miqyası ilə standartlara və şəffaflığa üstünlük verən "Qlobal qapı" kimi Qərb təşəbbüsləri ilə toqquşur. Kağız üzərində bu yanaşmalar iki fərqli dil kimi bir-birinə uyğun gəlmir, lakin limanlarda və gömrük terminallarında onların nümayəndələri gündəlik danışıqlar aparmaq məcburiyyətində qalırlar.

Mərkəzi Asiya ölkələrinin, Hindistanın, İranın, Fars körfəzi ölkələrinin və Türkiyənin maraqları bir-birinə qarışmışdır və xəritə ikili müxalifətdən daha mürəkkəb hala gəlmişdir. Nəticədə Cənubi Qafqaz qlobal rəqabətin bəyannamələrlə deyil, fərqli sistemlərin paralel olaraq nə qədər effektiv işləyə biləcəyi ilə sınaqdan keçirildiyi və geoiqtisadi gərginliklərin bütün iştirakçılar üçün inkişafın hərəkətverici qüvvəsinə çevrildiyi unikal bir arena kimi ortaya çıxır".

5

## "Binokl diplomatiyası" sülhə xidmət etmir

### Azərbaycan Cənubi Qafqazda barışın və təhlükəsizliyin yeganə qarantıdır

Prezident İlham Əliyevin mayın 10-da Zəngilanda sakinlərlə görüşü zamanı səsləndirdiyi fikirlər bu missiyanın mahiyyətini tam ifşa etdi: "Bu gün hələ də Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri guya ki, keşik çəkirlər. Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə".

6



# "Yüksək səviyyəli nümayəndə heyətlərinin səfərləri barədə hesabatların və məlumatların təqdim edilməsi haqqında" Azərbaycan RespublikasıPrezidentinin 2004-cü il 5 noyabr tarixli 144 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Yüksək səviyyəli nümayəndə heyətlərinin səfərləri barədə hesabatların və məlumatların təqdim edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 144 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 908 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adı aşağıdakı redaksiyada verilsin:

"Nümayəndə heyətlərinin səfərləri barədə məlumatların və hesabatların təqdim edilməsi haqqında";

1.2. preambulada"Yüksək səviyyəli nümayəndə" sözləri "Nümayəndə" sözü ilə əvəz edilsin;

1.3.1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının Baş naziri, Baş nazirinin müavinləri, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən yüksək səviyyəli nümayəndə heyətinin xarici dövlətlərə və xarici dövlətlərin nazirliklərinin və ya eyni statuslu dövlət orqanları rəhbərlərinin müavinləri və ya daha yüksək vəzifəli şəxsləri, beynəlxalq təşkilatların rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən yüksək səviyyəli nümayəndə heyətinin Azərbaycan Respublikasına, habelə rəhbəri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan dövlət adından yaradılan publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin xarici dövlətlərə və xarici dövlətlərin eyni statuslu vəzifəli şəxsləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin Azərbaycan Respublikasına edəcəyi səfərlər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılır, səfərlərin nəticələrinə dair hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.";

1.4. 2-ci hissədə "hesabat nümayəndə heyətinə rəhbərlik edən şəxs" sözləri "məlumat və hesabat səfərin təşkilinə və həyata keçirilməsinə cavabdeh olan dövlət orqanının (qurumunun) rəhbəri" sözləri ilə əvəz edilsin;

1.5. 3-cü hissədə "hesabat səfəri təşkil edən və onun həyata keçirilməsi üçün ilk növbədə cavabdeh olan şəxs" sözləri "məlumat və hesabat səfərin təşkilinə və həyata keçirilməsinə cavabdeh olan dövlət orqanının (qurumunun) rəhbəri" sözləri ilə əvəz edilsin;

1.6. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Səfərin proqramı (səfər üzrə hər bir tədbirin adı, məzmunu, iştirakçıları, yeri, tarixi) və əhəmiyyəti, tədbirdə əyani iştirakın zəruriliyi, ezamiyyə xərcləri və digər xərclər, maliyyələşmə mənbəyi, səfərdən gözlənilən nəticələr (effektivliyə dair proqnoz), nümayəndə heyətinin rəhbəri, digər üzvləri və onların iştirakının zəruriliyi barədə məlumat səfərin başlanmasına ən geci on beş iş günü qalmış təqdim edilir. Məlumatı bu müddət ərzində üzrlü səbəblərə görə təqdim etmək mümkün olmadıqda, həmin məlumat üzrlü səbəblər əsaslandırılmaqla daha qısa müddətdə təqdim edilir.";

1.7. aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Azərbaycan Respublikasını təmsil edən nümayəndə heyətinin tərkibinə iki və daha artıq dövlət orqanının (qurumunun) nümayəndələri daxil olduqda, bu Fərmanın 4-cü hissəsinin birinci cümləsində nəzərdə tutulan məlumatlar və nümayəndə heyətinin rəhbərinə dair təklif həmin dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla təqdim edilir.";

1.8. 5-ci hissədə "səfəri təşkil edən və onun həyata keçirilməsi üçün ilk növbədə cavabdeh olan şəxs" sözləri "səfərin təşkilinə və həyata keçirilməsinə cavabdeh olan dövlət orqanının (qurumunun) rəhbəri" sözləri ilə əvəz edilsin;

1.9. 6-cı hissədə "gün" sözü "iş günü" sözləri ilə, "edilməlidir" sözü "edilir" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2026-cı il*

# Azərbaycanın xarici işlər naziri iranlı həmkarı ilə regional vəziyyəti müzakirə edib

**Mayın 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub.**




Azərbaycan Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Azərbaycan-İran ikitərəfli əlaqələri, regionda mövcud vəziyyət və bu çərçivədə danışıqlar prosesinin gedişatı, İran ətrafında vəziyyətin diplomatik və siyasi həll perspektivləri ətrafında müzakirə aparılıb.

Abbas Əraqçi danışıqlar prosesi barədə ətraflı məlumat verib.

Ceyhun Bayramov münaqişənin sülh və danışıqlar yolu ilə həlli istiqamətində səyləri dəstəklədiyimizi diqqətə çatdırıb.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycanın Bolqarıstanda yeni təyin olunmuş səfiri etimadnaməsini bu ölkənin Prezidentinə təqdim edib

**Azərbaycanın Bolqarıstandakı səfiri Elmar Məmmədov etimadnaməsini bu ölkənin Prezidenti İliana Yotovaya təqdim edib.**



AZƏRTAC xəbər verir ki, etimadnamənin təqdimetmə mərasimində səfir Elmar Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Bolqarıstan Prezidentinə çatdırıb.

Səfir Bolqarıstanda diplomatik fəaliyyətə başlamasından şərəf duyduğunu qeyd edib və iki ölkə arasında dostluq münasibətlərini, strateji tərəfdaşlığı daha da gücləndirməyə sadiq olduğunu bildirib.

Etimadnamələrin təqdim edilməsindən sonra keçirilən görüşdə Prezident İliana Yotova iki ölkə arasında əməkdaşlığın uğurlu inkişafını yüksək qiymətləndirib.

Tərəflər 2015-ci ildə Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında qurulan strateji tərəfdaşlığı bir daha təsdiqləyib və ikitərəfli gündəliyin müxtəlif sahələrində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıblar.

# Energetika naziri vətəndaşların müraciətlərini dinləyib

**Energetika naziri Pərviz Şahbazovun iştirakı ilə nazirlikdə növbəti dəfə vətəndaşlarla görüş olub.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı elektrik enerjisi və qaz təchizatı, qaz sayğaclarının dəyişdirilməsi ilə bağlı müraciətlər dinlənilib, vətəndaşları narahat edən məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, Energetika Nazirliyi tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə rəhbər vəzifəli şəxslərin 2026-cı il üzrə vətəndaş qəbulu qrafiki nazirliyin rəsmi internet səhifəsində yerləşdirilib.

# "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 413 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 140** **Bakı şəhəri, 12 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 413 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 13 iyun tarixli 686-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 187 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 741 (Cild I); 2024, № 9, maddə 1090; 2025, № 9, maddə 879) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 11-ci hissədə "Ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi Qaydası və kalibrlənmə" sözləri "Kalibrlənmə" sözü ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası və tətbiqi Qaydası" üzrə:

1.2.1. 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.9. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamənin yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə həyata keçirilir. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamə hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.";

1.2.2. aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

"2.9-1. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamənin qeydiyyatı Agentlik tərəfindən aparılır.";

1.2.3. 2.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.10. Attestasiya haqqında şəhadətnamə 3 (üç) gün müddətində hüquq sahibinə təqdim olunur.";

1.3. həmin Qərarla təsdiq edilmiş 10 nömrəli əlavə - "Ölçmələrin vəhdətinin təmin edilməsi üzrə dövlət məlumat fondunun təşkili və aparılması, məlumatların fonda verilməsi, fonddan sənədlərin və məlumatların təqdim edilməsi Qaydası" üzrə:

1.3.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Ölçmələrin vəhdətinin təmin edilməsi üzrə dövlət məlumat fondu (bundan sonra - fond) ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində Azərbaycan Respublikasının hüquqi aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr barədə məlumatları, verilənlərin informasiya bazaları, dövlət kəmiyyət vahidi etalonları, standart nümunələrin və ölçmə vasitələrinin təsdiq edilmiş tipləri haqqında məlumatlar toplusu, attestasiya edilmiş ölçmə metodikaları (metodları), dövlət tənzimlənməsi sahəsinə aid olan ölçmələrin vahid siyahısı haqqında məlumatları özündə birləşdirir." ;

1.3.2. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. Fonda məlumatların daxil edilməsini və həmin məlumatların verilməsini Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra - Agentlik) təşkil edir.";

1.3.3. 2.1.6-cı yarımbəndə "tipləri" sözündən sonra "haqqında məlumatlar toplusu" sözləri əlavə edilsin;

1.3.4. 2.1.7-ci yarımbənd ləğv edilsin;

1.4. həmin Qərarla təsdiq edilmiş 11 nömrəli əlavə - "Ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi Qaydası və kalibrlənmə işlərinin yerinə yetirilməsinə dair Tələblər" üzrə:

1.4.1. adında və həmin Tələblərin 1 və 2 nömrəli əlavələrinin yuxarı sağ küncündə "Ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi Qaydası və kalibrlənmə" sözləri "Kalibrlənmə" sözü ilə əvəz edilsin;

1.4.2. 1.1-ci bənddən "Qayda və" və "ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi qaydasını və" sözləri çıxarılsın;

1.4.3. 2-ci hissə ləğv edilsin;

1.4.4. 3.3.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.3.1. ölçmə vasitələrinin kalibrlənməsi "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən həyata keçirilir.";

1.4.5. 3.11.2-ci yarımbəndə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Kalibrlənmə haqqında sertifikatın (kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsinin nəticələrinə dair kalibrlənmə haqqında sertifikatlar istisna olmaqla) yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə həyata keçirilir. Kalibrlənmə haqqında sertifikat hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.";

1.4.6. aşağıdakı məzmunda 3.11.3-cü yarımbənd əlavə edilsin:

"3.11.3. Kalibrlənmə haqqında sertifikatın (kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsinin nəticələrinə dair kalibrlənmə haqqında sertifikatlar istisna olmaqla) və kalibrlənmə nişanının qeydiyyatı Agentlik tərəfindən aparılır.";

1.4.7. həmin Tələblərə 2 nömrəli əlavə - "Kalibrlənmə sertifikatının forması"nın mətnindən "Möhür" sözü çıxarılsın və "Seal" sözü "QR kod" sözləri ilə əvəz edilsin.

2. "Uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 215 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 877 (Cild I); 2024, № 9, maddə 1090) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və ikinci abzasında "və" sözü vergül işarəsi ilə əvəz edilsin və "bəyannamələrinin" sözündən sonra ", uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların" sözləri əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrinin aparılması Qaydası" üzrə:

2.2.1. adında və 1.1-ci bənddə "və" sözü vergül işarəsi ilə əvəz edilsin və "bəyannamələrinin" sözündən sonra ", uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarların" sözləri əlavə edilsin;

2.2.2. 1.2.1-ci yarımbənddə "və" sözü vergül işarəsi ilə əvəz edilsin və həmin yarımbəndə "bəyannaməsi" sözündən sonra ", uyğunluğu təsdiq edən sənəd və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərar" sözləri əlavə edilsin;

2.2.3. 1.2.2-ci yarımbəndə "təsdiq edən" sözlərindən sonra ", elektron formada tərtib edilən" sözləri əlavə edilsin;

2.2.4. 1.2.3-cü yarımbəndə "bəyan edildiyi" sözlərindən sonra ", elektron formada tərtib edilən" sözləri əlavə edilsin;

2.2.5. 2.1-ci bənddə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra - Nazirlik)" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra - Agentlik)" sözləri ilə əvəz edilsin;

2.2.6. 2.3-cü bəndin ikinci cümləsində və 4.1-ci bəndin ikinci cümləsində ismin müvafiq hallarında "Nazirlik" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

2.2.7. 2.4-cü bənddə "məlumatların təqdim edilməsi" sözləri "Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə uyğunluq sertifikatının, uyğunluq bəyannaməsinin, uyğunluğu təsdiq edən sənədin və xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarın yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi zamanı məlumatların daxil edilməsi" sözləri ilə əvəz edilsin;

2.2.8. 2.5-2.14-cü bəndlər ləğv edilsin;

2.2.9. 2.15-ci bənddə "tanınmış xarici mənşəli uyğunluq sənədlərinin" sözləri "uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların" sözləri ilə, "tanınmış xarici mənşəli uyğunluq sənədinin Azərbaycan Respublikasında" sözləri "uyğunluğu təsdiq edən sənədin və xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarın" sözləri ilə əvəz edilsin;

2.2.10. 2.16-cı bənddə "tanınmış xarici mənşəli uyğunluq sənədlərinin" sözləri "uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların" sözləri ilə, "tanınmış xarici mənşəli uyğunluq sənədi Azərbaycan Respublikasında" sözləri "uyğunluğu təsdiq edən sənədin və xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərar" sözləri ilə əvəz edilsin;

2.2.11. 3.5-ci bənddə "tanınmış xarici mənşəli uyğunluq sənədləri" sözləri "tanınmış xarici mənşəli uyğunluq sənədləri haqqında qərarlar" sözləri ilə əvəz edilsin;

2.2.12. 3.5.8-ci yarımbənddə "və" sözü vergül işarəsi ilə əvəz edilsin və həmin yarımbəndə "ləğv edilməsi" sözlərindən sonra "və yenidən rəsmiləşdirilməsi" sözləri əlavə edilsin;

2.2.13. aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

"3.6. Reyestrə uyğunluğu təsdiq edən sənədlər barədə aşağıdakı məlumatlar daxil edilir:

3.6.1. uyğunluğu təsdiq edən sənədi təqdim edən uyğunluğu qiymətləndirən qurumun adı, hüquqi ünvanı, akkreditasiya attestatının qeydiyyat nömrəsi və verilmə tarixi;

3.6.2. təsdiqedici sənədin nömrəsi və tarixi;

3.6.3. malı (işi, xidməti) təklif edən hüquqi şəxsin adı, hüquqi ünvanı, fiziki şəxsin adı, soyadı, atasının adı və ünvanı, VÖEN;

3.6.4. orta riskli mal;

3.6.5. xarici iqtisadi fəaliyyətin mal nomenklaturu;

3.6.6. orta riskli malın adı, növü, markası, modeli;

3.6.7. orta riskli malın partiya və ya seriya nömrəsi, miqdarı, istehsal tarixi;

3.6.8. malın istehsalçısının adı və ünvanı;

3.6.9. texniki reqlamentin, istinad edilmiş standartların və ya texniki şərtin adı, nömrəsi, tarixi;

3.6.10. malın istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair əlavə məlumat (olduqda);

3.6.11. təsdiqedici sənədin verilməsi ilə bağlı qərarın nömrəsi və tarixi.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 879 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 11, maddə 1099) ilə təsdiq edilmiş "Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2.1-ci yarımbəndə "təsdiq edən" sözlərindən sonra ", elektron formada tərtib edilən" sözləri əlavə edilsin;

3.2. 1.2.2-ci yarımbəndə "bəyan edildiyi" sözlərindən sonra ", elektron formada tərtib edilən" sözləri əlavə edilsin;

3.3. 1.2.12-1-ci, 2.3.8-ci və 3.3.8-ci yarımbəndlərin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 1.2.13-cü, 2.3.9-cu, 3.3.9-cu yarımbəndlər ləğv edilsin;

3.4. 2.3.6-cı və 3.3.8-ci yarımbəndlərdən "imzası," sözü çıxarılsın;

3.5. 2.1-ci və 3.1-ci bəndlərdən ", realizə edilməzdən" sözləri çıxarılsın;

3.6. 2.20-ci bəndin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sertifikatın verilməsindən imtina haqqında qərar qəbul edildiyi gündən 2 (iki) iş günü müddətində təsərrüfat subyektinə təqdim edilir.";

3.7. 2.21-ci, 2.29-cu, 2.38-ci, 2.40-cı, 2.43-cü, 3.19-cu, 3.20-ci, 3.21-ci, 3.22-ci, 3.33-cü, 3.35-ci və 3.40-cı bəndlər ləğv edilsin;

3.8. 2.22-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.22. Uyğunluq sertifikatının yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə həyata keçirilir. Uyğunluq sertifikatı hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.";

3.9. 2.36-cı, 2.44-cü, 3.31-ci, 3.34-cü və 3.38-ci bəndlərdə ismin müvafiq hallarında "Nazirlik" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

3.10. 2.37-ci və 2.39-cu bəndlərdən "və bu barədə məlumatı reyestrə daxil olunması üçün həmin gün ərzində Nazirliyə təqdim edir" sözləri çıxarılsın;

3.11. 2.42-ci bəndin ikinci cümləsindən "və bu barədə məlumatın reyestrə daxil olunması üçün həmin gün ərzində Nazirliyə təqdim edir" sözləri çıxarılsın;

3.12. 3.15-ci bəndin ikinci cümləsindən və 3.37-ci bəndin ikinci cümləsindən "və ya sifarişli poçt vasitəsilə göndərir" sözləri çıxarılsın;

3.13. aşağıdakı məzmunda 3.15-1-ci bənd əlavə edilsin:

"3.15-1. Uyğunluğu təsdiq edən sənədin yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə həyata keçirilir. Uyğunluğu təsdiq edən sənəd hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.";

3.14. həmin Qaydalara 1, 2, 3 və 4 nömrəli əlavələrdə "İmza / Signature

M.Y. (olduqda) / Stamp (if any)" sözləri "QR kod" sözləri ilə əvəz edilsin;

3.15. 4-cü hissə ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 323 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1190 (Cild I); 2025, № 9, maddə 879) ilə təsdiq edilmiş "Məlumat mərkəzinin yaradılması və fəaliyyət Qaydası"nın 1.3.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"1.3.2. standart - təkrar və ümumi istifadə üçün nəzərdə tutulan, standartlaşdırma obyektlərinə dair qaydaları, tövsiyələri, texniki xarakteristikaları müəyyən edən, tətbiqi könüllü olan normativ sənəd;".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 may tarixli 283 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 620) ilə təsdiq edilmiş "Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3-cü hissədə "hər il" sözləri "beş ildən gec olmayaraq" sözləri ilə əvəz edilsin;

5.2. 5-ci hissədə "hər" sözü "yoxlamanın aparıldığı" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 may tarixli 284 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 621; 2025, № 9, maddə 879) ilə təsdiq edilmiş "Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.2.6-cı yarımbənddə "malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun" sözləri "standartlaşdırma obyektlərinin" sözləri ilə əvəz edilsin;

6.2. 2.4.1-ci yarımbəndin birinci cümləsində və 2.4.2.1-ci abzasında "mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə), istehsal metoduna" sözləri "standartlaşdırma obyektlərinə" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 6 mart tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 3, maddə 272) ilə təsdiq edilmiş "Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı"nın "Qeydlər" hissəsində "(satışda) realizə" sözləri "satış" sözü ilə əvəz edilsin.

8. "Bir pəncərə" prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan texniki tənzimləmənin şamil olunduğu mallara nəzarətin təşkili məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 28 iyul tarixli 224 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 7, maddə 728) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2-ci hissədən "texniki reqlamentlərin tələblərinə uyğunluğun qiymətləndirilməsini təsdiq edən uyğunluq sertifikatı, uyğunluq bəyannaməsi və tanınmış xarici mənşəli uyğunluq sənədləri barədə məlumatların daxil olduğu" sözləri çıxarılsın və "və uyğunluq bəyannamələrinin reyestrinin" sözləri "uyğunluq bəyannamələrinin, uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların reyestrinin" sözləri ilə əvəz edilsin;

8.2. 3-cü hissədə (birinci halda) "və" sözü vergül işarəsi ilə əvəz edilsin və "bəyannamələrinin" sözündən sonra ", uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların" sözləri əlavə edilsin;

8.3. həmin Qərarla təsdiq edilmiş "Bir pəncərə" prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan texniki tənzimləmənin şamil olunduğu mallara nəzarətin təşkili məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası"nın 2.2-ci bəndində "və uyğunluq bəyannamələrinin" sözləri ", uyğunluq bəyannamələrinin, uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların" sözləri ilə, " uyğunluq sənədləri" sözləri "uyğunluq sənədlərinin tanınması haqqında qərarlar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan-Slovakiya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

## Milli Məclisin Sədri Sahibə Qafarova Slovakiya Milli Şurasının Sədri ilə görüşüb



**Mayın 13-də ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikası Milli Şurasının Sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisin Sədri Sahibə Qafarova qarşılayıb. Slovakiya Milli Şurasının Sədri əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Ulu Öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar.

Slovakiya Milli Şurasının Sədri Rixard Raşi buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Sonra tərəflər arasında geniş tərkibdə görüş keçirilib.

Milli Məclisin Sədri özünün Slovakiyaya rəsmi səfərini xatırladaraq, həmin səfər zamanı keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. O, Slovakiya Respublikası Milli Şurası Sədrinin bu vəzifədə Azərbaycana ilk səfəri olduğunu, bu səfərin parlamentlərarası münasibətlərimizin davamlı şəkildə inkişaf etdiyinin göstəricisi olduğunu diqqətə çatdırıb.

Spiker Sahibə Qafarova 2022-ci ildə qonağın Azərbaycana deputat kimi səfəri zamanı işğaldan azad olunmuş ərazilərimizə getməsini məmnunluqla xatırlayıb və bu dəfə həmin ərazilərə səfər zamanı orada aparılmış quruculuq işlərinin qonaqlarda dərin təəssürat yaradacağına əminliyini bildirib.

İkitərəfli əlaqələrin inkişafı üçün yüksəksəviyyəli qarşılıqlı səfərlərin vacibliyini qeyd edən spiker bu baxımdan dövlət başçılarının qarşılıqlı səfərlərinin önəmini vurğulayıb. Spiker son illər ərzində münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, bu baxımdan 2024-cü ilin mayında iki ölkə arasında imzalanmış "Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyannamə"nin gələcək əməkdaşlıq sahələrini müəyyənləşdirdiyini diqqətə çatdırıb.

İki ölkənin parlamentlərarası münasibətlərindən söz açan spiker qeyd edib ki, bu əməkdaşlıqda qarşılıqlı səfərlərin və parlament dostluq qruplarının xüsusi rolu var. Parlamentlərin həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyəti ölkələr arasında əlaqələrin davamlı inkişafına və əməkdaşlığın genişlənməsinə müsbət təsir göstərir.

Milli Məclisin Sədri qonağa Azərbaycan parlamentinin tarixi, indiki strukturu və fəaliyyəti barədə məlumat verib.

Milli Məclisdə olmaqdan məmnunluğunu bildirən Slovakiya Respublikası Milli Şurasının Sədri Rixard Raşi ölkəmizə səfəri və Prezident İlham Əliyevlə görüşü barədə təəssüratlarını bölüşüb. O, cənab İlham Əliyevin 2025-ci ilin dekabrında Slovakiyaya səfərinin Azərbaycan Prezidentinin Slovakiyaya ilk rəsmi səfəri kimi mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Söhbət zamanı Rixard Raşi parlamentlərarası əlaqələrin vacibliyini vurğulayaraq, bu baxımdan parlament üzvləri, parlament komitələri, parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında mütəmadi səfərlərin və təcrübə mübadiləsinin əhəmiyyətindən danışıb, Slovakiya parlamentinin strukturu barədə məlumat verib.

Slovakiya Milli Şurasının Sədri gələn həftə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) vacibliyinə də toxunaraq bu tədbirin əhəmiyyətini qeyd edib.

Görüşdə qonaq iki ölkə arasında iqtisadi, təhsil, mədəniyyət, müdafiə sənayesi, enerji təhlükəsizliyi və digər sahələrdə münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Söhbət zamanı Avropa Parlamentinin parlament diplomatiyasına və konstruktiv dialoqa uyğun gəlməyən fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Görüşdən sonra Azərbaycan Respublikasının Milli Məclisi ilə Slovakiya Respublikası Milli Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Anlaşma Memorandumunu Milli Məclisin Sədri Sahibə Qafarova və Slovakiya Milli Şurasının Sədri Rixard Raşi imzalayıblar.

*"Azərbaycan"*

# Slovakiya Milli Şurasının Sədri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib






**Ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Milli Şurasının Sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyəti mayın 13-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Musa Qasımlı, parlamentin Slovakiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Anar Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Azərbaycan və Slovakiyanın parlament sədrləri mətbuata bəyanatla çıxış ediblər

**Milli Məclisin Sədri Sahibə Qafarova və Slovakiya Respublikası Milli Şurasının Sədri Rixard Raşi mayın 13-də keçirilən ikitərəfli görüşdən sonra mətbuata bəyanatla çıxış ediblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu səfərin Azərbaycan ilə Slovakiya arasındakı parlamentlərarası əlaqələrin yüksək səviyyəsinin göstəricisi olduğunu söyləyən spiker Sahibə Qafarova özünün 2021-ci ilin oktyabrında Slovakiyaya rəsmi səfərini xatırladaraq, bunun Milli Məclis Sədrinin Slovakiyaya ilk səfəri olduğunu, bundan sonra Slovakiya parlamenti Sədrinin Azərbaycana bir rəsmi və iki işgüzar səfər etdiyini bildirib. Onun sözlərinə görə, bütün bu səfərlər tərəflərin parlamentlərarası əlaqələrin inkişafı ilə bağlı nümayiş etdirdikləri ardıcıl yanaşmanın nəticəsidir.

Parlamentlər arasında əməkdaşlığın Azərbaycan-Slovakiya münasibətlərinin bir hissəsi olduğunu deyən Milli Məclisin Sədri qeyd edib ki, ümumiyyətlə ölkələrimiz arasında əlaqələr, xüsusən son illərdə əhəmiyyətli dərəcədə inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Spiker münasibətlərin mövcud yüksək səviyyəyə çatdırılmasında dövlət və hökumət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayaraq, qeyd edib ki, bu səfərlər və görüşlər iki ölkə arasındakı fəal siyasi dialoqun göstəricisidir. Məhz bu dialoq ölkə rəhbərlərinə münasibətlərin mövcud vəziyyətini müzakirə etməyə və yeni əməkdaşlıq istiqamətlərini nəzərdən keçirməyə imkan yaradır.

İkitərəfli əlaqələrə gəldikdə isə, Sahibə Qafarova bildirib ki, ölkələrimiz arasında iqtisadi, ticari, enerji, müdafiə sənayesi kimi sahələrdə artıq uğurlu əməkdaşlıq həyata keçirilir. Eyni zamanda digər istiqamətlər üzrə də əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur.

İki ölkənin parlamentləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını xatırladan spiker Sahibə Qafarova deyib ki, bu sənəd əlaqələrimizin daha da genişləndirilməsinə gətirib çıxaracaq. Belə ki, sənəd dostluq qruplarının, müvafiq komitələrin, beynəlxalq təşkilatlardakı nümayəndə heyətlərinin, parlament aparatlarının əməkdaşlığı ilə bağlı bir sıra mühüm istiqamətləri əhatə edir.

Slovakiya parlamenti Sədrinin Azərbaycana səfəri çərçivəsində işğaldan azad olunmuş torpaqlarımıza da səfər edəcəyini bildirən Sahibə Qafarova qeyd edib ki, bu, artıq Rixard Raşinin Qarabağa ikinci səfəri olacaq. Onun sözlərinə görə, 2022-ci ildən ötən dövr ərzində Qarabağda aparılmış yenidənqurma işlərinin miqyası Rixard Raşini müsbət mənada təəccübləndirəcək. Digər tərəfdən, Slovakiya parlamentinin nümayəndə heyəti Ağdamın Baş Qərvənd kəndini də ziyarət edəcək. Qeyd olunub ki, bu kəndin tikintisi Slovakiya şirkətləri tərəfindən həyata keçirilir. Qarabağın yenidən qurulmasında Slovakiyanın Azərbaycana dəstəyinin yüksək qiymətləndirildiyini söyləyən Sahibə Qafarova vurğulayıb ki, bu kənd işğaldan azad olunmuş torpaqlarda Azərbaycan-Slovakiya dostluğunun bir nümunəsi olacaq.

Slovakiya Milli Şurasının Sədri Rixard Raşi isə müxtəlif vəzifələrdə Azərbaycana bir neçə dəfə səfər etdiyini qeyd edib. O, Slovakiya Respublikası Milli Şurasının Sədri qismində həyata keçirdiyi rəsmi səfəri də ikitərəfli münasibətlərin dərinləşməsinə növbəti töhfə kimi qiymətləndirib.

Slovakiya ilə Azərbaycan arasında münasibətlərin çox yüksək səviyyədə olmasından məmnunluğunu bildirən Milli Şuranın Sədri, bu mənada, xüsusilə 2024-cü ilin may ayında Slovakiya Respublikası Baş nazirinin Bakıya rəsmi səfəri zamanı imzalanmış Strateji Tərəfdaşlıq haqqında Sazişin əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, bu tərəfdaşlıq artıq energetika, müdafiə sənayesi, infrastruktur, informasiya texnologiyaları, turizm və Qarabağın yenidən qurulması sahələrində konkret nəticələr verir və bu müsbət dinamika yüksəksəviyyəli təmasların intensivləşməsində də özünü göstərir.

Bu səfərinin əsas məqsədinin münasibətlərin parlament ölçüsünü daha da gücləndirmək olduğunu deyən Rixard Raşi Milli Məclisdəki görüşü həm də Milli Məclis Sədrinin 2021-ci ildə Slovakiya Respublikasına etdiyi rəsmi səfərin davamı kimi dəyərləndirib. Tərəflər arasında imzalanan Anlaşma Memorandumunun münasibətlərimizin gələcək inkişafı üçün sabit institusional çərçivə yaratdığını deyən spiker əlavə edib ki, memorandum komitələr səviyyəsində intensiv əməkdaşlıq, parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri və parlament aparatlarımız arasında ən yaxşı təcrübələrin paylaşılması üçün zəmin yaradır.

Parlamentlərin təkcə qanunverici institutlar deyil, həm də iqtisadi diplomatiyanın mühüm hərəkətverici qüvvəsi ola biləcəyini vurğulayan Rixard Raşinin sözlərinə görə, ölkələrimiz iqtisadi əlaqələrin fəal inkişafına sadiqdir və Slovakiya Azərbaycanın azad edilmiş ərazilərinin yenidən qurulmasına töhfə verməkdən qürur duyur.

Slovakiya Milli Şurasının Sədri bu səfər çərçivəsində yenidən Qarabağa gedəcəyini və yenidənqurma işlərinin gedişatını yerində müşahidə edəcəyini diqqətə çatdırıb, ölkələrimiz arasında əməkdaşlığın energetika, müdafiə sənayesi və turizm də daxil olmaqla digər sahələrdə də irəliləməsindən məmnunluğunu bildirib.

O, vurğulayıb ki, Slovakiya və Azərbaycan strateji tərəfdaşlardır və bugünkü proseslər münasibətlərimizin iqtisadi, parlament və insanlararası təmaslar baxımından həqiqətən güclü inkişaf dövrünü yaşadığını təsdiq edir. Rixard Raşi deyib ki, Slovakiya Avropa səhnəsində Azərbaycanın etibarlı və balanslı tərəfdaşı olaraq qalır və ölkəsi bu tərəfdaşlığı gələcəkdə böyük intensivliklə inkişaf etdirmək niyyətindədir.

*"Azərbaycan"*

# Ombudsman Slovakiya Milli Şurasının üzvlərini qəbul edib



**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva ölkəmizdə səfərdə olan Slovakiya Milli Şurasının üzvləri Marcela Čavojovánı və Zuzana Matějčkovánı qəbul edib.**

Qurumdan AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı ombudsman Səbinə Əliyeva Azərbaycan və Slovakiya dövlətləri arasında sıx əlaqələrin mövcud olduğunu bildirib.

Ombudsman qonaqlara bu yaxınlarda ölkəmizə səfər edən slovakiyalı həmkarı ilə keçirdiyi görüşü məmnunluqla xatırladaraq, Azərbaycan və Slovakiyanın ombudsman institutları arasında mövcud olan dostluğa və tərəfdaşlığa əsaslanan əməkdaşlıq əlaqələri barədə məlumat verib.

Müvəkkil qonaqları mandatı, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyəti barədə ətraflı məlumatlandırıb.

Səbinə Əliyeva ötən illər ərzində mandatının genişləndirildiyini, bərabərlik hüququnun təmini və ayrı-seçkiliyin qarşısının alınması üzrə monitorinq qruplarının yaradıldığını, bu sahədə müsbət təcrübələrin əldə olunduğunu qeyd edib.

Slovakiya Milli Şurasının üzvləri Marcela Čavojová və Zuzana Matějčková öz növbələrində səmimi qəbula görə ombudsmana təşəkkürlərini ifadə edib, iki ölkə arasında çoxşaxəli əlaqələrin uğurla davam etdirildiyini, Slovakiya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdəki bərpa-quruculuq işlərində yaxından iştirak etdiyini bildiriblər.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər və gələcək əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan ICESCO Baş Konfransının 15-ci sessiyasında təmsil olunur

**Rusiya Federasiyası Tatarıstan Respublikasının Kazan şəhərində İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) ali orqanı - Baş Konfransının 15-ci sessiyası keçirilib. Mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti sessiyada iştirak edir.**




Nazirlikdən AZƏRTAC-a bildirilib ki, sessiyanın açılış mərasimində Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, bir sıra ölkələrdən rəsmilər və irs sahəsi üzrə mütəxəssislər iştirak ediblər.

Tədbirdə ICESCO-nun 2026-2029-cu illər üzrə strateji fəaliyyət planı, təşkilatın büdcəsi, eləcə də üzv dövlətlərlə mədəni-humanitar əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Sessiya çərçivəsində ICESCO-nun baş direktoru vəzifəsinə Salim bin Məhəmməd əl-Malikin namizədliyi irəli sürülüb və o, yekdilliklə yenidən təşkilatın rəhbəri seçilib.

Qeyd edək ki, Baş Konfrans 15-ci çərçivəsində "Kazan - 2026: İslam Dünyasının Mədəniyyət Paytaxtı İli"nin açılış mərasimi də keçiriləcək.

Tədbir mayın 14-dək davam edəcək.

# COP29-dan WUF13-ə

**Bu günlərdə dünyanın diqqəti yenidən Bakıya yönəlib. Paytaxtımız artıq rekord sayda - 180 ölkədən 32 mindən çox iştirakçının qeydiyyatdan keçdiyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi etməyə tam hazırdır. COP29-un tarixi uğurlarından dərhal sonra şəhərsalma üzrə dünyanın bu ikinci ən böyük platformasının Bakıda keçirilməsi, Azərbaycanın qlobal liderlik missiyasının və etibarlı tərəfdaş imicinin növbəti zirvəsidir.**




Bu uğuru Prezident İlham Əliyev Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına ünvanladığı müraciətində belə vurğulayıb: "2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir".

Dövlətimizin başçısı qeyd edib ki, bu mötəbər tədbir Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcək.

### Sivilizasiyaların qovşağı

Prezident İlham Əliyevin şəxsi nüfuzu, qlobal liderlik səriştəsi və yürütdüyü balanslaşdırılmış siyasət sayəsində respublikamız mötəbər qurumlarda uğurla təmsil olunur, dünyanı narahat edən problemlərin həllinə mühüm töhfələr verir. Azərbaycanın regionda yaratdığı yeni reallıqlar və təhlükəsizlik vəd edən əməli işləri ölkəmizin nüfuzlu beynəlxalq mərkəz rolunu oynamasına gətirib çıxarıb. Bu gün Bakı, həm də mühüm bəşəri qərarların qəbul edildiyi strateji dialoq platformasıdır. Dünyanın sabitlik və təhlükəsizlik adası kimi müstəsna ünvanına sahib Azərbaycanın qlobal tədbirlərin ideal məkanı imicini qazanması təsadüfi deyil. Özü də təkcə paytaxtımızda deyil, ölkəmizin Qarabağ və Şərqi Zəngəzur da daxil olmaqla hər bir bölgəsində yüksək təşkilatçılığı ilə fərqlənən qlobal miqyaslı tədbirlər, konfranslar keçirilir. Bütün bunlar respublikamızın hərtərəfli inkişafından, yaradılan zəngin infrastrukturdan xəbər verir.

İstər siyasi, iqtisadi, mədəni, idman və sair olsun, fərqi yoxdur, ölkəmizdə keçirilən tədbirlər hər zaman ideal formada həyata keçirilməsi ilə diqqət çəkib. Təşkilatçılığın yüksək səviyyədə olmasından tutmuş, nümunəvi evsahibliyinə, qonaqpərvərliyə, insanlarının mehribanlığına görə qonaqlarında unudulmaz təəssüratlar yaradıb. Ötən müddətdə Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Avroviziya", eləcə də digər mühüm tədbirlər yaddaşlarda silinməz izlər buraxıb. Adıçəkilən beynəlxalq miqyaslı tədbirlərin təşkilində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olub. Birinci xanım Mehriban Əliyevanın Təşkilat Komitəsinə rəhbərliyi sayəsində həmin tədbirlər yüksək səviyyədə keçirilib.

Azərbaycanın böyük tədbirlərə təşkilatçılığı tarixində "Avroviziya-2012" Mahnı Müsabiqəsi xüsusi bir mərhələnin başlanğıcı idi. Düsseldorf qələbəsindən sonra Bakı qısa müddətdə möhtəşəm işlərə imza atdı. Cəmi bir neçə ay ərzində Xəzərin sahilində memarlıq möcüzəsi sayılan "Baku Crystal Hall" ucaldıldı. Yüksək təşkilatçılığı ilə seçilən "Avroviziya-2012" təkcə musiqi bayramı yox, həm də Azərbaycanın müasir simasının, qonaqpərvərliyinin və idarəetmə qabiliyyətinin dünyaya nümayişi oldu.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsinin fəaliyyəti nəticəsində "Öz məşəlini alovlandır!" devizi altında keçən bu müsabiqə tarixə ən möhtəşəm "Avroviziya"lardan biri kimi düşdü. On beş gün ərzində Avropanın mədəniyyət paytaxtına çevrilən Bakı, həm infrastrukturun yenilənməsi, həm də turizm potensialının təbliği baxımından böyük irəliləyiş əldə etdi. Bu uğur Azərbaycanın gələcəkdə daha böyük layihələrə evsahibliyi edə biləcəyinə dair dünyaya verilən ilk ciddi ismarış idi.

2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunları isə dünya idman tarixində tamamilə yeni bir səhifə açdı. Avropada heç vaxt keçirilməyən bu oyunların məhz Azərbaycana etibar edilməsi ölkəmizə olan beynəlxalq etimadın ən yüksək göstəricisi idi. Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında bu tarixi məqamı belə diqqətə çatdırmışdı: "Bu, Azərbaycana Avropa Olimpiya ailəsi tərəfindən göstərilmiş böyük etimad idi. Azərbaycan Avropa ilə Asiyanı, sivilizasiyaları birləşdirir, qarşılıqlı anlaşmanın bərqərar olması üçün səylərini göstərməkdədir… …Bu, bizim üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Vaxtımız məhdud idi. Ona görə biz dərhal işə başladıq, Təşkilat Komitəsi yaradıldı. Bu müddət ərzində Təşkilat Komitəsi çox fəal və böyük uğurla işlədi. Bu gün artıq Azərbaycan və Bakı şəhəri bu oyunların keçirilməsi üçün tam hazırdır".

Cəmi iki il sonra, 2017-ci ildə Bakı IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edərək fərqli bir missiyanı - müsəlman dünyasını birləşdirmək vəzifəsini yerinə yetirdi. Bu tədbir Azərbaycanın tolerantlıq modelini bütün dünyaya sübut etdi. Həm Avropa, həm də IV İslam Həmrəyliyi Oyunlarının eyni yüksək səviyyədə, eyni şəhərdə keçirilməsi respublikamızın multikulturalizm mərkəzi olduğunu və istənilən miqyaslı tədbirin öhdəsindən gəldiyini nümayiş etdirdi. Bu oyunlar vasitəsilə Azərbaycan həm də güclü idman ölkəsi kimi özünü təsdiqlədi.

### İqlim diplomatiyasının Bakı zirvəsi

Azərbaycanın evsahibliyi etdiyi tədbirlər içərisində miqyasına görə ən böyüyü COP29 oldu. 2024-cü ildə 196 ölkədən 70 mindən çox iştirakçının toplandığı Bakı, dünyanın ekoloji gələcəyinin müəyyənləşdiyi mərkəzə çevrildi.

İşinə başladığı ilk gündən COP29 iqlim dəyişmələrinin yaratdığı fəsadlardan qurtulmaq üçün gerçək həll yollarının təklif edildiyi platforma oldu.

Bakıda keçirilən qlobal miqyaslı tədbir sülhə və həmrəyliyə çağırışları, ümidverici nəticələri ilə həm də COP-un doğru ünvanda keçirilməsini bir daha nümayiş etdirdi.

"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a evsahibliyi etməkdən şərəf duydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək", - deyə, 2024-cü il noyabrın 24-də etdiyi paylaşımda Prezident İlham Əliyev qeyd etdi ki, COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Onu da bildirək ki, Qərbdə təşkilatlanmış antiazərbaycançı şəbəkə COP29-un Bakıda keçiriləcəyini bildiyi andan etibarən qərəzli beynəlxalq KİV, təşkilat və QHT-lər vasitəsilə ölkəmizə qarşı çirkin kampaniya aparmağa başlamışdı. Ancaq COP29-un uğurla keçirilməsi həmin riyakar və ikilistandartlı qüvvələrə də tutarlı cavab oldu. Dövlətimizin başçısı da yuxarıda sözügedən paylaşımında bildirdi ki, genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

Qobal tədbirdə əldə edilən tarixi "Bakı razılaşmaları", iqlim maliyyəsi sahəsində ildə ən azı 300 milyard dollar vəsaitin səfərbər olunması öhdəliyi Azərbaycanın bəşəri problemlərin həllində vacib aktor olduğunu sübut etdi.

COP29 həm də Azərbaycanın "yaşıl enerji" gündəliyinin dünya tərəfindən qəbul edildiyini və ölkəmizin bəşəri problemlərin həllində "etibarlı tərəfdaş" olduğunu göstərdi.

### Zəfərdən quruculuğa

Azərbaycanın beynəlxalq nüfuzunun arxasında həm də 44 günlük Vətən müharibəsi ilə bərpaolunan ədalət və regionda yaradılan yeni reallıqlar dayanır. İşğala son qoyulması Cənubi Qafqazda sülh və əməkdaşlıq üçün geniş imkanlar açıb. Bu gün Qarabağ və Şərqi Zəngəzur dünyanın ən müasir quruculuq meydanıdır. Cəmi bir neçə il ərzində xarabalar üzərində "ağıllı şəhər"lər və "ağıllı kənd"lərin ucaldılması Azərbaycanın iqtisadi gücünün və xalqının yaradıcı ruhunun təzahürüdür.

"Böyük qayıdış" proqramı haqqında danışarkən deyə bilərəm ki, həmin proqram bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Təkcə bərpa etmək deyil - burada müasir texnologiyalar, "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir". 2023-cü il sentyabrın 29-da Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışında Prezident İlham Əliyevin xüsusi qeyd etdiyi kimi, bu gün Qarabağ və Şərqi Zəngəzur abadlıq meydanına çevrilib. 30 il ərzində düşmənin daşı-daş üstündə qoymadığı, "ölü torpaq" siyasəti həyata keçiridiyi 10 min kvadratkilometr ərazidə dünyada bərabərinə rastlanmayan miqyasda tikinti və quruculuq işləri aparılır. Müasir infrastruktur layihələri həyata keçirilən, dəmir və avtomobil yolları, tunellər çəkilən, elektrik enerjisi, su təchizatı və digər mühüm işlər görülən, "ağıllı kənd", "ağıllı şəhər"lər salınan Qarabağ və Şərqi Zəngəzurda artıq üç beynəlxalq hava limanı - Füzuli, Zəngilan və Laçın hava limanları fəaliyyət göstərir.

Bu dirçəliş prosesi Azərbaycanın şəhərsalma sahəsində qlobal model təklif etməsinə şərait yaradıb. İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən "yaşıl enerji" zonaları və dayanıqlı urbanizasiya metodları beynəlxalq birliyin diqqət mərkəzindədir. Məhz bu nəhəng təcrübə Azərbaycanın WUF13-ə evsahibliyi etmək hüququ qazanmasında həlledici rol oynayıb.

### Bakı dünyanın yeni şəhərsalma fəlsəfəsini müəyyən edir

Mayın 17-də Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası öz işinə başlayacaq. Prezident İlham Əliyev mayın 12-də Bakı Olimpiya Stadionunun ərazisində mayın 17-22-də keçiriləcək "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası ilə bağlı görülən işlərlə tanış olub.

Məlumat verək ki, tədbir məkanı Bakı Olimpiya Stadionu və onun ətrafında formalaşdırılan ümumi əməliyyat əhatə dairəsi üzrə 53 hektar təşkil edir. Bunun 43 hektarı əsas tədbir məkanı, 10 hektarı isə əsas nəqliyyat terminalı və parklanma-transfer zonası kimi planlaşdırılıb. Qeydiyyat, sessiya, sərgi, media, nəqliyyat, texniki təminat, könüllülər və məkan xidmətləri vahid əməliyyat sistemi kimi təşkil olunub.

Yüksəksəviyyəli qonaqlar və nümayəndə heyətləri üçün xüsusi zonalar ayrılıb. Burada dövlət və hökumət nümayəndələrinin qəbulu, ikitərəfli görüşlər, istirahət sahəsi və qidalanma xidməti üçün xüsusi məkanlar nəzərdə tutulub.

Mövcud hazırlıq səviyyəsi forumun yüksək iştirakçı axınını, çoxsaylı paralel tədbirləri və beynəlxalq nümayəndə heyətlərinin qəbullarını uyğun şəkildə planlaşdırmağa imkan verir...

COP29-dan sonra BMT-nin ikinci ən böyük platforması hesab olunan bu forumda Bakının evsahibliyi edəcəyi BMT-nin Məskunlaşma Proqramı və Azərbaycan hökuməti tərəfindən birgə təşkil olunan WUF13 dünyanın diqqətini yenidən ölkəmizə yönəldəcək. İndiyədək 180 ölkədən 32 mindən çox şəxsin qeydiyyatdan keçməsi WUF tarixində rekord göstəricidir. Bu mühüm tədbirdə Azərbaycan dövləti tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misilsiz yenidənqurma və şəhərsalma modeli, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə tətbiq edilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, bu regionların "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı görülmüş işlər müasir urbanizasiya və ekoloji bərpa sahəsində qabaqcıl nümunələr kimi dünya ictimaiyyətinə təqdim ediləcək. Qeyd edək ki, WUF13, həmçinin WUF tarixində ilk dəfə liderlər sammiti seqmentinin proqrama daxil edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

"Avroviziya"nın təntənəsindən COP29-un qlobal iqlim qərarlarına qədər keçilən yol Azərbaycanın inkişaf strategiyasının güzgüsüdür. WUF13-ün timsalında isə dünyanın yeni şəhərsalma fəlsəfəsi Bakıda formalaşacaq.

Göründüyü kimi, ölkəmiz hər bir tədbirdə həm öz mədəniyyətini, həm də yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirərək dünyanı sülh, həmrəylik və dayanıqlı inkişaf ətrafında birləşdirməyə davam edir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Azərbaycanın dinlərarası dialoq təşəbbüsü beynəlxalq platformada dəstəklənib

**Mayın 13-də İstanbulda Avrasiya İqtisadi Zirvəsi çərçivəsində Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ilə G20 Dinlərarası Forum Assosiasiyasının prezidenti Kol Durham, Ekumenik Kilsəsinin baş Mitropoliti Emmanuel, Stirlinq Fondunun vitse-prezidenti Nikol Stirlinq və digər rəsmi şəxslər arasında görüş keçirilib.**



AZƏRTAC xəbər verir ki, G20 Dinlərarası Forum Assosiasiyasının nəzdində Çoxdinli Məşvərət Şurasının təsis olunması haqqında geniş müzakirə aparılıb, üçtərəfli Anlaşma Memorandumu imzalanıb. Memoranduma əsasən, Qafqaz Müsəlmanları İdarəsi sözügedən şurada təsisçi qurum kimi çıxış edəcək ki, bu da Azərbaycanın dinlərarası dialoqa verdiyi töhfə baxımından mühüm addım, eləcə də bu prosesdə yeni mərhələ kimi qiymətləndirilir.

Qafqazın şeyxi Anlaşma Memorandumunun imzalanmasının vacibliyini ifadə edərək deyib: "Bu gün mühüm sənədi imzalayırıq. G20 Dinlərarası Forum Assosiasiyası ilə artıq əməkdaşlıqla yanaşı, həm də Məşvərət Şurasının təsisçisi kimi çıxış edəcəyik".

Assosiasiyanın prezidenti Kol Durham da yeni əməkdaşlıq müstəvisinin dinlərarası dialoqa, qlobal sülhün bərqərar olmasına töhfə verəcəyindən əminliyini ifadə edib, Azərbaycanın bu prosesdə mühüm xidmətlərinin olduğunu diqqətə çatdırıb.

Sonra bu ilin oktyabr ayında ABŞ-də keçiriləcək G20 Dinlərarası Forumuna hazırlıq, dəvət ediləcək qonaqlarla bağlı fikir mübadiləsi aparılıb.

Forumun qlobal əhəmiyyətindən danışan Şeyxülislam Allahşükür Paşazadə sözügedən tədbirə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən dəstək göstəriləcəyini diqqətə çatdırıb.

Sonra qarşılıqlı maraq doğuran qlobal və regional məsələlər müzakirə edilib.

# SOCAR-ın prezidenti "Özbəkistanın nefti və qazı" 28-ci beynəlxalq sərgi-konfransında iştirak edib



**SOCAR-ın prezidenti Rövşən Nəcəf Daşkənd şəhərində keçirilən "Özbəkistanın nefti və qazı (OGU-2026)" 28-ci beynəlxalq sərgi-konfransında iştirak edib.**

Qurumdan AZƏRTAC-a verilən məlumata görə, tədbir çərçivəsində Özbəkistanın Prezidenti Şavkat Mirziyoyev SOCAR-ın prezidenti Rövşən Nəcəfi, BP şirkətinin baş vitse-prezidenti Ariel Floresi, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Ciovanni Kristofolini qəbul edib.

Rövşən Nəcəf Prezident Şavkat Mirziyoyevə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını çatdırıb. Prezident Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

SOCAR prezidenti Rövşən Nəcəf BP şirkətinin baş vitse-prezidenti Ariel Flores və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Ciovanni Kristofoli ilə birgə Özbəkistan Respublikasının energetika naziri Jurabek Mirzamahmudov və "Uzbekneftegaz" ASC İdarə Heyətinin sədri Abdugani Sanginov ilə üçtərəfli görüşlər keçirib.

Görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən müəyyənləşdirilən uzaqgörən siyasətə uyğun olaraq, "Üstyurt" layihəsinin uğurla həyata keçirildiyi qeyd olunub. Müzakirələr zamanı "Üstyurt" investisiya blokları üzrə kəşfiyyat, işlənmə və hasilat fəaliyyətlərinin icrasına, tərəflər arasında əməkdaşlığın genişləndirilməsinə dair məsələlər barədə fikir mübadiləsi aparılıb.

Üçtərəfli görüşlərdən sonra BP şirkətinin "Üstyurt" investisiya bloklarının kəşfiyyatı, işlənməsi və hasilatı üzrə Pay Bölgüsü Sazişinə qoşulmasına dair sənədlər imzalanıb.

SOCAR prezidentinin "MOL Group" şirkətinin icraçı vitse-prezidenti Zsombor Marton ilə görüşündə şirkətlər arasında uzunmüddətli tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə olunub, birgə həyata keçirilən layihələrin icra vəziyyəti nəzərdən keçirilib.

Rövşən Nəcəf tədbir çərçivəsində OGU-2026 sərgisi ilə də tanış olub.

SOCAR sərgidə öz pavilyonu ilə təmsil olunur. Stenddə SOCAR-ın müxtəlif fəaliyyət istiqamətləri, Azərbaycanda və xarici ölkələrdə həyata keçirilən əməliyyatlar, neft və qaz boru kəmərləri sistemi, "yaşıl enerji" təşəbbüsləri, rəqəmsal həllər və digər strateji layihələri haqqında məlumatlar ziyarətçilərə təqdim edilir.

Qeyd edək ki, SOCAR-ın pavilyonu OGU-2026 beynəlxalq sərgisində "Ən Yaxşı Milli Stend Dizaynı" nominasiyası üzrə mükafata layiq görülüb.

# *Tacikistanlı ekspert:* "Bakı Düşənbənin bütün su təşəbbüslərinə ardıcıl dəstək göstərib"




**Tacikistan su məsələləri və iqlim gündəliyi ilə bağlı beynəlxalq təşəbbüslərin inkişafı ilə bağlı Azərbaycanın dəstəyini yüksək qiymətləndirir.**

AZƏRTAC xəbər verir ki, bunu Tacikistanın BMT yanında daimi nümayəndəliyinin əməkdaşı, 2018-2028-ci illər üzrə "Dayanıqlı inkişaf naminə su" Beynəlxalq Fəaliyyət Onilliyi çərçivəsində keçirilən 4-cü Yüksək Səviyyəli Beynəlxalq Konfransın Katibliyinin nümayəndəsi Təhminə Həsənova deyib.

Onun sözlərinə görə, Azərbaycan BMT çərçivəsində Tacikistanın bütün su təşəbbüslərinə ardıcıl dəstək verib.

"Bütün təşəbbüslərimizə göstərdiyi dəstəyə görə Azərbaycana çox minnətdarıq. BMT prosesləri çərçivəsində Tacikistanın su sahəsində təşəbbüsləri ilə bağlı təxminən 14 qətnamə qəbul olunub və qardaş ölkə kimi Azərbaycan onları fəal dəstəkləyib. Bütün bu sənədlər konsensus əsasında qəbul edilib", - deyə o söyləyib.

T.Həsənova vurğulayıb ki, Azərbaycan Düşənbə Su Prosesi çərçivəsində keçirilən beynəlxalq konfranslarda fəal iştirak edir. O həmçinin Azərbaycanın sədrliyi ilə keçirilmiş COP29 çərçivəsində iki ölkə arasında əməkdaşlığı xüsusi qeyd edib: "Azərbaycanın mükəmməl rəhbərliyi altında Su Pavilyonunun təşkili və su ehtiyatlarının iqlim gündəliyində rolunun təşviqi istiqamətində çox səmərəli əməkdaşlığımız formalaşıb. İqlimlə su ehtiyatları arasındakı sıx əlaqəni nəzərə alsaq, bu, böyük əhəmiyyət kəsb edirdi. Azərbaycan buzlaqların qorunması ilə bağlı təşəbbüslərə də mühüm dəstək göstərib. COP29 çərçivəsində buzlaqların qorunması məsələlərinə həsr olunmuş xüsusi pavilyon təşkil edilib və bu, tərəflər arasında əməkdaşlığın uğurlu nəticələrindən birinə çevrilib. COP29-un yekun sənədlərində su və buzlaqlar məsələlərinə xüsusi diqqət ayrılıb".

O həmçinin bildirib ki, Azərbaycan qarşıdan gələn Düşənbə Su Konfransında iştirakını artıq təsdiqləyib.

"Bundan əlavə, Tacikistan 2028-ci ildə region tarixində ilk dəfə olaraq BMT-nin su ehtiyatları üzrə konfransına evsahibliyi edəcək. Bu, təkcə ölkələrimiz arasında deyil, həm də regionun bütün dövlətləri ilə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün yaxşı imkan olacaq", - deyə T.Həsənova əlavə edib.

# "EFES - 2026" təlimində Azərbaycan və Türkiyə nümayəndələrinin görüşü olub



**Türkiyədə keçirilən "EFES - 2026" çoxmillətli təlimi çərçivəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri general-leytenant Azər Əliyevlə Ege Ordusu və Qarnizon komandanı ordu generalı İrfan Özsert arasında görüş keçirilib.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüşdə ölkələrimizin iştirakı ilə keçirilən beynəlxalq təlimlərin ordularımızın döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına mühüm töhfələr verdiyi xüsusi vurğulanıb.

Qeyd olunub ki, bu cür tədbirlər hərbi qulluqçularımızın bilik və bacarıqlarının artırılmasında, təcrübə mübadiləsinin genişləndirilməsində, eləcə də hərbi sahədə əməkdaşlığın möhkəmləndirilməsində böyük əhəmiyyətə malikdir.

Tərəflər həmçinin hərbi və hərbi-texniki sahələrdə həyata keçirilən birgə fəaliyyətlər, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparıblar.

# Azərbaycan və Özbəkistan HHQ-ləri arasında əməkdaşlıq inkişaf etdiriləcək

**Azərbaycan və Özbəkistan Müdafiə nazirlikləri arasında imzalanmış 2026-cı il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, bu ölkənin Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin (HHQ) nümayəndə heyəti ölkəmizə səfər edib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, HHQ-də keçirilən görüşdə ölkələrimiz arasında digər sahələrdə olduğu kimi, hərbi aviasiya



və hava hücumundan müdafiə üzrə əməkdaşlıqların da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər həmçinin Azərbaycan-Özbəkistan hərbi əməkdaşlığının cari vəziyyəti, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparıblar.

Qeyd edək ki, səfərin başlıca məqsədi hər iki ölkənin HHQ-ləri arasındakı əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Cənubi Qafqazın geosiyasi transformasiyası: ssenarilər və proqnozlar

**Cənubi Qafqazın geosiyasi dinamikası və onun mümkün transformasiya ssenariləri haqqında müxtəlif kontekstlərdə fikir yürütmək və proqnoz vermək olar. Biz məsələyə Azərbaycanın indiki dönəmdə xarici siyasətinin xüsusiyyətləri kontekstində yanaşacağıq. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycan regionun lider dövləti kimi ümumi geosiyasi mənzərəyə ciddi təsir göstərir. Bakının mövqeyini nəzərə almadan burada hər hansı davamlı geosiyasi dəyişmələrin olması mümkün deyil.**

Digər səbəb dünyanın böyük güclərinin Cənubi Qafqaz siyasətində ön sıraya Azərbaycanı çıxarması ilə bağlıdır. Yeni qlobal miqyasda söz sahibi olan qüvvələr də artıq bu regiona müəyyən mənada Bakının gözü ilə baxırlar. Bunu region istiqamətində atılan addımlar da təsdiqləyir. Mütəxəssislər vurğulayırlar ki, uzun müddət böyük güclər Cənubi Qafqaza öz maraqları və ideologiyaları fonunda baxırdılar. Çünki burada onların maraqları kəsişirdi. ABŞ, Rusiya, Aİ, Türkiyə, İran, Fars körfəzi ölkələri regionda fəal idilər. Bu cür yanaşma regionda "çoxqatlı geosiyasi sistem" yaratmışdı. İlk olaraq Azərbaycan vurğulanan anlamda "kiminsə oyuncağı" olmadığını sübut etdi. Bakı "özünün strateji gələcəyinin müstəqil arxitektoru" olduğunu nümayiş etdirdi. Bunu rəsmi Bakı "iqtisadi praqmatizm, hərbi təmkin və diplomatik çeviklik"lə sübut etdi.

Deməli, Azərbaycan xarici siyasəti ilə regiona öz strateji gələcəyinin arxitektoru olmaq keyfiyyətini gətirdi. Buna görə də Cənubi Qafqazın hazırkı geosiyasi konfiqurasiyası və onun mümkün transformasiya ssenariləri rəsmi Bakının xarici siyasətindəki bu yenilik kontekstində araşdırılmalıdır.

### Balanslı strategiya

Ekspertlər Azərbaycanın xarici siyasəti kontekstində Cənubi Qafqazın geosiyasi mənzərəsi ilə bağlı bir sıra xüsusiyyətləri xüsusi vurğulayırlar. Məsələn, yazırlar: "...Qlobal oyunçularla tərəfdaşlıq münasibətlərini eyni müstəvidə qoruyan balanslı strategiya çox vaxt ən düzgün seçim olur... Azərbaycan birmənalı olaraq Cənubi Qafqazın strateji dinamikasında əsas mərkəzdir... ABŞ və Avropa İttifaqının Cənubi Qafqaza marağının artması fonunda yüksək texnologiyalar, təhlükəsizlik və "yaşıl iqtisadiyyat" sahələrində əməkdaşlıq məsələləri xüsusi aktuallıq kəsb edir. İkitərəfli və çoxtərəfli layihələrin genişlənməsi regional sabitliyin möhkəmlənməsi və ölkənin qlobal iqtisadi və texnoloji sistemdə rolunun artması üçün imkanlar yaradır. Eyni zamanda strateji təşəbbüslər Cənubi Qafqazın uzunmüddətli inkişafına xidmət edir..."

Həqiqətən də, regionda əsas söz sahibi olan müstəqil dövlətin regional miqyasda qlobal oyunçularla tərəfdaşlıq münasibətlərini eyni müstəvidə qoruyan balanslı strategiya həyata keçirə bilməsi çox əhəmiyyətlidir. Çünki bu halda dövlət öz milli maraqları ilə regionda baş verən proseslərə ciddi təsir göstərən böyük güclərin maraqlarını vahid məntiqi müstəviyə gətirə bilir. Bu isə regional geosiyasətdə regional liderin - Azərbaycanın Cənubi Qafqazın strateji dinamikasında mərkəzi qüvvə olmasını təmin edir. Ayrılıqda ABŞ və Aİ-nin regionda marağının artması fonunda "yüksək texnologiyalar, təhlükəsizlik və "yaşıl iqtisadiyyat" sahələrində əməkdaşlıq məsələləri"nə xüsusi aktuallıq verir. Buradan məntiqi olaraq belə nəticə çıxır ki, ikitərəfli və çoxtərəfli layihələrin genişlənməsi regional sabitliyin möhkəmlənməsinə mühüm töhfə verir. Bu kimi təşəbbüslər isə ümumilikdə regionun uzunmüddətli və dayanıqlı inkişafına xidmət edir.

Azərbaycanın xarici siyasəti fonunda Cənubi Qafqazın geosiyasi gələcəyinə bu faktorların qarşılıqlı təsirləri müstəvisində baxmaq olar. Həmin kontekstdə regional geosiyasi transformasiyada mühüm rol oynaya biləcək faktorları müəyyən etmək lazımdır.

### Reallığın dəyişdiyi yer

Ekspertlər çox haqlı olaraq Cənubi Qafqaz regionunu bir sıra aspektlərdə reallığın infrastruktur və nəqliyyat-logistika müstəvisində dəyişdiyi məkan kimi qiymətləndirirlər. Azərbaycan ekspertlərindən biri yazır: "Bu gün Ələt limanına və ya Gürcüstandakı dəmir yolu stansiyasına getsəniz, Cənubi Qafqazın artıq logistika hesabatlarında, sadəcə, bir xətt olmadığını görərsiniz. Bu, reallığın gözlərinizin önündə dəyişdiyi bir yerdir və bu, artıq analitikin proqnozu deyil, konteynerlərin sayında, tikinti müqavilələrində və diplomatik səfərlərin sıx cədvəlində əks olunan bir faktdır. Bu yaxınlara qədər region boru kəmərinin çəkilə biləcəyi bir periferiya kimi qəbul edilirdi, lakin indi rəqəmlər fərqli bir hekayəni danışır".

Burada əsas fikir ondan ibarətdir ki, dünya artıq Cənubi Qafqaza qlobal dəyişikliklərin fonunda baxmağa məcburdur. Artıq həmin yeni reallıqlar o səviyyədədir ki, regiona hansısa təşkilatın və ya qurumun logistika hesabatlarında verilən formal faktor kimi baxıla bilməz. Konkret faktları olan infrastruktur və logistika şəbəkəsini əsas olaraq nəzərə almaqla regionun geosiyasi mənzərəsini diqqətə almaq lazım gəlir. Bu, Azərbaycanın xarici siyasətinin prioritetlərinin tam həyata keçməsi sayəsində mümkün olmuşdur. Ələt limanında yüksəksəviyyəli xidmət şəbəkəsi olmasa, Gürcüstanın nə dəmiryolu stansiyası, nə də dəniz limanlarının regional geosiyasi dinamikaya müsbət təsirindən danışmaq mümkündür. Çünki Gürcüstan bir dövlət olaraq regional miqyasda sosial-iqtisadi, enerji, nəqliyyat-logistika, informasiya, ekologiya və sair infrastruktur sistemini yarada bilməz. Gürcüstan Azərbaycanın lazımi dəstəyi və konkret layihələri sayəsində regional geosiyasi mənzərənin mühüm fraqmentinə çevrilə bilir.

Bütün bunlara görə, indi region boru kəmərinin çəkilə biləcəyi bir periferiya kimi deyil, arxasında müstəqil Azərbaycanın liderinin dayandığı dinamik surətdə yeniləşən məkan kimi qəbul edilir.

Təbii ki, Cənubi Qafqazın geosiyasətində böyük güclərin rəqabətinin yeni çalarları mütləq müəyyən edilməlidir. Azərbaycanın xarici siyasəti fonunda bu məsələ necə görünür?

### Çin və Qərb təşəbbüslərinin uzlaşması

Bu, Cənubi Qafqazın geosiyasi gələcəyi baxımından çox əhəmiyyətli və aktual istiqamətdir. Şübhə yoxdur ki, hazırda ABŞ başda olmaqla Avropa İttifaqı ilə Çin arasında dünyada nüfuz dairələrinin yeni geosiyasi bölgüsü uğrunda kəskin mübarizə gedir. Onun əsas tərəflərindən birini iqtisadi, enerji və nəqliyyat layihələri təşkil edir. Son dövrlərdə isə əlvan metallar uğrunda əsl savaş başlamışdır.

İki böyük qlobal geosiyasi gücün regiondakı savaşı, əlbəttə, çox ciddi prosesləri meydana gətirir. Ekspertlər sırasında problemə məhz bu kontekstdə yanaşaraq yaranmış situasiyanı təhlil edib proqnostik baxımdan maraqlı tezislər irəli sürənlər də var. Bu baxımdan aşağıdakı qənaət diqqət çəkir.

Bəzi ekspertlər hazırkı mərhələdə Cənubi Qafqazı "qlobal rəqabətin mərkəzi" kimi təqdim edir və onun başlıca əlamətləri olaraq bir sıra faktorları vurğulayırlar: "Çinin "Bir kəmər, bir yol" təşəbbüsü sürəti və miqyası ilə standartlara və şəffaflığa üstünlük verən "Qlobal qapı" kimi Qərb təşəbbüsləri ilə toqquşur. Kağız üzərində bu yanaşmalar iki fərqli dil kimi bir-birinə uyğun gəlmir, lakin limanlarda və gömrük terminallarında onların nümayəndələri gündəlik danışıqlar aparmaq məcburiyyətində qalırlar.

### Regional geosiyasətə yanaşmalar

Mərkəzi Asiya ölkələrinin, Hindistanın, İranın, Fars körfəzi ölkələrinin və Türkiyənin maraqları bir-birinə qarışmışdır və xəritə ikili müxalifətdən daha mürəkkəb hala gəlmişdir. Nəticədə Cənubi Qafqaz qlobal rəqabətin bəyannamələrlə deyil, fərqli sistemlərin paralel olaraq nə qədər effektiv işləyə biləcəyi ilə sınaqdan keçirildiyi və geoiqtisadi gərginliklərin bütün iştirakçılar üçün inkişafın hərəkətverici qüvvəsinə çevrildiyi unikal bir arena kimi ortaya çıxır".

Burada regiona yanaşmada müəyyən natamamlıq müşahidə olunur. Məsələ ondan ibarətdir ki, Mərkəzi Asiya ölkələrinin, Hindistanın, İranın, Fars körfəzi ölkələrinin və Türkiyənin maraqlarının bir-birinə qarışması səbəb deyil, nəticədir. Başlıca geosiyasi oyunçular ABŞ, Çin və Rusiyadır. Son dövrlərdə İsrail də özünü ortaya atmağa çalışır. Məhz onların maraqları bölgədə bir-birinə qarışmışdır və bunun nəticəsində region dövlətləri, İran, Türkiyə, Mərkəzi Asiya ölkələri, Hindistan və digərləri olduqca həssas geosiyasi durumla üzləşmişlər. Məhz bu reallığı qəbul etməklə müsbət nəticəverici mövqedən hansı mənalarda Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ilə Qərbin "Qlobal qapı" strategiyasının Cənubi Qafqazda uzlaşdığını təhlil edə bilərik.

Azərbaycanın xarici siyasətinin indiki mərhələdə aktual prioritet istiqamətlərindən biri kontekstində vurğulanan özəllik bir sıra maraqlı tezisləri gündəmə gətirir.




### "Bir kəmər, bir yol" - "Qlobal qapı": Azərbaycanda dialoq

Cənubi Qafqazın bütün iştirakçılar üçün inkişafın hərəkətverici qüvvəsinə çevrildiyi unikal bir arena kimi ortaya çıxması imkanı reallaşmalıdır. Bunun üçün regional liderin realpolitika çərçivəsində həyata keçirdiyi praqmatik siyasət ilə böyük güclərin bu yanaşmanı qəbul etməsi qarşılıqlı şəkildə bir-birini tamamlamalıdır. Azərbaycan Prezidentinin regional miqyasda səmərəverici praqmatik siyasi kurs yeritməsinin təsdiqi Azərbaycanın təşəbbüsü ilə reallaşan layihələrdən həm region ölkələrinin, həm də böyük güclərin qarşılıqlı faydalılıq prinsipi əsasında bəhrələnməsi öz əksini tapır.

Buna görə də aşağıdakı qənaəti düzgün hesab etmək olar: "Regionun hazırkı dinamikasını yüksəksəviyyəli geosiyasi qarşıdurma deyil, məhz… gündəlik, praqmatik birgəyaşayış müəyyən edir. Cənubi Qafqaz mürəkkəb, çoxölçülü bir sistemə çevrilmişdir ki, burada uğur kimin modelinin mücərrəd rəqabətdə "qalib gəlməsi" ilə deyil, fərqli oyunçuların konkret layihələrdə nə qədər effektiv şəkildə ortaq məxrəc tapması ilə ölçülür; kompromis danışıqlar otaqlarında deyil, konteynerlərin, standartların və maliyyə axınlarının kəsişməsində yaranır".

Bu imkan Azərbaycanın xarici siyasətinin səmərəli olmasından qaynaqlanır. Region ölkələrinin və böyük güclərin "konkret layihələrdə effektiv şəkildə ortaq məxrəc tapması"nın təməl şərtlərini və ümumi modelini Azərbaycan yaratmışdır. Həyata keçirilən layihələr "Bir kəmər, bir yol"la (Çin təşəbbüsü) "Qlobal qapı"nın (Qərb) Cənubi Qafqazda "geosiyasi dialoqu"nu təmin edirlər.

Bu prosesdə Orta dəhlizin xüsusi rolu var. Ümumiyyətlə, bu marşrut Çindən başlayaraq Rusiyadan yan keçməklə Mərkəzi Asiya-Xəzər dənizi-Cənubi Qafqaz-Türkiyə-Avropa istiqamətində uzanan böyük bir coğrafi ərazini əhatə edir. Ona Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) da deyilir.

Həmin marşrutun tərkibində Zəngəzur dəhlizinin (TRIPP) rolu xüsusi əhəmiyyət kəsb edir. Çünki ekspertlər Zəngəzur dəhlizinə Azərbaycanın Türkiyə ilə quru yolla birləşməsinin əsas əlaqə yaradan məkanı kimi baxırlar.

Beləliklə, Orta dəhliz geniş bir coğrafiyada Şərqlə Qərbi birləşdirə bilən layihə olaraq çox aktualdır. Azərbaycan Prezidenti İlham Əliyevin Orta dəhlizin işləməsi üçün çox səmərəli addımlar atdığı dünya tərəfindən etiraf edilir. 2025-ci il sentyabrın 24-də dövlət başçımız "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusunda 6-cı Xəzər Biznes-Forumunun iştirakçılarına ünvanladığı müraciətdə vurğulamışdır: "Orta dəhliz çox geniş coğrafiyanı birləşdirən strateji layihədir. Bu dəhliz Avropanı Xəzər dənizi vasitəsilə Asiya ilə bağlayan etibarlı və təhlükəsiz marşrut, yüklərin Asiyadan Avropaya və əks istiqamətdə çatdırılmasının ən qısa və optimal yoludur.

Azərbaycanın əlverişli coğrafi mövqeyi - iki qitənin tam ortasında yerləşməsi bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Bu gün artıq fəxrlə deyə bilərik ki, Azərbaycanın uzunmüddətli baxışı və yorulmaz səyləri nəticəsində Asiya və Avropa arasında daha yaxşı sinerjini təmin edən Orta dəhliz kimi irimiqyaslı layihənin reallaşması mümkün olmuşdur. Orta dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir".

Beləliklə, Azərbaycan Prezidenti Orta dəhlizin geosiyasi əhəmiyyətini ölkəmizin xarici siyasəti kontekstində dolğun şəkildə ifadə etmişdir. Məhz Azərbaycan liderinin fəaliyyətinin əsasında tədqiqatçılar belə qənaətə gəlmişlər ki, Orta dəhlizdə əsas məkan kimi Azərbaycan çıxış edir ki, Gürcüstandan Türkiyəyə gedən boru xəttinin tikintisinə 20 milyard dollar sərmayə qoymuşdur.

Deməli, Azərbaycanın xarici siyasəti Orta dəhlizin geniş coğrafi məkanda faydaverici funksiya yerinə yetirməsi üçün ciddi rol oynamışdır. Rəsmi şəxslər bu barədə geniş bəhs edirlər. Vurğulanır ki, Orta dəhlizin idarə edilməsində bir neçə dövlət aparıcı rol oynayır. Ölkələrin mehriban qonşuluq fəlsəfəsi üzərində qurulan bu layihə bir-birindən fayda götürməyə və ümumi məqsəd uğrunda kollektiv fəaliyyət göstərməyə imkan verir. Məsələnin bu aspektində Azərbaycanın rolu əvəzsizdir.

Beləliklə, Azərbaycanın xarici siyasətində Cənubi Qafqazın geosiyasi gələcəyi baxımından böyük əhəmiyyəti olan məqamlar yer almışdır. Azərbaycan rəhbəri həyata keçirdiyi siyasətlə real olaraq regional inkişafa və sabitliyə qiymətli töhfələrini verir. Onların sırasında rəsmi Bakının Orta dəhlizin işə salınması istiqamətində atdığı addımlar xüsusi yer tutur.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

## *BMT nümayəndəsi:* "Bakı son illərdə beynəlxalq dialoq və tərəfdaşlıq məkanına çevrilib"

**"Ticarət yalnız limanlar, yollar və gömrük sistemləri vasitəsilə həyata keçirilmir. Ticarət həm də şəhərlər, insanlar və yaşayış məkanları vasitəsilə inkişaf edir. Şəhərlər iqtisadi imkanların, innovasiyaların, sosial inteqrasiyanın və dayanıqlı inkişafın mərkəzidir. Dayanıqlı şəhər sərmayələri isə gələcəyin iqtisadiyyatını formalaşdıran əsas qüvvələrdən biridir".**



AZƏRTAC xəbər verir ki, bu barədə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Azərbaycan Ofisinin nümayəndəsi Runze Vanq "Şəhərlərdən sərhədsiz ticarətə: İxrac və logistika forumu"nda deyib.

O bildirib ki, Azərbaycan bu baxımdan unikal coğrafi mövqeyə malikdir: "Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən ölkə kimi Azərbaycan yalnız nəqliyyat dəhlizlərinin deyil, həm də şəhər inkişafı və regional əməkdaşlığın mühüm platformasına çevrilir. Xüsusilə Bakı şəhəri son illərdə qlobal tədbirlərə evsahibliyi etməklə beynəlxalq dialoq və tərəfdaşlıq məkanına çevrilib".

"Bu həftə Bakı üçün xüsusi əhəmiyyət daşıyır. Gələn həftədən etibarən şəhər Ümumdünya Şəhərsalma Forumunun - WUF13-ün iştirakçılarını qəbul edəcək. Artıq 180 ölkədən 132 mindən çox insan forumda iştirak üçün qeydiyyatdan keçib. Bu, yalnız Azərbaycan üçün deyil, bütün region üçün mühüm hadisədir. BMT-nin Məskunlaşma Proqramı - UN-Habitat tərəfindən təşkil olunan Dünya Şəhərsalma Forumu urbanizasiya, dayanıqlı şəhər inkişafı, iqlim çağırışları, sosial inklüzivlik və şəhər iqtisadiyyatı üzrə dünyanın ən böyük beynəlxalq platformalarından biridir. Forum hökumətləri, beynəlxalq təşkilatları, özəl sektoru, akademik dairələri və vətəndaş cəmiyyətini bir araya gətirərək şəhərlərin gələcəyini müzakirə etmək üçün qlobal əməkdaşlıq imkanları yaradır. WUF13 hamımız üçün vacibdir. Çünki dayanıqlılıq yalnız infrastrukturu qorumaq demək deyil. Dayanıqlılıq eyni zamanda insanların imkanlarını, rifahını və gələcəyə çıxışını qorumaqdır. Ticarətin və iqtisadi inkişafın gələcəyi təkcə yollar, limanlar və logistika ilə qurulmayacaq. Bu gələcək eyni zamanda dayanıqlı, yaşıl, inklüziv və innovativ şəhərlərlə formalaşacaq. Bakıdakı WUF13 forumu da məhz bu gələcəyin necə qurulacağını birlikdə müzakirə etmək üçün mühüm platformadır", - deyə Runze Vanq əlavə edib.

## *Türk ekspert:* "Regionun geosiyasi arxitekturasını Bakı və Ankara müəyyən edir"

**"Fransa Prezidenti Emmanuel Makronun son illərdə həyata keçirdiyi daxili və xarici siyasət kursu həm Fransa cəmiyyətində, həm də beynəlxalq siyasi dairələrdə ciddi narazılıq doğurmaqdadır".**



Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert Cafer Dal bildirib. C.Dalın fikrincə, Makronun populist bəyanatlara və selektiv yanaşmalara əsaslanan siyasəti Fransanın qlobal nüfuzuna ciddi zərbə vurub və ölkəni uzun illər malik olduğu diplomatik təsir imkanlarından mərhələli şəkildə uzaqlaşdırıb.

Ekspert bildirib ki, hazırda Fransa daxilində Makrona qarşı ictimai etimadın sürətlə azalması təsadüfi deyil. Onun sözlərinə görə, iqtisadi problemlərin dərinləşməsi, sosial narazılıqların artması, pensiya islahatları ətrafında yaranan gərginlik, miqrasiya böhranı və təhlükəsizlik problemləri Fransa cəmiyyətində hakimiyyətə qarşı ciddi etiraz dalğası formalaşdırıb. Cafer Dal qeyd edib ki, küçə aksiyalarının və hökumət əleyhinə çağırışların intensiv xarakter alması Makron administrasiyasının zəifləyən legitimliyinin göstəricisi hesab olunur.

Türk ekspert vurğulayıb ki, Fransa Prezidenti daxili siyasətdə üzləşdiyi uğursuzluqları kompensasiya etmək üçün xarici siyasətdə daha sərt və emosional ritorikaya üstünlük verir. Lakin bu yanaşma Parisin beynəlxalq münasibətlər sistemindəki mövqeyini gücləndirmək əvəzinə daha da zəiflədir. Onun sözlərinə görə, xüsusilə Cənubi Qafqaz məsələsində Makronun nümayiş etdirdiyi birtərəfli və qeyri-obyektiv mövqe Fransanın vasitəçi kimi etibarlılığına ciddi xələl gətirib.

C.Dal hesab edir ki, Azərbaycan regionda yeni siyasi və hüquqi reallıq formalaşdırmaqla beynəlxalq münasibətlər sistemində prinsipial mövqe ortaya qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü tam təmin etməsi beynəlxalq hüququn aliliyinin real nümunəsinə çevrilib. Ekspert bildirib ki, bu proses eyni zamanda illərlə fəaliyyətsiz qalan və status-kvonun qorunmasına xidmət edən beynəlxalq mexanizmlərin iflasını nümayiş etdirdi.

Onun fikrincə, ATƏT-in keçmiş Minsk qrupu fəaliyyət göstərdiyi müddətdə münaqişənin həllindən daha çox işğal vəziyyətinin uzanmasına şərait yaradıb: "Fransa bu platformada vasitəçi statusuna malik olsa da, əslində, tərəfsiz mövqe sərgiləməyib və ermənipərəst siyasəti ilə seçilib. Bu isə Parisin region xalqları arasında etimadını ciddi şəkildə sarsıdıb. Makronun son dövrlərdə Ermənistanla münasibətləri nümayişkaranə şəkildə ön plana çıxarması Fransanın Cənubi Qafqaz siyasətində balansı tam itirdiyini göstərir. Onun sözlərinə görə, Fransa Prezidenti regionda yeni geosiyasi düzəni qəbul etmək əvəzinə köhnə siyasi stereotiplərlə hərəkət etməyə çalışır. Lakin artıq bölgədə tamamilə fərqli reallıq formalaşıb və bu reallığın əsas memarları Azərbaycan və Türkiyədir". C.Dal diqqətə çatdırıb ki, Makronun Ermənistana planlaşdırdığı səfərinin Türkiyə üzərindən həyata keçirilməsi ilə bağlı niyyətinin baş tutmaması da siyasi baxımdan mühüm mesaj hesab olunmalıdır. O bildirib ki, Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın nümayiş etdirdiyi prinsipial mövqe bölgədə artıq kənar siyasi manipulyasiyalara imkan verilmədiyini göstərdi.

Ekspert vurğulayıb ki, Ankara və Bakı arasında strateji müttəfiqlik münasibətləri regionun təhlükəsizlik arxitekturasını köklü şəkildə dəyişib. Onun sözlərinə görə, Türkiyə və Azərbaycanın koordinasiyalı siyasəti yalnız Cənubi Qafqaz üçün deyil, bütövlükdə türk dünyası və Avrasiya məkanı üçün yeni geosiyasi əməkdaşlıq modeli formalaşdırır: "Bu gün regionda əsas söz sahibi olan ölkələr reallığı sahədə formalaşdıran dövlətlərdir. Azərbaycan öz gücü hesabına beynəlxalq hüququ bərpa edib, Türkiyə isə bölgədə sabitlik və təhlükəsizliyin təmin olunmasında əsas strateji tərəfdaş kimi çıxış edib. Bu amillər fonunda Fransa kimi ölkələrin birtərəfli bəyanatlarla proseslərə təsir imkanları xeyli zəifləyib". Ekspertin fikrincə, Makron administrasiyası region dövlətləri ilə münasibətlərdə emosional və ideoloji yanaşmadan imtina etməsə, Fransa Cənubi Qafqazda tamamilə kənarda qala bilər. O bildirib ki, beynəlxalq münasibətlərdə etimadın əsas şərti obyektivlik və beynəlxalq hüquqa hörmətdir. Paris isə son illərdə bu prinsiplərdən uzaqlaşdığı üçün həm regional, həm də qlobal miqyasda nüfuz itkisi ilə üzləşir.

Türk ekspert vurğulayıb ki, Azərbaycan və Türkiyənin nümayiş etdirdiyi siyasi iradə regionda sülhün, əməkdaşlığın və sabitliyin əsas təminatçısıdır. Onun sözlərinə görə, bölgədə yaranmış yeni geosiyasi reallıq artıq beynəlxalq aktorlar tərəfindən qəbul edilməyə başlanıb və bu reallığa qarşı çıxmaq cəhdləri nəticəsiz qalacaq.

# Azərbaycanın sülh təşəbbüsü regionun gələcəyinə hesablanmış strateji baxışdır

**Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərə imza atdıqdan sonra regionda dayanıqlı inkişafın təmin olunması, Ermənistanla münasibətlərdə yeni səhifə açılması üçün qarşı tərəfə sülh təklifini etdi. Buna nail olmaq üçün müxtəlif məkanlarda və tərkiblərdə görüşlər oldu. Azərbaycan sülh müqaviləsinin imzalanması üçün üzərinə düşən bütün öhdəlikləri yüksək səviyyədə yerinə yetirməklə bərabər, bunu Ermənistandan da tələb etdi. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülh müqaviləsinin mətnini parafladılar, həmçinin həmin gün Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri birgə bəyannamə imzaladılar. ABŞ Prezidenti Donald Tramp da buna şahid qismində imza atdı.**



Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın dayanıqlı sülhün, təhlükəsizliyin təmin edilməsinə, siyasi dialoqun təşviqinə verdiyi töhfələr beynəlxalq səviyyədə təqdir edilir: "Dövlət başçısı İlham Əliyevin 2021-ci ilin noyabrında Türk Dünyasının Ali Ordeninə, bu ilin fevralında "Zayed İnsan Qardaşlığı Mükafatı"na, aprelin 26-da isə "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi də özündə mühüm məqamları ehtiva edir. Prezident İlham Əliyevin Cənubi Qafqaz regionunda sülh gündəliyinin müəllifi olması dünyada qəbul edilmiş reallıqdır. Otuz ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış, müharibənin ağır fəsadları ilə üzləşmiş Azərbaycan xalqı sülhün və barışın dəyərini çox yaxşı bilir. Prezident İlham Əliyev "Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına məktubunda qeyd etmişdi ki, Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq".

Deputat qeyd edib ki, Cənubi Qafqaz uzun illər münaqişə, qarşıdurma və geosiyasi gərginliklərin təsiri səbəbindən inkişaf imkanlarını tam reallaşdıra bilməmiş bir region olub. Lakin Azərbaycanın regionda yaratdığı yeni reallıq göstərir ki, inkişafın və təhlükəsizliyin əsas yolu sülhdən keçir. Sülh təşəbbüsünün əsas müəllifi məhz Azərbaycandır. Bu il mayın 10-da Prezident İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə bildirdi ki, bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik. Biz istəməsəydik, sülh olmayacaqdı. Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər.

V.Rəhimzadə vurğulayıb ki, Azərbaycanın irəli sürdüyü sülh gündəliyi yalnız iki ölkə arasındakı münasibətlərin normallaşmasına xidmət etmir, bu təşəbbüs bütövlükdə Cənubi Qafqazın iqtisadi və siyasi gələcəyini müəyyənləşdirə biləcək bir modeldir: "Çünki regionda dayanıqlı sabitlik yaranarsa, nəqliyyat layihələri genişlənəcək, enerji əməkdaşlığı güclənəcək və beynəlxalq investorların Cənubi Qafqaza marağı daha da artacaq. Ermənistan üçün də inkişafın ən real yolu Azərbaycanla münasibətlərin normallaşmasından keçir. Uzun illər davam edən işğal siyasəti Ermənistan iqtisadiyyatını regional layihələrdən kənarda qoyub. Nəticədə bu ölkə həm iqtisadi, həm də demoqrafik baxımdan ciddi problemlərlə üzləşib. Halbuki Azərbaycan və Türkiyə ilə sərhədlərin açılması, regional kommunikasiya xətlərinin bərpası Ermənistan üçün yeni iqtisadi imkanlar yarada bilər. Xüsusilə Zəngəzur dəhlizi (TRIPP) və digər nəqliyyat-kommunikasiya layihələri regionun iqtisadi xəritəsini dəyişmək gücünə malikdir. Azərbaycanın təşəbbüskarı olduğu sülh prosesi yalnız diplomatik addım deyil, regionun gələcəyinə hesablanmış strateji baxışdır".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# "Binokl diplomatiyası" sülhə xidmət etmir

## Azərbaycan Cənubi Qafqazda barışın və təhlükəsizliyin yeganə qarantıdır

**Azərbaycan-Ermənistan şərti sərhədində Avropa İttifaqının "müşahidə missiyası" adı altında fəaliyyət göstərən qüvvələrin mövcudluğu ciddi suallar doğurur. Bu missiya ilk baxışdan "monitorinq" məqsədilə yaradılmış kimi görünsə də, onun fəaliyyət forması regionun daxili işlərinə müdaxilə və kəşfiyyat məlumatları toplamaq elementlərini özündə ehtiva edir. Yəni Aİ Şurasının 2023-cü il 20 fevral tarixli qərarı ilə fəaliyyətə başlayan missiya, əslində, regionda kənar güclərin "gözü" olmaq funksiyasını yerinə yetirir.**






2025-ci ilin yanvarında müşahidəçilərin mandatlarının 2027-ci il fevralın 19-na qədər uzadılması da göstərir ki, Qərbin bəzi dairələri regiondakı hərbi-siyasi iştiraklarını qalıcı etmək niyyətindədirlər. Bu həm də Ermənistanın suverenliyini tədricən kənar idarəçiliyə təhvil verməsi və regionun təbii sülh mühitinin süni şəkildə ləngidilməsi deməkdir.

Fransa Aİ missiyasının ideoloji memarı və əsas hərbi-siyasi dəstəkçisidir. Fransalı rəsmilərin şərti sərhədə gələrək Azərbaycan ərazilərini binoklla müşahidə etmələri, yəni "binokl diplomatiyası" ilə məşğul olmaları regiondakı sülh və sabitliyə töhfə vermir. Əksinə, bu cür təxribatçı fəaliyyət Ermənistanın daxilindəki revanşist qüvvələrə stimuldur. Parisin İrəvana dəstəyi təkcə diplomatik manipulyasiyalarla bitmir.

Ermənistana hücum silahlarının satılması da Aİ missiyasının "mülki" xarakteri barədə deyilən bəyanatlarla kəskin ziddiyyət təşkil edir. Bu, bir tərəfdən şərti sərhədlərdə monitorinq apardığını iddia edənlərin, digər tərəfdən Ermənistanı silahlandırmaq kimi ikiüzlü siyasətin təzahürüdür. Ermənistanın "qorunması zəruri olan xristian qalası" kimi qələmə verilməsi isə ideoloji tərəfkeşlikdir. Eyni zamanda Aİ missiyasının mahiyyətcə səlibçi təfəkkürdə olmasının təsdiqidir.

Prezident İlham Əliyevin mayın 10-da Zəngilanda sakinlərlə görüşü zamanı səsləndirdiyi fikirlər bu missiyanın mahiyyətini tam ifşa etdi: "Bu gün hələ də Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri guya ki, keşik çəkirlər. Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə".

Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin edib. Bizim niyyətimiz ədalətin bərpası idi və buna nail olmuşuq. Fransanın guya "Azərbaycanın qarşısını onlar alıblar" şəklində imitasiyası heç bir real əsasa söykənmir. Sərhəddə "keşik çəkən" avropalı müşahidəçilər Fransanın timsalında özlərini bu rolda təqdim edərək daxili və xarici auditoriyada yalançı "qəhrəman" obrazı yaradırlar. Əslində isə bu missiyanın heç bir hərbi-strateji çəkiyə malik olmaması, siyasi dekorasiyadan ibarət olması hamıya bəllidir.

Revanşistlər kənar dairələrin "dəstəyi"nə güvənib yenidən hakimiyyətə gələrsə, sərhəddəki "müşahidəçi"lərinə və ya Fransadan aldıqları silahlara güvənib yeni təxribatlara həvəs göstərərsə, cavabımız, sadəcə, müdafiə xarakterli olmayacaq. Dövlətimiz istənilən təhdidi yerindəcə boğmaq üçün lazımi və önləyici addımları atmaq qüdrətindədir. Bununla bağlı Azərbaycan lideri ən yüksək səviyyədə növbəti xəbərdarlığını etdi: "Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq".

Xatırladaq ki, yaxın zamanda Avropa İttifaqının Ermənistanda ikinci missiyası da fəaliyyətə başlayacaq. Yeni missiya İrəvana məsləhətlər verəcək və nazirliklərə, qurumlara hibrid mübarizidə dəstək göstərəcək. Görünən odur ki, Avropa ölkələri müəyyən formatlar şəklində Ermənistan vasitəsilə Cənubi Qafqazda öz varlıqlarını təmin etmək, maraqlarını həyata keçirmək niyyətindədirlər. Ermənistan isə siyasi-iqtisadi məqsədləri naminə bu siyasətə alət olmaqdadır.

İrəvan hökuməti birmənalı dərk etməlidir ki, Ermənistan dövlətçiliyi və bütövlükdə region üçün təhlükə Azərbaycan deyil. Əsl təhlükə Ermənistanın daxilində revanşist xülyalarla yaşayan, xalqı yeni fəlakətlərə sürükləməyə hazır olan və onlara yalan vədlər verən kənar güclərdir. Ermənistan reallıqla illüziya arasında seçim etmək məcburiyyətindədir. Fransanın regiona "təhlükəsizlik zəmanəti" və Ermənistana "hərbi dəstək" adı altında müdaxilə cəhdləri İrəvanı Parisin geosiyasi oyunlarına alət etmək məqsədi daşıyır.

Azərbaycan isə sülh içində yaşamaq niyyətini praktiki addımlarla təsdiqləyib. Bakı iqtisadi və humanist təşəbbüsləri ilə regionda sülhün ən böyük qarantı olduğunu nümayiş etdirir. Azərbaycanın xoşməramlı niyyətinin bariz göstəriciləri Ermənistanla iqtisadi əlaqələrin qurulması, bu ölkəyə yanacaq göndərilməsi, başqa dövlətlərdən yüklərin daşınmasına şərait yaratmasıdır. Əgər İrəvan revanşistlərin təzyiqindən qurtulub bu humanist jestləri düzgün dəyərləndirə bilsə, region uzunmüddətli sabitliyə qovuşacaq. Əks təqdirdə, kənar güclərin yalan vədləri Ermənistanı daha dərin siyasi və iqtisadi uçuruma aparacaq.

Nəticə olaraq, Ermənistan tərəfi anlamalıdır ki, onun real təhlükəsizliyi sülhdən, qonşularla normal münasibətlər qurmaqdan və regional əməkdaşlıqdan asılıdır. Şərti sərhədlərdə binokl arxasından baxanlar Cənubi Qafqazda sülhün və təhlükəsizliyin qarantı ola bilməzlər. Bölgəmizdə sülhün yeganə qarantı yeni reallıqları diktə edən və öz gücünə güvənən müstəqil Azərbaycandır. Mandatların uzadılması və ya "qəhrəmanlıq" şouları Azərbaycanın milli maraqlarını qorumaq əzmini əsla sarsıda bilməz.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# *Makronun Qarabağ ritorikası:* beynəlxalq hüquq, yoxsa siyasi manipulyasiya?

**Bu gün Avropa Parlamentinin Azərbaycana qarşı sərgilədiyi qərəzli mövqe Cənubi Qafqazda sülhün deyil, qeyri-sabit siyasi vəziyyətin davam etməsinə hesablanıb. Belə bir vəziyyət isə müəyyən siyasi dairələrə öz ambisiyalarını reallaşdırmaq üçün əlavə imkanlar yaradır.**




Vaxtilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli məqsədilə ATƏT-in Minsk qrupu yaradılmışdı. Lakin 28 illik fəaliyyəti dövründə bu qurum nəinki problemin həllinə nail oldu, əksinə, müxtəlif qeyri-konstruktiv yanaşmalarla vəziyyətin daha da mürəkkəbləşməsinə səbəb verdi.

AZƏRTAC xəbər verir ki, Minsk qrupunun həmsədrlərindən biri olan Fransanın beynəlxalq hüquqa, separatçılığa və xalqların öz müqəddəratını təyin etmə prinsipinə münasibəti onun regionda sülhə nə dərəcədə maraqlı olduğunu açıq şəkildə göstərir.

Korsika adası 1768-ci ildə Genuyadan alınaraq Fransaya birləşdirilib. Yerli əhali əvvəlcə sosial-iqtisadi vəziyyətin yaxşılaşacağını düşünsə də, zamanla bunun əksini gördü. Əhalinin təxminən 20 faizi yoxsulluq həddindən aşağı səviyyədə yaşamağa məcbur oldu. Uzun illər davam edən mərkəzləşdirilmiş siyasətə etiraz edən korsikalılar 1976-cı ildə Milli Azadlıq Cəbhəsini (MAC) yaradaraq muxtariyyət tələbi ilə çıxış etməyə başladılar.

Fransa hökuməti isə əhalinin narazılıqlarını dinləmək əvəzinə sərt tədbirlərə əl atdı. MAC-ın 27 üzvü həbs edildi, 1978-ci ildə isə daha 60 nəfər siyasi baxışlarına görə saxlanılaraq işgəncələrə məruz qaldı. Yalnız 1998-ci ildə Korsika prefekturasının rəhbəri Klod Erinyakın öldürülməsindən sonra tərəflər arasında siyasi dialoq prosesi başladı.

Fransa korsikalıların siyasi mübarizəsini separatçılıq, MAC üzvlərini isə terrorçuluq kimi təqdim edirdi. Halbuki onların əsas tələbi xalq kimi tanınmaq, milli dillərini qorumaq və adanın idarə edilməsində iştirak hüququ əldə etmək idi. Buna baxmayaraq, 1991-ci ildə Fransa Konstitusiya Şurası "Korsika xalqı" ifadəsinin istifadəsini qadağan edən qərar qəbul etdi. Həmin qərarda bildirilirdi ki, Fransa ərazisində yaşayan hər kəs milli mənsubiyyətindən və dilindən asılı olmayaraq "fransız" hesab olunur.

Bu problem bu gün də həllini tapmayıb. Rəsmi Paris korsikalıları ayrıca xalq kimi tanımır və onlara muxtariyyət verməkdən yayınır. 2022-ci ildə həbsdə olan korsikalı lider İvan Kolonnanın müəmmalı şəkildə həyatını itirməsi isə vəziyyəti daha da gərginləşdirdi. Yerli mətbuat onun planlı şəkildə öldürüldüyünü iddia edirdi. Ardınca adada kütləvi etiraz aksiyaları başladı. Prezident Emmanuel Makron Korsikaya səfəri zamanı adaya xüsusi status veriləcəyini vəd etsə də, bu istiqamətdə indiyədək ciddi addım atılmayıb.

Hazırda ada əhalisinin əhəmiyyətli hissəsi müstəqillik tərəfdarıdır. Digər hissənin böyük qismini isə Fransanın müxtəlif bölgələrindən köçürülən insanlar təşkil edir. Bu siyasətin məqsədi həm demoqrafik balans yaratmaq, həm də korsikalıların assimilyasiyasını sürətləndirmək kimi qiymətləndirilir.

Azərbaycan xalqının "Özünə umac ova bilməyən başqasına əriştə kəsməz" atalar sözü bu vəziyyəti dəqiq ifadə edir. Fransa öz daxilində insan hüquqları və milli muxtariyyət məsələlərini həll edə bilmədiyi halda başqa regionlarda "ədalət" və "hüquq" mövzusunda çıxış etməyə çalışır. Bu isə təbii olaraq ciddi suallar doğurur.

Aydın görünür ki, Fransa beynəlxalq hüquq prinsiplərindən çox vaxt siyasi manipulyasiya vasitəsi kimi istifadə edir. Ermənistanın Baş naziri Nikol Paşinyanın Qarabağ münaqişəsinin başa çatdığını bəyan etdiyi bir vaxtda Fransa Prezidentinin yenidən "Qarabağ ermənilərinin hüquqları" məsələsini gündəmə gətirməsi regionda sülh prosesinə töhfədən daha çox prosesə təsir göstərmək cəhdi kimi qiymətləndirilir.

Lakin Azərbaycan artıq ötən əsrin 90-cı illərinin zəif dövləti deyil. Bu gün ölkə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır, beynəlxalq əməkdaşlıq və siyasi dialoq xəttini davam etdirir. Belə bir şəraitdə xarici müdaxilə cəhdləri yalnız siyasi iddia olaraq qalır və real nəticə vermir.

# *Bilal DÜNDAR:* "Makron administrasiyasının Cənubi Qafqaz siyasəti iflasa uğrayır"

**"Fransa Prezidenti Emmanuel Makron administrasiyasının son illərdə həyata keçirdiyi siyasət həm Fransa daxilində, həm də beynəlxalq münasibətlər sistemində ciddi narazılıq və etimad böhranı yaradıb".**





Bunu AZƏRTAC-a açıqlamasında Türkiyənin Kocaeli Heydər Əliyev Mədəniyyət Mərkəzinin sədri Bilal Dündar bildirib. Onun sözlərinə görə, Parisin xüsusilə Cənubi Qafqaz məsələsində nümayiş etdirdiyi birtərəfli və selektiv yanaşma Fransanın regiondakı nüfuzuna ciddi zərbə vurur və ölkəni mərhələli şəkildə beynəlxalq təsir imkanlarından uzaqlaşdırır: "Cənubi Qafqaz məsələsində nümayiş etdirilən qeyri-obyektiv münasibət Fransanın vasitəçi kimi etibarlılığına ciddi xələl gətirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionda tamamilə yeni siyasi və hüquqi reallıq formalaşdırıb. Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü tam təmin etməsi beynəlxalq hüququn real tətbiqinin nümunəsinə çevrilib. Bu tarixi Qələbə eyni zamanda uzun illər fəaliyyətsiz qalan və status-kvonun qorunmasına xidmət edən beynəlxalq mexanizmlərin iflasını da ortaya qoydu".

Ekspert bildirib ki, keçmiş ATƏT-in Minsk qrupu fəaliyyəti dövründə münaqişənin həllindən daha çox işğal vəziyyətinin uzanmasına şərait yaradıb: "Fransa bu platformada vasitəçi statusuna malik olsa da, tərəfsiz mövqe sərgiləyə bilməyib və ermənipərəst siyasəti ilə region xalqları arasında etimadını ciddi şəkildə itirib. Makron administrasiyasının Ermənistanla münasibətləri nümayişkaranə şəkildə ön plana çıxarması Fransanın Cənubi Qafqaz siyasətində balansı tamamilə itirdiyini göstərir". Onun fikrincə, Paris regionda yaranmış yeni geosiyasi düzəni qəbul etmək əvəzinə köhnə siyasi stereotiplərlə hərəkət etməyə çalışır. Halbuki artıq bölgədə tamamilə fərqli reallıq formalaşıb və bu reallığın əsas memarları Azərbaycan və Türkiyədir.

Ekspert vurğulayıb ki, Prezident İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında formalaşmış strateji müttəfiqlik münasibətləri regionun təhlükəsizlik arxitekturasını köklü şəkildə dəyişib: "Bakı və Ankara arasında koordinasiyalı siyasət yalnız Cənubi Qafqaz üçün deyil, bütövlükdə türk dünyası və Avrasiya məkanı üçün yeni əməkdaşlıq modeli formalaşdırır. Azərbaycan ilə Türkiyə arasında həyata keçirilən ortaq enerji, nəqliyyat və logistika layihələri regionun iqtisadi xəritəsini dəyişdirir. Xüsusilə Orta dəhlizin strateji əhəmiyyətinin artması Bakı-Ankara tandeminin beynəlxalq ticarət və enerji təhlükəsizliyi baxımından rolunu daha da gücləndirir. Bu əməkdaşlıq Avropa ilə Asiya arasında yeni iqtisadi körpü formalaşdırır. Türkiyə və Azərbaycanın nümayiş etdirdiyi qardaşlıq modeli beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşlıq nümunəsi kimi qəbul olunur. İki ölkə arasında siyasi həmrəylik, qarşılıqlı dəstək və ortaq strateji baxış regionda sabitliyin əsas təminatçılarından birinə çevrilib".

O əlavə edib ki, Makronun Ermənistana planlaşdırdığı səfərlə bağlı ortaya çıxan müzakirələr və Türkiyə üzərindən həyata keçirilməsi ilə bağlı niyyətin baş tutmaması da bölgədə yeni siyasi reallığın formalaşdığını göstərən mühüm mesajdır. Onun sözlərinə görə, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın prinsipial mövqeyi bölgədə artıq kənar siyasi manipulyasiyalara imkan verilmədiyini nümayiş etdirdi: "Bu gün regionda əsas söz sahibi olan dövlətlər reallığı sahədə formalaşdıran ölkələrdir. Azərbaycan öz gücü hesabına beynəlxalq hüququ təmin edib, Türkiyə isə bölgədə təhlükəsizlik və sabitliyin əsas strateji tərəfdaşına çevrilib. Bu amillər fonunda Fransa kimi ölkələrin birtərəfli bəyanatlarla regiondakı proseslərə təsir imkanları xeyli zəifləyib".

Bilal Dündar vurğulayıb ki, Azərbaycan və Türkiyənin nümayiş etdirdiyi siyasi iradə regionda sülhün, əməkdaşlığın və təhlükəsizliyin əsas təminatçısıdır. Onun sözlərinə görə, Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıq artıq beynəlxalq aktorlar tərəfindən də qəbul olunmağa başlayıb və bu reallığa qarşı çıxmağa çalışan qüvvələr nəticədə uğursuzluqla üzləşəcəklər.

Ümumdünya Şəhərsalma Forumu





**13-cü Ümumdünya Şəhərsalma Forumu**





WORLD URBAN FORUM

# Gələcəyin qurucusu

## Heydər Əliyevin şəhərsalma irsi bugünkü memarlar üçün nümunə və məktəbdir

**Hər bir xalqın mədəniyyəti həm də onun yaratdığı memarlıq nümunələrində yaşayır. Bu baxımdan Azərbaycanın müasir şəhərsalma tarixində Heydər Əliyev şəxsiyyəti, sadəcə, bir siyasi lider kimi deyil, eyni zamanda milli memarlıq simasının yaradıcısı kimi çıxış edir. Ulu Öndərin rəhbərliyi dövründə Azərbaycanın şəhər infrastrukturunun inkişafı, memarlıq irsinin qorunması və müasir urbanizasiya prinsiplərinin tətbiqi istiqamətində mühüm addımlar atılıb. Bu illər memarlığımızın intibah dövrü hesab olunur. Həmin dövr sovetlərin tipik, ruhsuz binalarından uzaqlaşaraq milli ornamentlərin, klassik Şərq elementlərinin və müasir konstruktivizmin vəhdətini təşkil edən bir mərhələ idi.**





### Milli üslubun dirçəldilməsi

Heydər Əliyev 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəldikdə qarşıda duran ən böyük vəzifələrdən biri də Azərbaycan şəhərlərinin, xüsusilə Bakının simasını dəyişmək idi. Ulu Öndər memarlığın xalqın tarixini və mədəniyyətini əks etdirməli olduğunu dəfələrlə vurğulayırdı. O vaxtlar memarlıqda beynəlmiləlçilik adı altında milli ruhun sıxışdırılmasına baxmayaraq, Ulu Öndər cəsarətli addımlar atdı. Şəhərlərin inkişafı üçün kompleks baş planlar hazırlandı. Bakının dəniz



sahili bulvarının genişləndirilməsi, şəhərin amfiteatr formasında inkişaf etdirilməsi məhz respublika rəhbərinin strateji baxışının nəticəsi idi. Heydər Əliyev şəhərsalmaya yalnız bina tikintisi kimi yox, həm də sosial ekosistem kimi yanaşırdı. Bu səbəbdən yeni mikrorayonların salınması ilə yanaşı, parkların, yaşıllıq zonalarının və mədəniyyət ocaqlarının yaradılması ön plana çəkilirdi.

Ulu Öndərin birbaşa təşəbbüsü və nəzarəti ilə inşa edilən binalar bu gün də Azərbaycan memarlığının inciləri sayılır. Şirvanşahlar memarlıq məktəbinin müasir oxunuşu olan "Gülüstan" sarayı milli ornamentlərin möhtəşəm tətbiqi ilə dünya memarlıq kataloqlarına daxil olub. Şəhərin mərkəzində ucalan Heydər Əliyev Sarayı Bakının modern simasının ilk böyük nümunələrindən biri idi. Prezident Sarayı və İdman-Konsert Kompleksi isə dövlətin gücünü və memarlıq təfəkkürünün genişliyini nümayiş etdirən layihələr idi.

Ümummilli Lider üçün şəhərsalma təkcə yenilik deyildi, həm də köklərə bağlılıq idi. O üzdən İçərişəhərin qorunması, Şirvanşahlar sarayının və digər tarixi abidələrin restavrasiyasına xüsusi diqqət yetirirdi. Müqəddəs yerlərin, türbələrin yenidən həyata qaytarılması Ulu Öndərin milli-mənəvi dəyərlərə verdiyi önəmin memarlıqdakı təzahürü idi. Heydər Əliyev memarların qurultayında şəxsən iştirak edir, hər bir mühüm binanın layihəsini özü nəzərdən keçirirdi.

1970-ci illərdə Bakının əhalisi sürətlə artırdı. Heydər Əliyev yeni yaşayış massivlərinin - 8-ci kilometr, Əhmədli, Günəşli ərazilərinin kompleks şəkildə salınmasına start verdi. Bu, sadəcə, binaların tikilməsi deyildi, məktəb, bağça, park və digər zəruri infrastrukturun eyni vaxtda istifadəyə verilməsi idi. Sumqayıt, Gəncə və Mingəçevir kimi sənaye mərkəzlərində istehsal müəssisələri ilə yanaşı, geniş xiyabanlar və mədəniyyət sarayları inşa edildi. Naxçıvanda Möminə Xatun abidəsi abadlaşdırıldı. Şəhərin müasir siması formalaşmağa başladı. Həmin illər Bakıda Moskva (indi Heydər Əliyev), Tbilisi və digər geniş prospektlər salındı. Şəhərin girişinin möhtəşəm olması üçün hava limanından mərkəzə doğru uzanan magistral yolun ətrafında geniş quruculuq, yaşıllaşdırma işləri aparıldı.

Heydər Əliyevin şəhərsalma irsi təkcə binalar və prospektlər toplusu deyildi, bu, Azərbaycan xalqının özünütəsdiqi idi. Ulu Öndərin uzaqgörənliyi sayəsində Bakı, Naxçıvan, Gəncə, Şəki və Azərbaycanın digər şəhərləri bu gün Şərq ruhu ilə Qərb müasirliyinin qovuşduğu nadir dünya metropollarından birinə çevrilmişdir.

### Xaosdan nizama və modernləşməyə doğru

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın şəhərsalma və tikinti sektorunda da yeni bir mərhələnin başlanğıcı oldu. Həmin dövrdə ölkənin ağır iqtisadi və siyasi böhran yaşamasına baxmayaraq, Ulu Öndər şəhərsalmanı dövlət quruculuğunun tərkib hissəsi kimi yenidən canlandırdı. Müstəqilliyin ilk illərində nizamsız tikinti və idarəetmə böhranı aradan qaldırıldı. Şəhərsalma fəaliyyəti yenidən elmi əsaslar və planlı urbanizasiya prinsipləri üzərində qurulmağa başladı. Heydər Əliyev mütəxəssislər qarşısında müasir layihələrdə milli memarlıq elementlərinin tətbiqi tələbini qoydu. Bu dövrdə tarixi abidələrin qorunması dövlət siyasətinin prioritetinə çevrildi. Şəhərsalma siyasəti təkcə yeni binaların ucaldılması ilə məhdudlaşmırdı. Bura həm də sosial infrastrukturun, nəqliyyat və kommunal sistemlərin bərpası, şəhər həyatının normal ritminə qaytarılması daxil idi.

1979-cu ildə təməli qoyulan, lakin müəyyən səbəblər üzündən tikintisi dayandırılan Bakı Televiziya Qülləsi kimi strateji obyekt Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişindən sonra davam etdirildi və 1996-cı ildə istifadəyə verildi. Eyni zamanda Bakıda ilk müasir ofis binaları və biznes mərkəzləri ucaldılmağa başladı. Heydər Əliyev memarlığı həm də bir təbliğat vasitəsi kimi görürdü və Azərbaycanın qədim dövlətçilik tarixini memarlıq abidələri vasitəsilə dünyaya təqdim edirdi. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində İçərişəhər, Qız qalası və Şirvanşahlar Sarayı 2000-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edildi. Bu, Bakının tarixi nüvəsinin beynəlxalq səviyyədə mühafizəsi demək idi.

Gəncə, Naxçıvan və Şəkidəki tarixi binaların bərpası üçün xüsusi proqramlar təsdiqləndi. 1936-cı ildə bolşeviklər tərəfindən dağıdılmış Bibiheybət məscidinin Heydər Əliyevin göstərişi ilə 1998-1999-cu illərdə yenidən ucaldılması onun tarixi ədaləti bərpa etmək iradəsinin rəmzi idi. Təzəpir məscidi və digər ziyarətgahlar paytaxtın ümumi ansamblına uyğunlaşdırıldı.

Çadır şəhərcikləri ləğv olunmağa başladı. İşğal nəticəsində yurdundan didərgin düşmüş insanlar üçün yeni, müasir tipli yaşayış qəsəbələrinin salınması (məsələn, Füzuli və Biləsuvar rayonları ərazilərində) Heydər Əliyevin humanist şəhərsalma siyasətinin mühüm hissəsi, nəticə etibarilə 1993-cü il Azərbaycan memarlığı üçün "xilasetmə" anı idi. Ümumiyyətlə, həmin illər Heydər Əliyev həm sovet dövründən qalan estetik dəyərləri qorudu, həm də müstəqil Azərbaycanın dünyaya açıq, modern və eyni zamanda milli ruhlu yeni memarlıq simasının cizgilərini çəkdi.

Bunlardan başqa, 1990-cı illərin sonuna doğru şəhərsalma və abidələrin mühafizəsi ilə bağlı mühüm sənədlər - 1998-ci ildə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", 1999-cu ildə "Şəhərsalma haqqında" qanunlar qəbul edildi. Ölkənin iqtisadi imkanlarının məhdud olduğu bir vaxtda Heydər Əliyev investorları tikinti sektoruna cəlb edərək müasir memarlıq layihələrinin icrasına şərait yaratdı. Və nəhayət, 1993-cü ildə qoyulan bu təməllər Bakının və regionların bugünkü müasir simasının formalaşmasında həlledici rol oynadı.

### "Gülüstan" sarayı

Bakının ən uca nöqtələrindən birindən Xəzərin mavi sularına boylanan "Gülüstan" sarayı təkcə memarlıq abidəsi deyil, həm də Azərbaycanın müasir tarixinin canlı şahididir. 1980-ci illərdən bəri ölkənin diplomatik və mədəni həyatının mərkəzi olan bu möhtəşəm tikili özündə modernizmlə milli ornamentlərin vəhdətini birləşdirir.

Saray 1979-1980-ci illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və Əliş Ləmbəranskinin nəzarəti ilə inşa edilib. Binanın memarları Nazim Hacıbəyov və Hafiz Əmirxanov, konstruktorları isə Novruz İsmayılov və Kamil Kərimovdur. O zaman memar Hafiz Əmirxanovun rəhbərlik etdiyi yaradıcı heyət qarşısında çətin bir tapşırıq qoyulmuşdu: bina həm müasir (modernist) üslubda olmalı, həm də Azərbaycanın milli memarlıq ənənələrini özündə yaşatmalı idi. Nəticə gözləniləndən uğurlu oldu - bina inşasından iki il sonra - 1982-ci ildə müəllif kollektivi SSRİ Dövlət Mükafatına layiq görüldü. Sarayın eyvanları, asma tavanları və geniş şüşə fasadları o dövr üçün mühəndislikdə inqilab hesab edilirdi.

Binanın fasadında milli memarlığımız üçün xarakterik olan tağ sırası ilə çərçivələnmiş eyvanlardan istifadə olunub. Bu eyvanlar birinci mərtəbənin divarları üzərindən konsol şəklində asılaraq binaya vizual yüngüllük və zərif işıq-kölgə oyunu bəxş edir. Saray şəhərin dağlıq hissəsində - kəskin enişli relyef üzərində tikilib. Memarlar bu coğrafi xüsusiyyətdən uğurla istifadə edərək binanı təbii mühitə uyğunlaşdırıblar. Tikilinin daxili planlaşdırılması çoxməqsədli istifadə üçün nəzərdə tutulub. Geniş şüşə pəncərələr və müasir konstruksiyalar onun modern simasını tamamlayır.

"Gülüstan" sarayının interyeri binanın xarici əzəmətini daxildə daha incə və lüks detallarla tamamlayır. 2021-ci ildəki əsaslı yenidənqurmadan sonra interyer həm tarixi ruhunu qorumuş, həm də ən müasir texnoloji imkanlarla zənginləşmişdir.

Əsas Ziyafət zalı (Böyük zal) sarayın qəlbi hesab olunur və təxminən 600 nəfərlik tutuma malikdir. Zalın tavanı həm akustik imkanları, həm də vizual estetikası ilə seçilir. Müasir işıqlandırma sistemləri ilə bərabər, milli naxış elementləri bura xüsusi dəbdəbə qatır. Zalın geniş şüşə divarları Bakı buxtasına və Xəzər dənizinə açılan möhtəşəm mənzərəni interyerin bir hissəsinə çevirir.

Şərq zalı - adından da göründüyü kimi, burada Şərq memarlıq elementləri və Azərbaycanın milli ornamentləri daha qabarıq şəkildə özünü büruzə verir. Zalda istifadə olunan şəbəkə sənəti nümunələri, oyma naxışlar və xüsusi divar bəzəkləri klassik Azərbaycan saray mədəniyyətini müasir üslubda təqdim edir.

Vestibül və geniş foye qonaqlarda ilk andan genişlik və işıqlı mühit təəssüratı yaradır. İnteryerin bəzədilməsində yüksəkkeyfiyyətli mərmər, qranit və nadir ağac növlərindən istifadə olunub. Müasir çilçıraqlar və gizli işıq sistemləri həm klassik, həm də futuristik bir atmosfer yaradır. Yenidənqurmadan sonra sarayın interyerinə vizual olaraq maneə yaratmayan, lakin ən yüksəksəviyyəli konfransları keçirməyə imkan verən sistemlər - sinxron tərcümə kabinələri, gizli akustik panellər, yüksəkdəqiqlikli video-proyeksiya sistemləri inteqrasiya edilib.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra "Gülüstan" sarayı ölkənin "vizit kartı"na çevrildi. Bu divarlar 1994-cü il sentyabrın 20-də dünyanın diqqət mərkəzində oldu. Məhz burada Azərbaycanın gələcək iqtisadi müstəqilliyinin təməli olan "Əsrin müqaviləsi" imzalandı. Bu hadisə sarayı beynəlxalq neft strategiyasının və qlobal diplomatiyanın mərkəzi kimi tarixə həkk etdi.

Bu gün "Gülüstan" sarayı həm beynəlxalq konfransların keçirildiyi modern mərkəz, həm də xalqın yaddaşında yaşayan tarixi mirasdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# WUF13 Könüllülük Proqramı çərçivəsində məkan təlimləri başa çatıb



Mayın 10-11-də Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) üzrə Könüllülər Proqramı çərçivəsində təşkil olunan məkan təlimləri uğurla başa çatıb. WUF13 Azərbaycan Əməliyyat Şirkətindən verilən məlumata görə, təlimlərdə ümumilikdə 2100-dən çox könüllü iştirak edib. Sözügedən təlimlər zamanı könüllülər tədbir məkanı, əməliyyat prosesləri, təhlükəsizlik prosedurları, departamentlər üzrə fəaliyyət istiqamətləri, eləcə də tədbir günlərində tətbiq olunacaq əsas qayda və təlimatlarla tanış olublar.

WUF13 Könüllülük Proqramı gənclərin liderlik bacarıqlarının inkişaf etdirilməsi, innovativ düşüncənin təşviqi və beynəlxalq təcrübə imkanlarının artırılması baxımından mühüm təşəbbüslərdən biridir.

Proqramda iştirak üçün müraciət etmiş 16 min namizəd arasından çoxmərhələli seçim prosesini uğurla tamamlayan könüllülər tədbir müddətində qonaqların qarşılanması və qeydiyyat prosesinə dəstək, informasiya xidmətlərinin təşkili, sessiya və sərgi məkanlarında təşkilati koordinasiya, eləcə də mədəni proqramların icrası kimi müxtəlif istiqamətlərdə fəaliyyət göstərəcəklər.

Hazırda könüllülərin bir qismi artıq aidiyyəti fəaliyyət istiqamətləri üzrə vəzifələrin icrasına dəstək göstərməyə başlayıblar.

Xatırladaq ki, 17-22 may tarixlərində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu altında keçiriləcək və şəhərlərin gələcəyinə dair strateji müzakirələrə evsahibliyi edəcək.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# *WUF13:* Sahibkarlar və startaplar üçün yeni imkanlar

**Biznes subyektləri və startaplar WUF13-də aktiv iştirak etməklə beynəlxalq təcrübədən yararlana, işgüzar əlaqələrini genişləndirə, məhsul və xidmətlərini geniş auditoriyaya təqdim edə bilərlər.**




Məlum olduğu kimi, mayın 17-22-də Bakı şəhəri daha bir mötəbər tədbirə - Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi edəcək. WUF13 qlobal miqyasda dayanıqlı və innovativ şəhərsalma həllərinin müzakirə olunduğu, bu sahədə "yaşıl iqtisadiyyat" və dövlət-özəl sektor əməkdaşlığının prioritetləndirildiyi nüfuzlu platformadır. Bu tədbir yalnız şəhərsalma mütəxəssisləri üçün deyil, sahibkarlar və startaplar üçün də faydalıdır. Konfrans və sərgi ("Urban Expo") olmaqla iki hissədən ibarət forum biznes üçün bir sıra unikal imkanlar təqdim edəcək.

### Qlobal təcrübə və tərəfdaşlıq imkanları

WUF13 çərçivəsində təşkil olunacaq konfransda yerli və beynəlxalq ekspertlərin, dövlət və özəl sektor nümayəndələrinin iştirakı ilə dayanıqlı şəhərsalma həlləri, "yaşıl iqtisadiyyat" və innovativ texnologiyalar mövzusunda geniş müzakirələr aparılacaq. Bunun sahibkarlar üçün faydaları:

- Beynəlxalq təcrübə və bilik mübadiləsi: Qlobal trendlər, uğurlu layihələr və innovativ həllər öyrənilir.
- Biznes şəbəkəsinin genişləndirilməsi: Yeni tərəfdaşlıqlar qurmaq və investisiya imkanlarını araşdırmaq imkanı yaranır.
- Beynəlxalq standartlara uyğunlaşma: Sahibkarlar biznes strategiyalarını qlobal bazara uyğun şəkildə təkmilləşdirə bilirlər.

Müxtəlif ölkələrdə təşkil olunmuş WUF-ların təcrübəsi göstərir ki, sahibkar və startaplar bu tədbirdə iştirak etməklə bir sıra müsbət geridönüşlər əldə edirlər.

### "Urban Expo": innovativ şəhərsalma həlləri

WUF13 çərçivəsində təşkil olunacaq "Urban Expo" sərgisi sahibkarlara innovativ məhsullarını, "ağıllı şəhər" texnologiyalarını və dayanıqlı həlləri geniş auditoriyaya təqdim etmək imkanı verəcək. Burada sahibkarlar:

- beynəlxalq investorlar və tərəfdaşlarla birbaşa əlaqə qura biləcək;
- yeni bazarlara çıxış imkanlarını genişləndirəcək;
- innovativ layihələrini tanıtmaq və qlobal auditoriya ilə paylaşmaq imkanı əldə edəcəklər.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və WUF13 Əməliyyat Şirkətinin birgə əməkdaşlığı çərçivəsində sahibkarlar üçün WUF13-ün biznes üçün faydalarına dair "Bakı KOB evi"ndə məlumatlamdırma sessiyası təşkil olunub. KOBİA-nın təşkilatçılığı ilə forumun Biznes və İnnovasiya Mərkəzində mayın 21-də "Kiçik və orta bizneslərin dayanıqlı, inklüziv və davamlı şəhərlərin qurulmasında əsas iştirakçı kimi rolunun gücləndirilməsi" mövzusunda panel müzakirə təşkil olunacaq. Tədbirin keçirilməsində əsas məqsəd KOB-ların dayanıqlı şəhər inkişafında rolunun gücləndirilməsi, inklüziv və davamlı şəhər mühitlərinin formalaşdırılmasına töhfələrini artırmaqdır. Həmçinin "Urban Expo" sərgisində KOBİA və Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyasının birgə stendində tikinti və şəhərsalma sahəsində fəaliyyət göstərən sahibkarların məhsul və xidmətləri nümayiş olunacaq, eləcə də stenddə agentliyin sahibkarlara göstərdiyi dəstək və xidmətlər barədə forum müddətində məlumat veriləcək.

### Biznes və İnnovasiya Mərkəzində sahibkarlar və startaplar üçün imkanlar

Ümumilikdə, Biznes və İnnovasiya Mərkəzində "Şəhərsalma dəyər zəncirinin praktik tətbiqi" mövzusunda 15 sessiya keçiriləcək. Bu interaktiv sessiyalarda dayanıqlı şəhərsalma və layiqli mənzil təminatının tərəfdaşlar, şirkətlər və biznes assosiasiyaları tərəfindən həyata keçirilən real layihələr və təcrübələr sayəsində necə inkişaf etdirildiyi nümayiş etdiriləcək. Özəl sektoru bütün müxtəlifliyi ilə əks etdirən mərkəz irimiqyaslı şirkətlərdən tutmuş kiçik və orta bizneslər, startaplar və biznes assosiasiyalarına qədər geniş iştirakçı auditoriyasını ehtiva etməklə yanaşı, innovasiya, texnologiya və şəhərsalma problemləri ilə bağlı yeni yanaşmaları ön plana çıxaracaq. Mərkəz həmçinin şəhərlər, investorlar və biliklərini təcrübədə tətbiq edən mütəxəssislər arasında mübadiləni təşviq edərək ideyaların icrayönümlü yanaşmalara çevrilməsinə və şəhərsalma üzrə dəyər zənciri sahəsində əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək.

Həmçinin Biznes və İnnovasiya Mərkəzində yeni yaradılmış şirkətlərin və gənc sahibkarların öz innovasiyalarını nümayiş etdirmələri üçün xüsusi məkan - Startap Pavilyonu təqdim olunacaq. Dünya üzrə 10 ölkədən seçilmiş 14 startap layihəsinin iştirak etdiyi bu pavilyonun məqsədi yeni subyektlərin səsinə səs vermək və həm mənzil təminatının, həm də şəhərsalma problemlərinin həlli üçün miqyaslanan ideyaları ön plana çıxarmaqdır.

Sahibkarlar və startaplar WUF13-ün Biznes və İnnovasiya Mərkəzi və sərgi, ümumiyyətlə forumun proqramı barədə ətraflı məlumat əldə etmək üçün linkə keçid edə bilərlər: https://wuf.unhabitat.org/main-events

Beləliklə, WUF13 şəhərsalma ilə bağlı yeniliklərin müzakirə olunduğu tədbir olmaqla yanaşı, həm də sahibkarlar və startaplar üçün qlobal trendlərlə tanış olmaq, innovativ ideya və məhsullarını təqdim etmək, yeni tərəfdaşlıqlar qurmaq, eləcə də dayanıqlı və "ağıllı şəhər" konsepsiyalarının inkişafında aktiv iştirak etmək üçün əlverişli platformadır.

***AZƏRTAC***

Ümumdünya Şəhərsalma Forumu





## 13-cü Ümumdünya Şəhərsalma Forumu





WORLD URBAN FORUM

# Paytaxtımız yaşıllıqlar və parklar şəhərinə çevrilir













**Yaxşı yadımdadır, 1957-ci ildə mən Bakıya ali təhsil almağa gələndə şəhərdə cəmi 4 park vardı - "Qara şəhər"də Nizami parkı, Respublika stadionunun yanında Orconikidze parkı, Dağüstü park və Dənizkənarı park - bulvar. Bir neçə bağ da vardı - Sabir bağı, Pionerlər (keçmiş Qubernator) bağı, Botanika bağı (indiki Mərkəzi Nəbatat Bağı) və s. Küçələr boyu ağaclara az təsadüf edilirdi.**

İndi paytaxtımızda 300-ə yaxın park və bağ var. Heydər parkı, Zərifə Əliyeva adına park, Dədə Qorqud parkı, Nizami Gəncəvi adına park, Mərkəzi Park, Zəfər parkı, Antena sahəsində park, Dənizkənarı park - bulvar, Qış parkı, Zabitlər parkı, Nərimanov adına park, Gənclik parkı, Çəmbərəkənd parkı, Atatürk parkı və s. Buraya çoxsaylı bağları da əlavə etmək olar.

Paytaxtımız həm də dünyada ən çox heykəllərin ucaldıldığı şəhərlərdən biridir. Son illər Bakıda Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev kimi dörd böyük bəstəkarımızın, Bülbül, Rəşid Behbudov və Müslüm Maqomayev kimi üç görkəmli müğənnimizin heykəlləri qoyulub. Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakının mərkəzində Dədə Qorqud abidəsi və Koroğlu heykəli ucaldılıb.

Ən əlamətdar hadisələrdən biri də Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıda Aşıq Ələsgərin heykəlinin qoyulması oldu. Hər üç abidənin açılışında Prezident şəxsən iştirak etdi.

O da əlamətdardır ki, Azərbaycan xalqının başını uca edən bu şəxsiyyətlərin əksəriyyətinin heykəlləri son vaxtlar salınmış park və bağlarda ucaldılmışdır. Sözün həqiqi mənasında, Prezident İlham Əliyev paytaxtımızı parklar şəhərinə çevirir. Son zamanlara qədər neft şəhəri kimi tanınan paytaxtımızda parkların salınmasının nə demək olduğunu təsəvvür etmək çətin deyil.

### Dədə Qorqud parkı və abidəsi

Ulu Öndər Heydər Əliyevin 2000-ci ildə imzaladığı fərmana əsasən, paytaxtın ən səfalı yerində Dədə Qorqud parkının salınması və burada Dədə Qorqud abidəsinin ucaldılması qərara alındı. Ümummilli Liderin arzusu ömür vəfa qılmadığından sağlığında yerinə yetmədi. Bu arzusunu özü qədər inandığı Prezident İlham Əliyev yerinə yetirdi.

Parkın və abidənin açılışı 13 dekabr 2013-cü ildə baş tutdu. Prezident İlham Əliyev yığcam və mənalı çıxışında dedi: "Bu gün çox əlamətdar bir gündür. Biz Bakıda Dədə Qorqud abidəsinin açılışına toplaşmışıq. Mən sizin hamınızı bu münasibətlə təbrik edirəm. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür…"

Sonra söz Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara verildi. Anar xüsusi vurğuladı: "Dədə Qorqudun adı da Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Dədə Qorqud tədbirlərinin dünya səviyyəsində keçirilməsi məhz Ulu Öndərin xidmətidir. Heydər Əliyevin sayəsində dünyada heç bir yerdə keçirilməyəcək səviyyədə Dədə Qorqud yubileyi keçirildi. Dədə Qorqud ensiklopediyası çap olundu. Dədə Qorqudun abidəsi haqqında qərarlar qəbul olundu. Mən çox şadam ki, Heydər Əliyevin başqa arzuları kimi, bu arzularını da hörmətli Prezidentimiz bu gün həyata keçirir. Cənab Prezident, "Dədə Qorqud" Azərbaycan xalqının müqəddəs kitabıdır. Qayğınıza görə təşəkkür edirəm".

Anardan sonra Bakı Slavyan Universitetinin rektoru, professor Kamal Abdulla söz aldı. O, "Kitabi-Dədə Qorqud"un tədqiqi tarixindən söz saldı və qeyd etdi ki, alman alimi Fridrix fon Dits 1815-ci ildə "Basatın Təpəgözü öldürdüyü boy"u çap etdirmiş və bununla da qorqudşünaslığın əsasını qoymuşdur. Akademik təklif etdi ki, 2015-ci ildə qorqudşünaslığın elm aləminə məlum olduğunun 200 illiyinin ölkə miqyasında keçirilməsinə dair qərar qəbul edilsin. Təklif məmnunluqla qəbul olundu.

Dədə Qorqud parkı Bakının mərkəzində 6 hektar ərazidə salınmışdır. Parkın sahəsinin 2 hektarını süni göl və şəlalə təşkil edir. Çəkinmədən deyə bilərik ki, Dədə Qorqud parkı paytaxtımızın ən arzuolunan seyrangahlarından biridir.

### Çəmbərəkənd parkı

Ərazisi 4 hektar olan Çəmbərəkənd parkı Prezident İlham Əliyevin ideyası və nəzarəti altında salınıb. Səbail rayonunun Həsən Seyidbəyli küçəsi boyu istifadəsiz ərazidə salınmış parkda paytaxt sakinlərinin istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Parkda estakada üzərində 147 metr uzunluğunda körpü salınıb, iki gözoxşayan fəvvarə inşa edilib. Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib.

Parkda eləcə də müasir idman və uşaq-əyləncə qurğuları quraşdırılıb. Ərazinin yaşıllıq sahəsinə çəmən örtük döşənib. Parkda 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib.

### Nizami Gəncəvi adına Mədəniyyət və İstirahət Parkı

1922-ci ildə salınan, 11,2 hektar ərazini əhatə edən bu park paytaxtın estetik görünüşünə uyğun gəlmirdi. Odur ki, parkda əsaslı yenidənqurma zərurəti yaranmışdı. Bu məsələ Prezident İlham Əliyevin 19 aprel 2021-ci il tarixli sərəncamı ilə həllini tapdı.

1922-ci ildə salınmış parkın şəhərin estetik görünüşünə uyğunlaşdırılması məqsədilə onun ərazisində əsaslı təmir və yenidənqurma işləri həyata keçirildi, süni göl yaradıldı, amfiteatr və 1938-ci ildən mövcud olan yay kinoteatrı yenidən quruldu. Parkda müasir söhbətgahlar, müxtəlif ölçülü oturacaqlar, idman qurğuları quraşdırıldı, uşaq əyləncə kompleksi yaradıldı. Parkın ərazisində yaşıllaşdırma işləri görüldü, minlərlə ağac-kol və dekorativ bəzək bitkiləri əkildi. Parkda həmçinin bağlı və açıq futbol meydançaları inşa olundu, qaçış üçün cığırlar, eləcə də velosiped yolları salındı.

### Gənclik parkı

Park Xətai rayonu ərazisində 43 hektar ərazini əhatə edir. Bir zamanlar baxımsız olan bu ərazidə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakıya gözəllik verən park salınıb. Bu parkdan paytaxtın əsrarəngiz mənzərəsini seyr etmək olar. Parkda 300 minə yaxın ağac və kol əkilib. Eldar şamı, zeytun, kiparis, çinar, meyvə ağacları, alyandr gülləri, ardıc kolları parka xüsusi gözəllik verir.

### "Antena" ərazisində park

Azərbaycan Prezidentinin 18 avqust 2023-cü il və 13 yanvar 2024-cü il tarixli sərəncamlarına əsasən, Nərimanov rayonunda - metronun "Gənclik" stansiyasının yaxınlığında - "Antena" sahəsi adlanan ərazidə salınıb. Parkın ərazisi 19 hektardır.

Yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün gözəl şərait yaradılıb. Burada müasir tələblərə cavab verən iki restoran inşa olunub. Həmçinin fəvvarə quraşdırılıb, amfiteatr tikilib.

Müasir istirahət kompleksinin ərazisinin 14 hektarında yaşıllıq sahələri salınıb, 20 mindən çox ağac və kol əkilib. Parkda piyada və velosiped yolları çəkilib, uşaq-əyləncə və açıq hava şəraitində müasir məşq qurğuları ilə təchiz edilmiş idman meydançaları yaradılıb. Yeni parkla yaxınlıqdakı Dədə Qorqud parkını əlaqələndirən yeraltı keçid də inşa olunub.

### Zərifə Əliyeva adına park

Paytaxtın ən səfalı yerlərindən birində salınan Zərifə Əliyeva adına istirahət parkı 6,2 hektar, ətrafındakı zeytun bağları isə 6 hektar sahəni əhatə edir.

Tikintisi 2000-ci ildə aparılan parkın açılışında Ulu Öndər Heydər Əliyev iştirak etmişdir. 2008-ci ildə parkda yenidənqurma işləri aparılmışdır.

Parkda akademik Zərifə Əliyevanın abidəsi və onun ətrafında fəvvarə, həmçinin idman meydançası var. İstirahət parkında Azərbaycanın müxtəlif iqlim qurşaqlarının florasına aid 2000 ağac və 4000 yaşıl kol əkilib.

### Zəfər parkı

Zəfər parkının ümumi sahəsi 9,16, yaşıllıq zolağı 4,24 hektardır. Park Prezident İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli sərəncamına əsasən yaradılmışdır. Zəfər parkı Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, vətən uğrunda canından keçən şəhidlərin əziz xatirəsini əbədiləşdirmək məqsədilə salınmışdır.

Bu parkın əlamətdar xüsusiyyətlərindən biri döyüş vaxtı düşməndən götürülmüş hərbi texnikaların burada qənimət kimi nümayiş olunmasıdır.

Parkda həmçinin kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası, yaddaş bağçasının ətrafında isə istirahət guşələri salınıbdır.

Zəfər parkının açılışı 8 noyabr 2024-cü ildə olmuşdur. Parkın açılışında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva iştirak etmişlər.

### Heydər parkı

Xətai rayonu ərazisində 14 hektar ərazini əhatə edən parkın açılışı 4 iyun 2000-ci ildə Ümummilli Liderin iştirakı ilə baş tutmuşdur. Heydər Əliyev parkda ağac əkmişdir.

2007-ci ildə Prezident İlham Əliyevin göstərişi ilə Heydər parkı əsaslı təmir edilmişdir. Parkda möhtəşəm giriş qapısı tikilmiş, mövcud şəlalə genişləndirilmiş, Heydər Əliyevin heykəli ucaldılmışdır. 2007-ci il oktyabr ayının 3-də parkın açılış mərasimində Prezident İlham Əliyev iştirak etmişdir.

Heydər parkını paytaxtın başqa parklarından fərqləndirən bir cəhəti xüsusi vurğulamaq gərəkdir. Bu park, sözün həqiqi mənasında, xalqlar dostluğu məkanına çevrilmişdir. Bununla da sanki Heydər Əliyevin arzularından biri yerinə yetirilmişdir.

Ukrayna dairəsi yaxınlığında yerləşən bu park bir tərəfdən Bakı və Neapol şəhərlərinin qardaşlaşması ilə əlaqədar Neapol küçəsi, digər tərəfdən isə paytaxtımızın Vyetnamın Vunq-Tau şəhərinin qardaşlığının rəmzi olan Vunq-Tau küçəsi ilə əhatə olunub.

Son illər Azərbaycan-Yaponiya dostluq münasibətləri o səviyyəyə çatıb ki, Heydər Əliyev parkında Yapon bağı salmaq qərara alınıb. Yapon bağının inşasında yerli mütəxəssislərlə bərabər, bir neçə yaponiyalı mütəxəssis də iştirak edib. Yapon bağında Xızı dağlarından gətirilən qaya və çay daşlarından inşa olunan şəlalə kompleksi qeyri-adiliyi ilə seçilir.

### Mərkəzi park

Paytaxtın ən böyük, əhəmiyyətinə görə misilsiz parklarından biri - Mərkəzi park 20 hektar sahəni əhatə edir. Qeyri-adiliyi ilə seçilən parkın 14 hektarını ağaclar, kollar, güllər bəzəyir. Parkı Avstriya memarı Yans Hoffman layihələndirmişdir.

Köhnə Sovetski və ya dağlı məhəlləsinin yerində salınan parkda 6 yerüstü piyada keçidi var. Keçidlər avtomobillərin intensiv hərəkət etdiyi Nəriman Nərimanov, Mirzəağa Əliyev və Abdulla Şaiq küçələrinin kəsişməsində inşa edilib. Parkda 7 istirahət və oyun meydançası, şahmat, nərd və idman qurğuları, balacalar üçün yelləncəklər var. Burada istirahət etmək üçün hər cür şərait yaradılıb.

Mərkəzi parkda 9 fəvvarə inşa olunub. 2100-dən çox 19 növ ağac, 40 minə yaxın kol və gül əkilib.

### Qış parkı

Qış parkı Heydər Əliyev Sarayından başlayaraq Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına qədər uzanır. Parkın sahəsi 7 hektardır.

Qış parkı salınarkən maraqlı hadisə baş verib - Füzuli küçəsi 39 ünvanında yerləşən möhtəşəm tarixi binanı sürüşdürmək zərurəti ortaya çıxıb. Ağırlığı 18 min ton, uzunluğu 52, eni 32, hündürlüyü 20 metr olan binanı 10,6 metr arxaya sürüşdürmək üçün Hollandiyanın "Bresser Eurasia BV" şirkəti dəvət olunub. Hazırlıqdan sonra şirkət 4 gün ərzində sürüşdürməni tamamlayıb.

Bu parkın üstünlükləri çoxdur. Məlumdur ki, paytaxtımız küləklər şəhəridir. Ətrafı uca binalarla əhatələndiyinə görə, Qış parkını isə külək tutmur. Həmçinin parkın altında böyük maşın dayanacağı var. Bu parkın bir üstünlüyü də ondan ibarətdir ki, şəhərin mərkəzindədir. Fəvvarələr meydanından Qış parkına birbaşa yol salınıb.

Qış parkı 10 may 2013-cü ildə istifadəyə verilib.

### Mərkəzi Nəbatat Bağı

Bakıda Botanika bağının (indiki Mərkəzi Nəbatat Bağı) yaradılması haqqında təkliflər 1930-cu illərdə irəli sürülmüşdü. 1935-1938-ci illər ərzində burada institut binası, oranjereyalar, istixanalar, bağın əməkdaşları üçün yaşayış binası, emalatxanalar və təsərrüfat binalarının tikintisinə başlanıldı. Ardınca yaşıllaşdırma bölməsi təşkil olundu.

1937-1940-cı illərdə bağ üçün nəzərdə tutulan ərazilərdə neft hasilatı məqsədilə bağın sahəsi azaldılaraq 16 hektara endirildi. 1960-cı ildə isə Ceyranbatan su anbarı tikildi və Botanika bağına kifayət qədər su verildi. Bu, bağda əkin və elmi-tədqiqat işlərinin genişləndirilməsinə şərait yaratdı və 16 hektar sahəyə yaxın olan 25 hektar da Botanika bağına verildi, beləliklə, bağın sahəsi 41 hektar oldu.

1978-1980-ci illərdə Botanika bağının abadlaşdırılması işlərinə yeni təkan verildi. AMEA Rəyasət Heyətinin qərarı ilə Botanika bağının adı da dəyişdirilərək Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağı adlandırıldı. Bu gün Mərkəzi Nəbatat Bağı paytaxtımızın ən səfalı, havası təmiz ərazisi hesab olunur. Ailəvi gəzinti və istirahət üçün arzuolunan seyrangahdır.

Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə şəhərimizdə yeni parkların salınması, mövcud park və xiyabanların əsaslı yenidən qurulması Bakının simasını dəyişməklə yanaşı, paytaxtda ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Bütün bunlar Prezident İlham Əliyevin gərgin əməyi, xalqına qayğısı və sevgisi sayəsində mümkün olur.

*Qəzənfər PAŞAYEV,*
*Əməkdar elm xadimi,*
*professor*

# "Euronews" telekanalı Bakıda keçiriləcək WUF13 ilə bağlı xüsusi material hazırlayıb

**"Euronews" telekanalı Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə bağlı xüsusi material hazırlayıb. AZƏRTAC xəbər verir ki, "WUF13-ə gedən yol" adlı buraxılışda forumöncəsi hazırlıq işləri və təşkilati proseslərdən bəhs olunub.**




Materialda qeyd olunur ki, Azərbaycan forum çərçivəsində infrastruktur, təhlükəsizlik və qonaq xidmətləri istiqamətində hazırlıqları davam etdirir. Bildirilir ki, tədbirdə 28 mindən çox iştirakçının və təxminən min media nümayəndəsinin iştirakı gözlənilir. Forum çərçivəsində 40 əsas sessiya və tərəfdaşların təşkil etdiyi 350 tədbir keçiriləcək və Bakı Olimpiya Stadionu iri konfrans məkanına çevriləcək.

Eyni zamanda təkmilləşdirilmiş infrastruktur və nəqliyyat planlaması qonaqların müxtəlif məkanlar arasında rahat hərəkət etməsinə imkan verəcək. Bu məqsədlə avtobus zolaqlarının genişləndirilməsi və elektrik nəqliyyat vasitələrinin sayının artırılması nəzərdə tutulur. Təhlükəsizlik tədbirləri çərçivəsində polis nəzarəti və rəqəmsal monitorinq sistemləri gücləndirilir. Turizm qurumları isə iştirakçılar üçün Azərbaycanın mədəni irsini əks etdirən xüsusi turlar hazırlayır.

WUF13 Azərbaycan Əməliyyat Şirkətinin Substantiv məzmun üzrə şöbə müdiri Cəmilə İsmayılzadə bildirib ki, əsas məqsəd bütün fəaliyyətlərin BMT standartlarına uyğun təşkil olunmasını təmin etməkdir.

"Bu forum Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə keçirilir. Prioritetlərimizdən biri region ölkələrinin fəal iştirakını təmin etməkdir", - deyə o vurğulayıb.

WUF13 Azərbaycan Əməliyyat Şirkətində Kommunikasiya şöbəsinin müdir müavini Nərmin Abdullayeva isə qeyd edib ki, forum məkanında əsas sessiyalar, tərəfdaş tədbirləri, "Urban Expo" sərgisi, WUF13 bulvar zonası, eləcə də BMT qurumları, dövlət təşkilatları, media və iştirakçılar üçün xüsusi funksional zonalar yaradılacaq.

# WUF13-ə hazırlıq çərçivəsində nəqliyyat vasitələrinin hərəkətinin növbəti monitorinqi həyata keçiriləcək

**Mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində nəqliyyat axınının təhlükəsiz və səmərəli idarə olunmasını təmin etmək məqsədilə WUF13 Azərbaycan Əməliyyat Şirkəti və aidiyyəti qurumların birgə təşkilatçılığı ilə nəqliyyat vasitələrinin hərəkətinin növbəti monitorinqi həyata keçiriləcək.**

WORLD URBAN FORUM
THIRTEENTH SESSION
BAKU, AZERBAIJAN | 17-22 MAY 2026

AZƏRTAC xəbər verir ki, monitorinq çərçivəsində mayın 13-də saat 10:00-14:00 aralığında Bakı şəhərinin bir sıra küçə və prospektlərində nəqliyyatın hərəkəti üzrə müvəqqəti tənzimləmələr tətbiq olunacaq. Monitorinq Neftçilər prospekti, Yusif Səfərov küçəsi, qismən Heydər Əliyev prospekti (Sabunçu körpüsünə qədər), Mehdi Hüseyn küçəsi, Xocalı prospekti, Rixard Zorge, Zərifə Əliyeva, Lermontov küçələri, eləcə də tədbir məkanı olan Bakı Olimpiya Stadionu istiqamətlərini əhatə edəcək.

Sürücülərdən və digər yol hərəkəti iştirakçılarından qeyd olunan tarixdə səfərlərini əvvəlcədən planlaşdırmaları, mümkün sıxlığı nəzərə almaları və alternativ yollardan istifadə etmələri xahiş olunur.

Heydər Əliyev Beynəlxalq Aeroportu ilə şəhər mərkəzi arasında hərəkət edən H1 ekspress avtobus marşrutu fəaliyyətini normal və fasiləsiz şəkildə davam etdirəcək. Eyni zamanda fərdi nəqliyyat vasitələri və taksilər hava limanı ərazisinə alternativ yollar vasitəsilə sərbəst daxil olub çıxa biləcəklər. Gecikmələrin qarşısını almaq məqsədilə səfərlərin öncədən planlaşdırılması tövsiyə olunur.

WUF13 öncəsi keçirilən nəqliyyat vasitələrinin hərəkətinin monitorinqi son on il ərzində Azərbaycanda keçirilən bir sıra qlobal tədbirlərə hazırlıq çərçivəsində də uğurla həyata keçirilib.

# İqtisadiyyat və sosial həyat

## Azərbaycan-BP tərəfdaşlığı bütün enerji sahələri üzrə davam edir

**Azərbaycan və BP arasında tərəfdaşlığın tarixi artıq onilliklərlə ölçülür. Müəllifi Ümummilli Lider Heydər Əliyev olan "Əsrin müqaviləsi"ndən başlanan bu tərəfdaşlıq möhkəm təməl üzərində ildən-ilə daha da genişlənir. BP ölkəmizdə ən iri neft, qaz və ixrac layihələrinin operatorudur.**




"Əsrin müqaviləsi" adını almış "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri, "Şahdəniz" kimi qlobal layihələrdə əməliyyatçılıq edən BP ilə ölkəmiz arasında sıx əməkdaşlıq, qarşılıqlı etimad, strateji tərəfdaşlıq illərin sınağından keçib. BP eləcə də Avropanın enerji xəritəsini dəyişdirən möhtəşəm "Cənub qaz dəhlizi"ndə - CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Qaz Boru Kəməri) layihələrində tərəfdaş və sponsorlardan biri kimi çıxış edir. Enerji keçidi dövründə də BP bizimlədir.

Bu il mayın 12-də Prezident İlham Əliyev BP şirkətinin baş icraçı direktoru Meq O'Nili qəbul edərkən də məhz həmin məsələlərə toxunulub. Dövlətimizin başçısı Meq O'Nili BP şirkətinin baş icraçı direktoru vəzifəsinə təyin olunması münasibətilə təbrik edib. Azərbaycanla bu şirkət arasında nadir tərəfdaşlıq tarixçəsinin olduğunu, uğurlu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini bildirib. Həmçinin vurğulayıb ki, bu müddətdə həyata keçirilmiş bütün layihələrdən əldə edilən gəlir əsasən Azərbaycanın sosial-iqtisadi inkişafı üçün istifadə olunub.

Prezidentimiz eləcə də ölkəmizlə BP arasında icra olunan layihələrin sayının getdikcə artdığını qeyd edib və bu, təsadüfi deyil. Elə son dövrlərdə başlanan işlərdən bir neçəsini yada salaq. Məlum olduğu kimi, iki il əvvəl BP və SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) arasında BP-nin Xəzər dənizinin Azərbaycan sektorunda iki hasilat və kəşfiyyat bloku üzrə sazişlərə qoşulmaq niyyətini açıqlayan iki Anlaşma Memorandumu imzalanıb. Bunlardan biri "Qarabağ" neft yatağıdır, ikinci blok isə "Əşrəfi-Dan Ulduzu-Aypara" (ƏDUA) sahəsidir. Bu istiqamətdə işlər icrasının müxtəlif mərhələlərindədir. Hazırda "Şahdəniz Kompressiya", AÇG-nin sərbəst qaz layihələri də gerçəkləşməkdədir.

BP işğaldan azad olunmuş Cəbrayıl rayonunda Azərbaycanın ən böyük günəş elektrik stansiyasını da tikir. Bu isə o deməkdir ki, bizim "yaşıl enerji" gündəliyimizin də yaxın iştirakçısıdır.

Sözügedən görüşdə əməkdaşlığın perspektivlərinə də toxunulub.

Bakıda olmaqdan şərəf hissi keçirdiyini deyən Meq O'Nil neft və qazdan əldə edilən gəlirin ölkənin inkişafına sərf olunmasını əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, indi isə Prezident İlham Əliyevin rəhbərliyinin uzaqgörənliyi kimi dəyərləndirib.

Dövlətimizin başçısı qeyd edib ki, bəzi hallarda neft və qazdan əldə edilən gəlir sosial qeyri-bərabərliyə səbəb olur. Azərbaycanın timsalında isə bu, ölkənin tərəqqisinə kömək edib. Müstəqilliyimizi bərpa etdikdən bir müddət sonra "Əsrin müqaviləsi"nin imzalandığını xatırladan Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsindən sonra ölkəmizdə vəziyyətin çətin olduğunu, ərazilərimizin itkisinə məruz qaldığımızı və humanitar fəlakətlə üzləşdiyimizi vurğulayıb. Bildirib ki, o zaman büdcəmiz sıfır səviyyəsində idi və bu vəziyyətdən çıxmağın yeganə yolu əsas beynəlxalq şirkətləri ölkəmizə cəlb etmək, onları investisiya yatırmağa inandırmaq idi. Prezident İlham Əliyev bu xüsusda BP-yə göstərdiyi etimada görə minnətdarlığını çatdırıb.

BP-dən aldığımız məlumatda isə şirkətin baş icraçı direktoru Meq O'Nilin və hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrelin Azərbaycana planlaşdırılmış ikigünlük işgüzar səfərləri çərçivəsində həmçinin Baş nazir Əli Əsədov, iqtisadiyyat naziri Mikayıl Cabbarov və energetika naziri Pərviz Şahbazovla da görüşdükləri bildirilir.

Görüşlərdə BP-nin Azərbaycanla bağlı uzunmüddətli öhdəliklərinə sadiqliyi, eləcə də innovasiya, dayanıqlılıq və inkişaf istiqamətində ortaq məqsədlər müzakirə olunub. Müzakirələr "Azəri-Çıraq-Günəşli"nin sərbəst təbii qaz ehtiyatlarının işlənməsi və "Şahdəniz" yatağının işlənməsinin növbəti mərhələsi olan "Şahdəniz Kompressiya" layihəsini də əhatə edib. Həmçinin "Qarabağ" və "Əşrəfi-Dan Ulduzu-Aypara" layihələri, eləcə də "Şəfəq" Günəş-Elektrik Stansiyası, Səngəçal terminalının elektrikləşdirilməsi çərçivəsində aparılan işlər müzakirə olunub.

İqtisadiyyat Nazirliyində keçirilmiş görüş zamanı nazir Mikayıl Cabbarov və Meq O'Nilin iştirakı ilə imzalanan iki Anlaşma Memorandumu əməkdaşlığın uğurla davam etdiyinin daha bir təsdiqidir. Belə ki, İqtisadiyyat Nazirliyi ilə BP arasında hazırda nazirliyin rəhbərliyi altında yaradılmaqda olan yüksək məhsuldarlıqlı hesablama (HPC) infrastrukturu ilə bağlı əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. İmzalanan daha bir Anlaşma Memorandumu SOCAR ilə BP arasında enerji sahəsində uzunmüddətli əməkdaşlığın təşviqi, daha da möhkəmləndirilməsi və genişləndirilməsinə dairdir.

Şirkətdən aldığımız məlumatda həmçinin bildirilir ki, səfər proqramına BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə rəhbər və işçi heyətləri ilə görüşlər, dünyanın ən böyük neft-qaz terminallarından olan Səngəçal terminalına səfər də daxil idi.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "İmkanlar hər kəs üçün" layihəsi iştirakçılarına növbəti sertifikatlar təqdim olunub

**Azərbaycan Şəhərsalma Kampaniyası çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi tərəfindən təşkil olunan "İmkanlar hər kəs üçün" sosial layihəsində əlilliyi olan gənclər üçün müxtəlif istiqamətlərdə təcrübə proqramları təşkil olunur.**

Layihə çərçivəsində 18-35 yaşlarında 25 gənc üçün bu dəfə ekoloji monitorinq, hidrometeoroloji xidmətlər, memarlıq, dizayn, şəhərsalma, beynəlxalq tədbirlərin təşkili, kommunikasiya, müasir telekommunikasiya istiqamətləri üzrə praktiki təcrübə imkanları yaradılıb.

İştirakçılar müxtəlif dövlət və özəl qurumlarda real iş mühitində çalışaraq qeyd edilən sahələr üzrə peşəkar bilik və bacarıqlarını inkişaf etdirmək imkanı əldə ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, WUF13 Azərbaycan Əməliyyat Şirkəti, "Nar", "Design Bureau" MMC-də təcrübə proqramlarını başa vuran layihə iştirakçılarına sertifikatlar təqdim edilib.

Proqramın əhəmiyyətli tərkib hissəsi kimi gənclər BMT-nin Azərbaycandakı Baş Ofisində də görüş keçiriblər. Görüş zamanı iştirakçılara BMT agentliklərinin fəaliyyəti barədə məlumat verilib, inklüzivlik, əlilliyi olan şəxslərin əmək bazarına inteqrasiyası və gənclərin peşəkar inkişaf perspektivləri ətrafında maarifləndirici sessiya təşkil olunub.

Tədbirlərdə ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rüstəm Həsənov, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru Elnarə Ənsari, WUF13 Azərbaycan Əməliyyat Şirkətinin icraçı direktorunun müavini Vüsal Kərimli, "Nar"ın baş icraçı direktoru Özgür Genc, BMT-nin Azərbaycandakı müvəqqəti rezident əlaqələndiricisi İqor Qarafuliç, BMT-nin Məskunlaşma Proqramının ölkə üzrə rəhbəri Anna Soave, BMT-nin Məskunlaşma Proqramının baş məsləhətçisi Məleykə Tağızadə və "Design Bureau" MMC-nin direktoru Füzuli Əliyev iştirak ediblər.

Çıxışlar zamanı bildirilib ki, inklüziv cəmiyyətin formalaşdırılması yalnız sosial dəstək mexanizmləri ilə deyil, eyni zamanda əlilliyi olan şəxslər üçün real inkişaf imkanlarının yaradılması, onların peşəkar mühitlərdə iştirakının təşviqi ilə mümkündür. Qeyd olunub ki, layihə çərçivəsində yaradılan təcrübə imkanları əlilliyi olan gənclərin potensialını ortaya çıxarmaqla yanaşı, onların əmək bazarına inteqrasiyasına da töhfə verir.

Tədbirlərin sonunda müxtəlif fəaliyyət sahələri üzrə təcrübə proqramını başa vuran gənclərə aidiyyəti qurumlar tərəfindən sertifikatlar təqdim olunub.

## Əlilliyi olan 44,6 min şəxsə reabilitasiya xidmətləri göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi cari ilin yanvar-aprel ayları ərzində əlilliyi olan 44,6 min şəxsi reabilitasiya xidmətləri ilə təmin edib.**

Onlardan 22,9 mininə ambulator, 11,1 mininə stasionar və icma əsaslı, digərlərinə səyyar və onlayn formada, sosial-psixoloji istiqamətlər üzrə reabilitasiya xidmətləri göstərilib.

Agentliyin reabilitasiya müəssisələrində ənənəvi üsullarla yanaşı, qabaqcıl dünya təcrübəsinə uyğun reabilitasiya metodları (robotik, sosial-psixoloji reabilitasiya, yoqa, hippoterapiya, rəqs terapiyası və s.) tətbiq edilir.

Bu müəssisələr tərəfindən stasionar və ambulator xidmətlərlə bərabər, icma əsaslı, tele-



reabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətləri göstərilir.

## "Araz Vadisi İqtisadi Zonası"nda yeni rezident qeydə alınıb

**"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yeni rezidenti tərəfindən tütün məmulatları istehsalı layihəsi həyata keçiriləcək.**

"Baku International Tobacco" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti statusu verilib.

Yeni rezident tərəfindən sənaye parkının ərazisində tütün məmulatlarının istehsalı layihəsinin həyata keçirilməsi nəzərdə tutulur. İnvestisiya dəyəri 47 milyon manat təşkil edən layihə çərçivəsində istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da planlaşdırılır.



Qeyd edək ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 20 sahibkarlıq subyektinə rezident, 3 sahibkara isə qeyri-rezident statusu verilib. Sənaye parkında həyata keçirilən layihələr üzrə sahibkarlar tərəfindən indiyədək 48,3 milyon manatdan çox investisiya qoyulub, 130-dan artıq iş yeri yaradılıb.

## Yeraltı nəqliyyatda yerüstü yenilik

### Paytaxtda ictimai nəqliyyatın daha səmərəli fəaliyyəti üçün atılan növbəti addım nə vəd edir?

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin bu il mayın 7-də imzaladığı fərmana əsasən, Bakı Metropoliteni "BakuBus" və "Bakı Taksi Xidməti" MMC-lərin ona qoşulması formasında yenidən təşkil edilir. Bu qərar paytaxtın ictimai nəqliyyat sistemində vahid idarəetmə modelinin formalaşdırılması, metro, avtobus, tramvay və taksi xidmətləri arasında inteqrasiyanın gücləndirilməsi məqsədi daşıyır. Bu, paytaxtda nəqliyyatın daha rahat, səmərəli və müasir tələblərə cavab verən şəkildə təşkili istiqamətində atılmış strateji addımdır.**




"BakuBus" Bakı şəhərində bir çox marşrutu idarə edən, həmçinin Gəncə və Xankəndi şəhərlərində fəaliyyət göstərən dövlət şirkətidir. "Bakı Taksi Xidməti" isə sərnişinlərimizin "London taksisi" adlandırdığı xüsusi taksilərdən ibarətdir. Həyata keçiriləcək mərhələli tədbirlərdə xidmət keyfiyyətinin yüksəldilməsi, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, sərnişin rahatlığının artırılması və şəhər mobilliyinin daha səmərəli təşkili nəzərdə tutulur. Yeni idarəetmə modeli ictimai nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun inkişafına, təhlükəsizlik və operativliyin artırılmasına xidmət göstərməklə yanaşı, sərnişinlərə xidmətlərin fasiləsizliyini də təmin edəcək. Bu, ölkəmizdə, özəlliklə də paytaxt Bakıda ictimai nəqliyyatın inkişafında yeni və keyfiyyətcə irəliləmiş bir dövrün başlanğıcı hesab olunur.

Dünyanın bir çox şəhərində artıq 15 ildən çoxdur tətbiq olunan bu yanaşma sərnişinlərə daha əlçatan, koordinasiyalı və rahat nəqliyyat təmin etməyi hədəfləyir. London, Paris, Berlin, Honkonq, Sinqapur kimi şəhərlərdə bu təcrübə artıq uzun müddətdir uğurla tətbiq olunur. Eyni yanaşma artıq ölkəmizdə də tətbiq olunacaq, Bakı şəhərində sərnişinlər metro, avtobus, tramvay və taksi xidmətlərindən vahid, əlaqələndirilmiş sistem çərçivəsində istifadə etmək imkanına malik olacaqlar. Məqsəd odur ki, metro, avtobus və taksi xidmətləri bir-birini təkrarlamasın, əksinə, bir-birini tamamlasın. Sərnişin metrodan çıxdıqda avtobus və ya taksi dayanacağına keçid etdikdə vahid bir xidmət zəncirinin davamı olduğunu hiss etsin.

Bütün bu yeniliklər fonunda Bakı Metropoliteninin sərnişin sıxlığının yüksək olması və infrastruktura olan məhdud imkanlar ayrıca qeyd olunub. Hazırda Bakı Metropoliteni dünyada fəaliyyət göstərən 213 metropoliten arasında sərnişin sıxlığına görə top onluqda yer alır. İnfrastrukturun qısa müddətdə genişləndirilməsinin mümkün olmaması nəzərə alınaraq, sıxlığı azaltmaq məqsədilə qatarların hərəkət intervalları daha da qısaldılır və sərnişin axını tədricən nizamlanır. "Bakı Metropoliteni" QSC-nin sədri Vüsal Aslanov deyir: "Əvvəllər Bakı Metropoliteninin ən sıx hərəkətə malik "Həzi Aslanov - 28 May" istiqamətində 30 cüt qatar fəaliyyət göstərirdi. Bu, uzun müddət metropolitenin texniki imkanlarının ən maksimal həddi sayılıb. 2025-ci ildən biz intervalları mərhələli şəkildə azaltmağa başladıq: əvvəlcə bunu 32 cüt qatara, daha sonra 34-ə, hazırda axşam pik saatlarda 36 cüt qatara çatdırmışıq. Bunun təməlində infrastrukturda yaxşılaşdırma işləri və hərəkət qrafikinin rəqəmsallaşması dayanır".

Bütün bu tədbirlər sərnişin sıxlığının müvəqqəti idarə olunmasına xidmət etsə də, uzunmüddətli həll yolu, əlbəttə ki, infrastrukturu genişləndirməkdən keçir. Bu məqsədlə paytaxtda 10 yeni metro stansiyasının tikintisi həyata keçiriləcək. Daha doğrusu, artıq bu işə başlanılıb. İnşa ediləcək stansiyalar Bakı Metropoliteninin sərnişin axınını daha effektiv şəkildə yönləndirməyə və şəhər mobilliyini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa imkan verəcək. Məsələn, tikilməsi nəzərdə tutulan B-5 stansiyası metropolitenin sərnişin axınını balanslaşdıracaq, nəqliyyat əlçatanlığını artıracaq və şəhər mobilliyinin təkmilləşdirilməsinə xidmət edəcək. B-5 stansiyasının yerləşəcəyi ərazi geoloji baxımdan mürəkkb ərazidir. Bəs belə çətin relyefdə stansiya necə tikiləcək? Ərazinin geologiyası ilə bağlı Vüsal Aslanov deyir ki, 60-70-ci illərdə tətbiq olunan kesson üsulu artıq yoxdur: "Hətta deyərdim ki, indi qadağandır. Müasir tikinti texnikası çox inkişaf edib. Stansiyanın yerləşdiyi ərazi ciddi şəkildə təhlil olunub - stansiya və tunel qrunt suları səviyyəsinin daha alt hissəsinə yerləşdiriləcək. Dünya təcrübəsində çayların və boğazların altından keçən tunellər mövcuddur. Müasir tikinti texnologiyasında bunun çətinliyi yoxdur".

Bu infrastruktur yeniliklərlə yanaşı, rəqəmsal sistemin tətbiqi də sərnişin təcrübəsini xeyli təkmilləşdirir. Belə ki, artıq sərnişinlər metrodan istifadə zamanı real vaxt məlumatlarına çıxış əldə edəcəklər. Mobil tətbiq vasitəsilə QR-kodla ödəniş imkanı yaradılacaq, həmçinin hansı stansiyadan hansı stansiyaya daha tez çatmağın mümkün olduğu və günün hansı saatlarında sıxlığın az və ya çox olduğu əvvəlcədən izlənilə biləcək. Belə rəqəmsal yeniliklər kontekstində metropoliten rəisinin daha maraqlı xəbərləri var: "Hazırda "AYNA MaaS" proqram təminatında Bakı Metropoliteninin qatar intervalları göstərilir. Sərnişinlər həmin proqram vasitəsilə A nöqtəsindən B nöqtəsinə getmək üçün mikrohərəkətlilik, avtobus və metro xidmətlərindən birgə istifadə edə bilərlər. Bu məlumatlar "Google Maps"ə də inteqrasiya olunub. Müasir nəsil vaqonlarımızda artıq doluluq faizini ölçən avadanlıqlar quraşdırılıb. Hazırda test rejimini davam etdiririk. Qatar platformaya yaxınlaşarkən sərnişin qabaqcadan biləcək ki, beş vaqonlu qatarın hansı vaqonu nisbətən boşdur. Hazırda əsas problem sərnişinlərin platformada qeyri-bərabər paylanmasıdır. Nəticədə qatarın bəzi vaqonları sıxlıqla doludur, bəziləri isə yarıboş qalır. Bu məlumatı həm elektron tabloda, həm də mobil tətbiqdə əks etdirməyi planlaşdırırıq. Dördüncü nəsil qatarlarımızda bu həll hazır olacaq; üçüncü nəsil vaqonlar üçün isə əlavə avadanlıq quraşdırmaq lazım gəlir".

Metropolitendə həyata keçirilən yenilənmə və modernləşmə tədbirlərinin mühüm istiqamətlərindən biri də vaqon parkının müasirləşdirilməsidir. Bu, metropoliten üçün həm də sərnişin rahatlığı və xidmət keyfiyyətinin yüksəldilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Mövcud 381 vaqondan ibarət parkın mərhələli şəkildə yenilənməsi, köhnə nəsil vaqonların istismardan çıxarılması və yaxın illərdə 299 yeni vaqonun alınması metropolitenin artan sərnişin tələbatına uyğunlaşdırılmasını təmin edəcək. Proses yeni xətlərin və stansiyaların istifadəyə verilməsinə, eləcə də interval azaldılması nəticəsində yaranan əlavə yükün qarşılanmasına xidmət edəcək. Bütün deyilənlər ona dəlalət edir ki, yaxın 10-12 il ərzində tamamilə müasir vaqonlardan ibarət parkın formalaşdırılması Bakı Metropolitenində daha komfortlu, təhlükəsiz və davamlı nəqliyyat xidmətinin təmin olunmasına şərait yaradacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Biləsuvarda WUF13 çərçivəsində AMİU-nun müəllimləri ilə görüş keçirilib

**Biləsuvarda rayon icra hakimiyyətinin və Milli Qəhrəman Mübariz İbrahimov adına Məktəb-Lisey Kompleksinin birgə təşkilatçılığı ilə WUF13-ə həsr olunmuş tədbirlər çərçivəsində Azərbaycan Memarlıq və İnşaat Universitetinin əməkdaşları ilə rayon ictimaiyyətinin görüşü keçirilib.**






Adıçəkilən məktəb-lisey kompleksində keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Faiq Qürbətov, YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, AMEA-nın muxbir üzvü, professor, AMİU-nun kafedra müdiri İslam Mustafayev, baş müəllim, memarlıq doktoru İlqar Əliyev, Fövqəladə hallar kafedrasının dosenti Emil Qafarov iştirak ediblər.

Çıxış edən Faiq Qürbətov dünyanın WUF kimi ən böyük beynəlxalq platformalarından birinin ölkəmizdə keçirilməsinin əhəmiyyətindən danışaraq qeyd edib ki, bu, ilk növbədə Azərbaycanın şəhərsalma və məskunlaşdırma fəaliyyətində müasir standartlara əsaslandığının göstəricisidir: "Bu sahədə Azərbaycanın dünyaya təqdim etmək üçün kifayət qədər nailiyyətləri var. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri, xüsusilə işğaldan azad edilmiş ərazilərdə tətbiq olunan "ağıllı şəhər" və "ağıllı kənd" layihələri Azərbaycanın bu sahədəki innovativ yanaşmasının bariz nümunəsidir. Bu mühüm forumun Bakıda keçirilməsi respublikamızın beynəlxalq miqyasda artan nüfuzunu bir daha təsdiqləməklə yanaşı, yerli mütəxəssislərin qlobal təcrübədən faydalanması üçün yeni imkanlar açacaq. Bu məqsədlə Biləsuvar rayonunda keçirilən görüş də gənc nəslin memarlıq və şəhərsalma sahəsində maariflənməsinə, habelə regionlarımızın dayanıqlı inkişaf perspektivlərinin müzakirəsinə böyük töhfə verir".

Professor İslam Mustafayev çıxış edərək bildirib ki, son illər Azərbaycanda həyata keçirilən genişmiqyaslı şəhərsalma layihələri strateji yanaşmanın mövcudluğunu aydın nümayiş etdirir: "Paytaxtın və digər şəhərlərimizin görkəminin yenilənməsi, müasir urban standartlarına uyğunlaşdırılması, eyni zamanda tarixi və mədəni irsin qorunması balanslaşdırılmış şəkildə həyata keçirilir. İstər paytaxtımızda, istərsə də bölgələrdə şəhərsalma istiqamətində ən qabaqcıl müasir standartlar tətbiq edilməklə görülən işlər, irimiqyaslı layihələr sosial-iqtisadi inkişafa güclü təkan verib, ölkəmizi bu sahədə dünyanın qabaqcılları sırasına çıxarıb".

Digər çıxış edənlər qeyd ediblər ki, forumun əsas və strateji mexanizmlərindən biri olan tərəfdaş tədbirləri dayanıqlı şəhər inkişafı sahəsində qabaqcıl təcrübələrin, innovativ yanaşmaların və praktik həll yollarının beynəlxalq səviyyədə təqdim olunmasına şərait yaradır. Bu tədbirlər vasitəsilə iştirakçılar şəhərsalma sahəsində bilik və təcrübə mübadiləsi aparmaq, institusional əməkdaşlıqlar qurmaq və qlobal şəhər gündəliyinə töhfə vermək imkanı əldə edirlər. Onlar WUF13-ün məhz bu cür yanaşmaların müzakirəsi və yayılması üçün mühüm platforma olduğunu qeyd edərək bildiriblər ki, bu forum yalnız beynəlxalq təcrübənin paylaşılması ilə məhdudlaşmır, həm də şəhərlərin gələcək inkişaf strategiyalarının formalaşmasına təsir edən ideyaların meydana çıxdığı məkandır. Azərbaycan üçün belə platformalar həm yerli şəhərsalma düşüncəsinin inkişafına, həm də beynəlxalq inteqrasiyaya töhfə verir. Ən əsası isə şəhərsalmanın mərkəzinə insan təcrübəsini və məkanın hiss edilən keyfiyyətini yerləşdirərək daha dayanıqlı, daha humanist və daha yaşana bilən şəhərlərin formalaşmasına şərait yaradır. Sonda vurğulanıb ki, WUF13 Azərbaycanda şəhərsalma və memarlıq sahəsində görülən işlərin beynəlxalq ictimaiyyətə geniş şəkildə təqdim olunması üçün mühüm platforma olacaq, ölkəmizin regional lider kimi mövqeyini daha da möhkəmləndirəcək.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

● 15 May Beynəlxalq Ailə Günüdür

## Qusarda sağlam ailə münasibətləri mövzusu gündəmdən düşmür



**Qusarda cəmiyyətin müxtəlif təbəqələri, xüsusilə də gənclər və şagirdlər arasında aktual sosial mövzular üzrə maarifləndirmə işlərinin aparılması diqqət mərkəzində saxlanılır. Belə maarifləndirici tədbirlər gənc nəslin düzgün tərbiyəsinə və ictimai şüurun inkişafına xidmət edir.**

Rayonun Quxuroba kənd tam orta məktəbində "Sağlam ailə münasibətləri: qarşılıqlı anlayış və hörmət" mövzusunda maarifləndirici tədbir keçirilib. Əsas məqsədi ailə institutunun daha da möhkəmləndirilməsi, ailə dəyərləri və ənənələrinə, milli-mənəvi dəyərlərə sədaqət hissinin təbliğ edilməsi olan tədbirdə milli-mənəvi dəyərlərin və ailə dəyərlərinin gənc nəslə ötürülməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, uşağın şəxsiyyət kimi inkişafında ailə tərbiyəsinin rolu haqqında müzakirələr aparılıb. Qeyd edilib ki, ailə institutunun möhkəmləndirilməsində dini və dünyəvi dəyərlərin vəhdətinin balansının qorunması cəmiyyətin sosial sabitliyinin və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin formalaşmasının əsas təminatlarından biridir. Ailə mühitində bu dəyərlərin düzgün şəkildə tətbiqi gənc nəslin milli kimlik ruhunda tərbiyə olunmasına, həmçinin sağlam ictimai davranış modelinin formalaşmasına mühüm töhfə verir.

Yekunda iştirakçıların sualları cavablandırılıb, ailə dəyərlərinin qorunması və möhkəmləndirilməsi istiqamətində maarifləndirmə tədbirlərinin davamlı şəkildə aparılmasının vacibliyi vurğulanıb.

*A.ƏLİYEV,*
*"Azərbaycan"*

## Cəlilabadda müasir idman zonası salınır

**"Şəhərsalma və Memarlıq İli" çərçivəsində ölkənin hər yerində abadlıq, yenidənqurma və infrastrukturun müasirləşdirilməsi işləri aparılır.**



Bu sırada Cəlilabad şəhərində müasir idman zonası yaradılır. Ərazidə mini-futbol və basketbol meydançaları, həmçinin müxtəlif idman avadanlıqları quraşdırılacaq. Layihənin əsas məqsədi əhalinin, xüsusilə gənclərin açıq havada idmanla məşğul olmalarına şərait yaratmaq, sağlam həyat tərzini təbliğ etmək və idman infrastrukturunu gücləndirməkdir.

## Lənkəran kümçülərinə 200 qutu ipəkqurdu toxumu paylanılıb

**Lənkəranda kümçülərə ipəkqurdu sənaye toxumları paylanılıb. 1 şəhər, 7 qəsəbə və 33 kənddə 42 kümçüyə ümumilikdə 200 qutu ipəkqurdu toxumu verilib.**

Cari mövsümdə də baramaçılıq sahəsində qabaqcıl təcrübə və ənənələrə malik kümçülər müəyyənləşdirilib, tut ipəkqurdularının hər qutusundan məhsuldarlığın yüksəldilməsi hesabına barama istehsalının artımına nail olunması üçün bütün hazırlıq işləri tamamlanıb, kümxanalar aqrozootexniki tələblərə uyğun hazırlanıb, dezinfeksiya işləri aparılıb, ipəkqurduların düzgün bəslənməsi, xəstəliklərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə məhsul istehsalçıları maarifləndirici təlimlərə cəlb olunublar.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

## Müasir aqrar yanaşmalar fermerlərdən nə tələb edir?

### Bərdədə keçirilən maarifləndirici tədbirdə bu suala cavab axtarıldı

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) Aqrar Təlim Mərkəzinin təşkilatçılığı, Peşə Təhsili üzrə Dövlət Agentliyinin dəstəyi ilə Bərdə Dövlət Peşə Təhsili Mərkəzində baytar həkimləri və aqronomlar üçün "Müasir çağırışlar, yeni tendensiyalar və aqrar həllər" mövzusunda maarifləndirici seminar keçirilib.**



Seminarın əsas məqsədi aqrar sahədə müşahidə olunan müasir çağırışlar, innovativ yanaşmalar və yeni texnologiyalar barədə iştirakçıların məlumatlandırılması, onların peşəkar bilik və bacarıqlarının daha da artırılması olub. Təlimlər zamanı heyvandarlıq və bitkiçilik sahəsində tətbiq olunan yeni metodlar, xəstəliklərlə mübarizə üsulları, məhsuldarlığın artırılması yolları, eləcə də müasir aqrotexniki yanaşmalar barədə ətraflı təqdimatlar edilib. Aqrar Təlim Mərkəzinin direktoru Rəşad Mehdizadə aqrar sahədə insan kapitalının inkişafının vacibliyini vurğulayıb. Bildirib ki, kənd təsərrüfatında dayanıqlı inkişafın təmin olunması üçün fermerlərin və sahə mütəxəssislərinin müasir biliklərə yiyələnməsi xüsusi əhəmiyyət daşıyır. Aqrar sahədə baş verən müasir dəyişikliklər, yeni texnologiyaların tətbiqi, eləcə də iqlim dəyişiklikləri və qlobal çağırışlar kənd təsərrüfatında bilik və əməkdaşlığın əhəmiyyətini daha da artırır.

Tədbirdə mütəxəssislər tərəfindən müasir baytarlıq xidmətlərində innovativ yanaşmalar, heyvan xəstəliklərinin profilaktikası və onlarla mübarizə üsulları, bitkiçilikdə məhsuldarlığın artırılması üçün yeni aqrotexniki metodlar, torpaq münbitliyinin qorunması və düzgün gübrələmə qaydaları, kənd təsərrüfatında rəqəmsal texnologiyaların tətbiqi, eləcə də iqlim dəyişikliklərinin aqrar sahəyə təsiri və uyğunlaşma tədbirləri barədə iştirakçılara ətraflı məlumat verilib.

Seminar interaktiv müzakirələrlə davam etdirilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Tədbirdə AXA-nın Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin baytar həkimləri, özəl baytarlar, Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin aqronom və torpaqşünas mütəxəssisləri, Bitki Mühafizəsi və Fumiqasiya Mərkəzinin fumiqant və aqronomları, Aqrar Təlim Mərkəzinin təlimçiləri, eyni zamanda Bərdə Dövlət Peşə Təhsili Mərkəzində baytarlıq və aqronomluq ixtisasları üzrə təhsil alan tələbələr iştirak ediblər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Sağlam mal-qara sağlam qida deməkdir

### Şabran heyvandarları öz işlərində bu amilə ciddi yanaşırlar

**Heyvandarlıq Şabran kəndlilərinin çoxunun daimi məşğul olduğu sahədir. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzi (DAİM) tərəfindən bu gün də heyvandarlığın inkişafı üçün ardıcıl tədbirlər görülür. Nəticədə bütün problemlərə rəğmən kənd adamının heyvandarlığa marağı azalmır ki, artır.**

Təkcə süni mayalandırma mütəxəssislərindən götürülən şifahi sorğuya əsasən, cari ilin yanvar-mart aylarında 198 baş inəkdə süni mayalanma aparılıb, 85 baş buzov doğulub. Bu rüblük məlumat statistikanın rəsmi saytında da yerləşdirilib. Xatırladaq ki, keçən ilin birinci rübündə 125 baş inəkdə süni mayalanma aparılmış, 69 baş buzov doğulmuşdu.

Sözügedən dövrdə 50 fermer buzov subsidiyasının nə zaman ödəniləcəyi ilə bağlı DAİM-ə müraciət edib. Mərkəzin heyvandarlıq sektorunun əməkdaşları daxil olmuş müraciətləri araşdıraraq həmin ödənişlərin gecikmə səbəbləri barədə fermerləri məlumatlandırıblar. Bundan əlavə, hər həftənin birinci günü mütəxəssislər ət, süd və yemin mövcud orta qiyməti ilə bağlı araşdırma aparıb nəticəsini hazırlayaraq paytaxta müvafiq quruma göndərirlər.

Məlumdur ki, heyvandarlığın inkişafında vacib şərtlərdən biri baytarlıq xidmətidir və bu baxımdan baytarların üzərinə böyük məsuliyyət düşür. Baytar-sanitar işi normal təşkil ediləndə vacib qida məhsullarından sayılan ətin keyfiyyəti də yüksək olur. Başqa sözlə, sağlam heyvan sağlam qida deməkdir. Ona görə də Şabranda bu işə ciddi yanaşılır. İlk növbədə peyvəndləmə prosesi vaxtında və düzgün aparılır. Bu tədbirin aprel-may aylarında görülməsi mal-qaranın sağlamlığını təmin edir. Odur ki, erkən yaz dövründə baytarlar bütün heyvanları peyvəndləyirlər. Rəqəmlərə gəldikdə isə, təkcə özəl baytarlar tərəfindən yanvar-mart ayları ərzində 18,9 min baş qaramal, 52,6 min baş davarda qarayara, 12,5 min baş iri heyvanda, 35,8 min baş qoyun-keçidə dabaq xəstəliklərinə qarşı peyvəndləmə tədbiri aparılıb. Bundan əlavə, vəhşi ət yeyən heyvanlarda quduzluq əleyhinə oral peyvəndləmə (cəlbedici yem) aparılıb.

Şabran DAİM əməkdaşları heyvandarlıq komplekslərində mal-qaranın saxlanma yerlərinin təmizlənməsi işlərinə də nəzarəti gücləndiriblər. Ətraf mühitin qorunması üçün tövlələr istilər düşəndə xüsusi dərmanlarla dezinfeksiya edilir.



Rayon heyvandarları keçirilən treninqlərdə fəal iştirak edir, təcrübələrini artırırlar. Məsələn, aprel ayında mərkəzin heyvandarlıq sektorunun əməkdaşı Kənan Allahverdiyev Göygöl şəhərində köç ilə bağlı "Mina təhlükəsizliyi" mövzusunda keçirilən təlimdə iştirak edib. Bundan savayı, DAİM-in əməkdaşları tərəfindən hər ay aparılan işlərin icmal hesabatı hazırlanır və əlaqədar təşkilatlara göndərilir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Lənkəranda ilk çay yığımına başlanılıb

**Lənkəran Regional Elmi Mərkəzinin Təcrübə Bazası uzun illərdir müxtəlif çay sortlarının yetişdirilməsi və yeni becərmə texnologiyalarının sınaqdan keçirilməsi üzrə ixtisaslaşmış mühüm mərkəzlərdən biridir.**

Hazırda təcrübə bazasının çay sahələrində ilk yığım mövsümünə başlanılıb. AZƏRTAC xəbər verir ki, yığım zamanı əsasən çay kollarının təzə və keyfiyyətli ilk yarpaqları toplanır. Aparılan müşahidələr nəticəsində isə sortlar arasında daha məhsuldar hesab olunan çay növü də müəyyən edilib.

Lənkəran Regional Elmi Mərkəzinin elmi işçisi Samirə Nağıyeva bildirir ki, ilk yığım prosesində əsasən "iki yarpaq, bir tumurcuq" prinsipi ilə çay yarpaqları toplanır. Onun sözlərinə görə, ərazidə sort sınağı məqsədilə təqdim olunmuş beş çay növü becərilir. Bunlar əsasən "Azərbaycan-2", "Çəhrayı", "Lənkəran" və "Xəzər" sortlarıdır.

S.Nağıyeva qeyd edir ki, Lənkəran bölgəsində ən geniş yayılmış çay sortlarından biri "Azərbaycan-2" növüdür. Onun sözlərinə görə, bu sort yüksək məhsuldarlığı ilə seçildiyi üçün fermerlər tərəfindən daha geniş şəkildə becərilir.

Təcrübə bazasında yalnız müxtəlif çay sortları deyil, eyni zamanda fərqli becərmə üsulları da sınaqdan keçirilir. Son illər sıxlaşdırılmış əkin metodu ən səmərəli üsullardan biri kimi ön plana çıxıb.

Mütəxəssislərin sözlərinə görə, bu üsul məhsuldarlığın artmasına və əlavə xərclərin azalmasına şərait yaradır. Belə ki, budanmış çay yarpaqları kolun dibinə tökülərək təbii üzvi gübrə funksiyasını yerinə yetirir və bitkinin inkişafına müsbət təsir göstərir.

Lənkəran Regional Elmi Mərkəzinin böyük elmi işçisi Çinarə Rzayeva bildirir ki, bu əkin üsulu digər aqronomik qaydalarla salınan plantasiyalardan fərqlənir. Onun sözlərinə görə, əsas məqsəd az sahədən daha çox məhsul əldə etməkdir. Bildirib ki, son illər bu üsulla salınmış ərazilərdə yüksək məhsuldarlıq müşahidə olunur: "Əsas üstünlüklərdən biri aqrotexniki qulluq işlərinə minimum ehtiyac duyulmasıdır. Bitki öz-özünə münbit şərait formalaşdırır və bu da məhsuldarlığa müsbət təsir göstərir".





# Mədəniyyət



Ədəbiyyat xadimlərimiz

# "Nə dünya məni unudacaq, nə insanlar"



**O, 110 il öncə - 1916-cı ilin bir yaz günü Bakıda dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra Tibb Texnikumunda oxuyub. Təhsilini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Fəhlə, sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (hazırda Azərbaycan Dövlət Pedaqoji Universiteti) Filologiya fakültələrində davam etdirib, 1939-cu ildən isə Azərbaycan radiosunda çalışıb.**

1941-ci ildə alman faşist ordusunun Sovet İttifaqına hücumu nəticəsində başlayan müharibə onu da dinc həyatından ayırıb. Tbilisidə Topçular hərbi məktəbini bitirən Ənvər Əlibəyli leytenant rütbəsi ilə ön cəbhəyə yollanıb. Akademik Bəkir Nəbiyevin yazdığı kimi: "Ənvər Əlibəylinin müharibə illərində keçdiyi şərəfli həyat yolunu göstərmək üçün bu ifadə kifayət qədər tutumlu olmazdı. Axı o, qələmini silahla əvəz etməmiş, bir əlində qələm, bir əlində silah düşmənlə vuruşa atılmış, qələbə gününə qədər bu iki silahın heç birini yerə qoymamışdır".

Qanlı döyüşlərdə, ölümlə üz-üzə olduğu vaxtlarda imkan tapdıqca duyğularını şeirlə dilləndirib.

*Mən bu şeiri topların əjdəha nəfəsindən,*
*Mərmilərin havanı yaran nəriltisindən,*
*Vətən yolunda gedən qızğın vuruşmalardan,*
*Ruhlanaraq yaratdım, səngərdə yatan zaman.*

1943-cü ildə o, baharın xəbərçisi sayılan qaranquşa üz tutub, onu ellərə qələbə müjdəsi aparmağa səsləyib:

*Alovların, odların üstündən uçub gedək,*
*Qarşımızda düşməni ot kimi biçib gedək.*
*Qan ləkəsi olmasın ana torpağımızda,*
*Nisgilli ürəkləri qurtaraq tənələrdən;*
*Yeni saraylar quraq viranə xanələrdən,*
*Sən şad ol, mən sevincək, gülsün torpağımız da.*

Ənvər Əlibəyli Şimali Qafqazda, Terek çayı, Azov dənizi sahillərində, Ukraynada və başqa yerlərdə gedən şiddətli döyüşlərdə iştirak edib. O, artilleriya batareyasının komandiri olub, 416-cı Taqanroq atıcı diviziyasında döyüş yolu keçib.

Xalq şairi Bəxtiyar Vahabzadə İkinci Dünya müharibəsində faşizm üzərində qələbə münasibətilə Mozdokdan Berlinə qədər gedən 416-cı Azərbaycan diviziyasının qəhrəmanlığından bəhs edən "Dörd yüz on altı" poemasında döyüşçü-şairin də hünərindən söz açıb. Ənvər Əlibəylini əsgər kimi belə təsvir edib:

*Yumşaq təbiətli bu həlim insan,*
*Deyərdin, quşa da daş ata bilməz.*
*Ancaq... top ardına keçdiyi zaman*
*O yalnız əsgərdir,*
*Ölər, yenilməz!..*
*Döyüşdə əsgərdi -*
*Adicə əsgər;*
*Döyüş qurtardımı?*
*Şairdir Ənvər.*

1944-cü ildə Ənvər Əlibəyli döyüşlərin birində ağır yaralanıb. Bakıya ağrı-acılı xatirələrlə dönüb. Müharibədə göstərdiyi şücaətə görə "Vətən müharibəsi" və "Qırmızı ulduz" ordenləri, "Qafqazın müdafiəsinə görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunub.

Onun imzası hələ müharibədən öncə ədəbiyyatsevərlərə tanış idi. Ənvər Əlibəyli 1939-cu ildə Yazıçılar İttifaqının üzvü olmuşdu. Müharibədən qayıtdıqdan sonra o, bir müddət "Vətən uğrunda" jurnalında məsul katib, Azərbaycan KP MK-da təlimatçı işləyib. 1940-cı illərin sonlarında "İnqilab və mədəniyyət", "Təbliğatçı" jurnallarının məsul katibi olub. 1948-1952-ci illərdə isə Azərbaycan Yazıçılar İttifaqının (Azərbaycan Yazıçılar Birliyi) "Ədəbiyyat" qəzetinin redaktoru təyin edilib. Ənvər Əlibəyli 1965-ci ildən ömrünün sonunadək Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin sədri vəzifəsində çalışıb, SSRİ Ali Sovetinin deputatı (7-ci çağırış) olub.

Onun "Qaranquş" adlı ilk şeirlər kitabı 1947-ci ildə çap edilib. Sonrakı illərdə "Sənin adınla", "İlk məhəbbət", "Dostluq körpüsü", "Mingəçevir şeirləri", "Dalğalar arasında", "Elə xoşbəxtəm ki!", "Nəğmələr", "Bir kitab şeir", "Ürəyimdəsən" və başqa kitabları işıq üzü görüb. Ənvər Əlibəylinin şeir və poemaları keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunub.

Ənvər Əlibəyli yurduna, vətəninə çox bağlı idi. Bunu şeirlərində də böyük səmimiyyətlə ifadə edib. Onun "Azərbaycan" adlı şeiri vətənə məhəbbəti tərənnüm edən ən gözəl əsərlərdən biridir:

*Özün kimi vüqarlıdır uca dağların,*
*Hüsnünə bir yaraşıqdır yaşıl bağların,*
*Bizimlə bir başlamışdır gözəl çağların,*
*Yurdum, yuvam, məskənimsən, Azərbaycanım,*
*Al bayraqlı vətənimsən, Azərbaycanım!*

Müharibənin odundan, alovundan keçmiş şair Yer üzünü hər zaman sülh, əmin-amanlıq içərisində görmək istəyirdi. O, "Məsəl" adlı şeirində dünyanın gələcəyinə olan ümidini, inamını belə əks etdirib:

*"Süleymana qalmayan dünya*
*sənə də qalmayacaq"*
*deyən bir məsəl var,*
*dolaşır diyar-diyar.*
*Bu düzdür:*
*Biz gedəcəyik.*
*Ancaq*
*dünya yenə də*
*insanlara qalacaq!*

Ənvər Əlibəyli nəğməkar şair kimi də tanınıb. Onun şeirlərinə Səid Rüstəmov, Cahangir Cahangirov, Tofiq Quliyev, Ağabacı Rzayeva, İbrahim Topçubaşov, Vasif Adıgözəlov və digər bəstəkarlar mahnılar yazıblar. Azərbaycan musiqi xəzinəsinin inciləri sırasında sözləri Ənvər Əlibəyliyə aid olan "Azərbaycan", "Gəlmədin", "Bakı, əziz şəhər", "İlk məhəbbət", "Lirik mahnı", "Gəl-gəl", "Xəzərim" və başqa mahnılar var. "Bəxtiyar", "Qara daşlar", "Qızmar günəş altında" və başqa filmlərdə səslənən və məşhurlaşan bir sıra mahnıların mətnlərinin də müəllifi Ənvər Əlibəylidir.

O, 1941-1945-ci illər müharibəsi dövründən bəhs edən "Bacı", "Gözlər, ürəklər, əməllər", dəniz neftçilərinin əməyini tərənnüm edən "Dalğalar arasında", eləcə də "Polad" və "Dostluq körpüsü" poemalarının müəllifidir.

Ömür payı 52 il olub. Ənvər Əlibəyli 1968-ci il mayın 7-də dünyasını dəyişib. Qısa ömrü zəngin və mənalı keçsə də, hələ görmək istədiyi çox işlər vardı. Ölüm onları da yarımçıq qoyub.

*Bir gün dayanacaq ömür karvanı,*
*Mənim üçün artıq nə qış olacaq, nə bahar.*
*Əbədi tərk edəcəyəm insanları, dünyanı,*
*Onlar da məni tərk edəcəklərmi, görən?*
*Yox, yox, adım yaşayacaqdır.*
*Nə dünya məni unudacaq, nə insanlar,*
*Qəbrimə gül daşıyacaqlar.*
*O güllərdən duyacağam səni,*
*bahar, səni, bahar.*

O, hər zaman xatırlanacağına, yaddaşlarda qalacağına inamla yazmışdı bu misraları. Ötən illər göstərdi ki, şairi haqlıdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Musiqi dünyası

# O, qarmonu sevdiyi qədər sevdirməyi də bacarırdı

**Azərbaycan musiqi ifaçılığı sahəsində xüsusi xidmətləri olan incəsənət nümayəndələrindən biri də Xalq artisti, tanınmış qarmon ifaçısı Aftandil İsrafilovdur. Sənətkar əslən Xızının Xanəgah kəndindən olsa da, 1941-ci il yanvarın 24-də Bakıda doğulub.**



Çoxuşaqlı ailədə (7 uşaq olublar) böyüyən Aftandilin atası Eynulla kişi Şərqin böyük xanəndəsi Cabbar Qaryağdıoğlu ilə möhkəm dost olub. Ustad xanəndə Eynullaya Fransada istehsal olunmuş pianino bağışlayıb. Aftandil evlərindəki bu pianoya biganə qalmayıb. Yeri düşəndə bu barədə deyərdi: "Məhəllə uşaqları ilə futbol oynayıb yorulub evə gələndən az sonra piano arxasına keçib çalar və sanki yorğunluğumu çıxarardım. Beləcə, pianoda çalmağı yaxşıca öyrənmişdim. Bu zaman nədənsə radioda qarmon ifaçılarının çaldıqlarına maraq kəsildim, qarmon çalmaq həvəsinə düşdüm. Qonşumuzda Mirzəağa kişi vardı. Yaz-yay aylarında qarmonunu götürüb, köhnə bakılılara uyğun adətlə, damın üstünə çıxar, orada əyləşib öz aləminə çəkilərək qarmon çala-çala istirahət edərdi. Onu çox dinləmişdim, eləcə də radiodan tanınan qarmonçalanlara qulaq asa-asa qarmon çalmağa meyil etdim".

Aftandil ilk əvvəllər "Kazan" qarmonda çalaraq sənətə daha ürəkdən bağlanır. Atasının yaxın dostlarından, o dövrün yaxşı qarmon ifaçılarından olan Ağahüseyn bunu biləndə gəlib Eynulla kişiyə bildirir ki, bir nəfərdə əla bir qarmon var, satır, məsləhət görürəm ki, onu Aftandil üçün alaq. Bu, 1958-ci ilin söhbətidir. Eynulla dostu Ağahüseynlə gedib həmin qarmonu alıb gətirir. Beləliklə, həmin qarmon Aftandil İsrafilovun gələcək sənət fəaliyyətinin və uğurlarımın təməlini qoyur. Aftandil bu barədə deyərdi: "Qarmonun yalnız qrifi yaxşı işləmirdi, rahatsızlıq yaradırdı. Odur ki, qarmonu götürüb usta Valentinin Basin küçəsindəki (indi Füzuli) emalatxanasına getdim. O, həmin qarmona əla qrif düzəltdi və yaxşı işləyən mexanizmlər yığdı".

Bundan sonra Aftandil Bakıdakı Mərkəzi Pioner və Məktəblilər Evində qarmon dərnəyinin məşğələlərində iştirak edir. Az müddətdən sonra ifasını bəyənərək onu nəfəs alətləri orkestrinin tərkibinə götürürlər. Orkestr əsərləri özünəməxsus tonallıqlarda ifa edildiyi üçün bunlar qarmon alətində yarımtonlara düşürdü. Bu, başqalarına çətin gəlsə də, Aftandil onların öhdəsindən məharətlə gəlirdi. Aftandilin ifası orkestr rəhbərinin, bütünlükdə yaradıcı heyətin və pionerlər evi rəhbərliyinin nəzərindən yayınmır. Kollektiv 1959-cu ildə Moskvada keçiriləcək Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etmək üçün istedadlı uşaqlar və yeniyetmələr arasında seçim edəndə Aftandil İsrafilovun adı birinci beşliyə düşür. Beləliklə, balaca Aftandil Moskvada böyük auditoriya qarşısında orkestr əsərləri ifa edir, habelə "Cücələrim" mahnı və rəqs ansamblının müşayiətçisi olur. Aftandil 1960-cı ilin sonuna qədər pionerlər evində rəqs quruluşlarını və solist müğənniləri müşayiət edir.

Bundan sonra o, keçmiş L.Şmidt adına maşınqayırma zavodunda mədəniyyət sarayının rəqs ansamblının qarmon ifaçısı olur. O, burada çalışmasından çox məmnun idi. Çünki çətin rəqslərin quruluşlarını müşayiət edərək iti, cəld, sürətli melodiyaları ardıcıl çalaraq ifaçılıq qabiliyyətini, bacarığını artırırdı. Bu rəqs ansamblında fəaliyyəti onu xeyli qabağa aparmışdı. Hətta çalışdığı rəqs ansamblı ilə Avstriyada olmuşdur.

Həmin illər Aftandil İsrafilov həm də Azərbaycan Politexnik İnstitutunun tələbəsi kimi bu ali təhsil ocağının özfəaliyyət ansamblının aparıcı musiqiçilərindən biri kimi də tanınır. Ansamblın rəhbəri, tarzən-drijor Nəriman Əzimov bu istedadlı gəncin ifasından razı qaldığından onu daim diqqətdə saxlayır, yeri gəldikcə gərəkli məsləhətlər verirdi. Məşqlər, konsertlər, baxış-müsabiqələr, böyük sənət adamlarının tövsiyələri gənc Aftandilin peşəkar musiqiçi kimi yetişməsinə təkan verir.

A.İsrafilov 1960-cı illərin sonlarında Azərbaycan radiosunun fondu üçün "Bəstənigar" ifa edir. "Çahargah" muğamının tərkibində bu şöbə "mi" tonalllığına əsaslansa da, Aftandil bu muğamın qarmonda xüsusi səslənmə yerini "si" tonallığında çalaraq sonluğu, qayıdışı (muğama ayağı) "sol" pərdəsinə keçid edir. Beləliklə, sənətkar xüsusi ustalıq göstərərək adını qeyd etdiyimiz muğamla "Segah"ın sintezini yaradır. Yeri gəlmişkən, xatırladaq ki, mahir qarmon ifaçısı 100-ə qədər musiqinin müəllifidir.

1965-ci ildə tarzən Baba Salahov gənc qarmon ifaçısını Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin nəzdində rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblına dəvət edir. Aftandil 1978-ci ilə qədər həmin ansamblda çalışır. Onun klarnet ifaçısı Vəli Qasımovla çıxışları həmkarları və pərəstişkarları tərəfindən rəğbətlə qarşılanır. Bu ansamblla televiziyada çıxış edən, radioya ifalarını yazdıran müğənnilərin əksəriyyətini Aftandil və Vəli müşayiət edir. Nəticədə onların solo ifaları əsl örnəyə çevrilir. Həmin nümunələr bu gün də əhəmiyyətlidir, radionun və televiziyanın fonotekasında qorunub saxlanılır.

Mütəxəssis-musiqiçilər bildirirlər ki, Aftandil İsrafilov Xalq artisti Rübabə Muradovanın oxuduğu "Gəl bizə yar" xalq mahnısında xanəndənin oxuduğu yanıqlı "Segah" muğamını xüsusi tərzdə, özünəməxsus və təsirli halda müşayiət etmişdir. Eləcə də Qədir Rüstəmovun istər televiziyada canlı konsertdə oxuduğu, istərsə də radio fonduna yazdırdığı "Olmaz, olmaz" mahnısında oxuduğu "Segah" muğamının ifasında da xüsusi ustalıqla öz dəst-xətini verə bilmişdir. Qədirin televiziyada oxuduğu "Sona bülbüllər" xalq mahnısında da Aftandil İsrafilov xanəndəni olduqca təsirli "Segah"la müşayiət etmişdi. Belə misalların sayını kifayət qədər artırmaq olar. Neçə-neçə xanəndələrin müşayiəti zamanı Aftandilin çaldığı "Segah"ların heç biri bir-birinə bənzəmirdi.

Şöhrətli müğənnimiz Zeynəb Xanlarova 1970-ci ildə Türkiyəyə səfər edərkən onu müşayiət edən qrupun tərkibində Aftandil İsrafilov və Vəli Qədimov da var idi. Ümumiyyətlə, Aftandil İsrafilov keçmiş SSRİ məkanında, eləcə də 30-dan çox xarici ölkəyə səfərlərində milli musiqimizi ustalıqla təbliğ etmişdir.

Müqtədir sənətkar milli qarmon sənətimizin ənənələrindən bəhrələnərək öz üslubunu, öz məktəbini yaratmışdır. 1970-1980-cı illərdə qarmon ifaçılığına başlayanların çoxu "Aftandil ifaçılığı məktəbi"nə böyük həvəs göstərmişdir. Aftandil qarmon sənətimizə dərin lirizm, həzinlik gətirmişdir. Onun qarmon sənətinə gətirdiyi yeniliklər davamçıları tərəfindən mənimsənilmiş və bu üslubdan bu gün də geniş şəkildə istifadə olunmaqdadır.

Ömrünün 50 ildən çoxunu Azərbaycan qarmon sənətinə həsr etmiş A.İsrafilov musiqi mədəniyyətimizin təbliği və inkişafında böyük xidmətlərinə görə 1982-ci ildə Əməkdar artist, 1998-ci ildə Xalq artisti fəxri adına, 2009-cu ildə Dağıstan Muxtar Respublikasının Xalq artisti adına, 2016-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür. 2003-cü ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuş sənətkar 29 aprel 2023-cü ildə vəfat etmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycan mədəni irs sahəsində qlobal innovasiya liderləri sırasında yer alıb

**Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti (Dövlət Xidməti) Böyük Britaniyanın nüfuzlu nəşri "Global Brand Magazine" tərəfindən təşkil olunan beynəlxalq müsabiqədə "İrsin qorunmasında ən yaxşı dövlət innovasiyası" nominasiyası üzrə qalib elan olunub.**




Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Dövlət Xidmətinə mükafatın təqdim edilməsində əsas meyarlar kimi "Vahid mədəniyyət reyestri" informasiya sisteminin yaradılması, 3000-dən çox daşınmaz mədəni irs nümunəsi üzrə məlumatların vahid rəqəmsal platformaya inteqrasiyası istiqamətində fəaliyyətlər, Qarabağ və Şərqi Zəngəzurda tarix və mədəniyyət abidələri üzrə genişmiqyaslı inventarlaşdırma və qiymətləndirmə işlərinin aparılması mühüm əhəmiyyət kəsb edib.

Bu çərçivədə Coğrafi İnformasiya Sistemi, dron və peyk texnologiyalarının tətbiqi, "MyCulture" vahid şəxsi kabinet sistemi üzərindən rəqəmsal müraciət imkanları, eləcə də şəffaflıq, operativlik və vətəndaşyönümlü dövlət xidməti modelinin formalaşdırılması üzrə davam edən fəaliyyətlərin əhəmiyyəti xüsusi qeyd olunub.

"Dövlət sektoru" kateqoriyası üzrə mükafatlar Yaponiya Nazirlər Kabineti, Almaniya Federal Məşğulluq Agentliyi, Böyük Britaniyanın Milli Səhiyyə Xidməti, Sinqapur Dövlət Texnologiya Agentliyi, İsrail Milli Kibertəhlükəsizlik Direktorluğu, Avstraliya Qiymətli Kağızlar və İnvestisiyalar Komissiyası, Danimarka Enerji Agentliyi, Hindistan İnvestisiya Agentliyi, Amsterdam Bələdiyyəsi, Qətər İnkişaf Bankı kimi nüfuzlu təşkilatlara və "e-Estonia", "Smart Dubai" kimi qlobal miqyasda nüfuz qazanmış meqalayihələrə təqdim edilib. Bu fakt Dövlət Xidmətinin mədəni irsin idarəedilməsi və qlobal texnologiyaların tətbiqi sahəsində artan nüfuzunu təsdiqləməklə yanaşı, mədəni irsin qorunması sahəsində həyata keçirilən institusional transformasiya, rəqəmsallaşdırma və formalaşdırılmaqda olan müasir dövlət xidmətləri modelinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin göstəricisi hesab olunur.

Qeyd edək ki, "Global Brand Magazine" beynəlxalq səviyyədə dövlət idarəçiliyi, innovasiya, korporativ transformasiya və institusional inkişaf sahələrində fəaliyyət göstərən qurumların qiymətləndirilməsi üzrə ən nüfuzlu beynəlxalq platformalardan biri hesab olunur.

Əldə olunan bu beynəlxalq uğur Azərbaycanın mədəni irs sahəsində həyata keçirdiyi dövlət siyasətinin möhkəm ənənələr, təkmil idarəetmə, innovasiya və dayanıqlı inkişaf prinsiplərinə əsaslandığını, ölkədə bu istiqamətdə nümunəvi idarəetmə modelinin formalaşdırılmasını nümayiş etdirir.

# Nəsibə Zeynalovanın anadan olmasının 110 illiyi münasibətilə Bursada "Qaynana" filmi nümayiş olunub

**Türkiyədə keçirilən Azərbaycan Kino Günləri çərçivəsində Bursa şəhərinin Uludağ Universitetində rejissor Hüseyn Seyidzadənin 1978-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ekranlaşdırdığı "Qaynana" bədii filmi nümayiş olunub. Ekran əsəri Xalq artisti Nəsibə Zeynalovanın anadan olmasının 110 illiyi münasibətilə təşkil olunan tədbir çərçivəsində nümayiş etdirilib.**



AZƏRTAC xəbər verir ki, izləyicilər arasında Uludağ Universitetinin, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Türkiyənin Bursa şəhəri Mədəniyyət və Turizm İdarəsinin təmsilçiləri, bu ali təhsil müəssisəsinin müəllim-tələbə heyəti yer alıb. Əvvəlcə çıxış edənlər Nəsibə Zeynalovanın yaratdığı obrazların yalnız tamaşaçıları güldürməklə kifayətlənmədiyini, eyni zamanda dərindən düşünməyə vadar etdiyini bildiriblər.

Natiqlər sənətkarın Azərbaycan teatr məktəbinin seçkin nümayəndələrindən biri kimi milli səhnə sənətimizin inkişafına verdiyi töhfələrdən bəhs ediblər.

Ekran əsəri izləyicilər, xüsusən də filmi ilk dəfə seyr edənlər tərəfindən maraqla qarşılanıb.

# Bakıda "Qarabağ və Şərqi Zəngəzurda urbisid, mina çirklənməsi və dirçələn həyat" mövzusunda fotosərgi



**"Bakı Şəhərsalma Həftəsi"nin ilk günü QHT Agentliyinin xətti ilə paytaxtın mərkəzi hissəsində - Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısında - açıq səma altında sərgi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, "Gilavar Foto Klubu" İctimai Birliyinin "Qarabağ və Şərqi Zəngəzurda urbisid, mina çirklənməsi və dirçələn həyat" mövzusunda fotosərgisi böyük maraqla qarşılanıb. Fotolarda nümayiş olunan real hadisələr, təsirli insan hekayələri barədə ətraflı məlumat QR kod vasitəsilə xarici dillərdə təqdim edilib.

Qeyd edək ki, 2025-ci ildə QHT Agentliyinin dəstəyi ilə "Gilavar Foto Klubu" İctimai Birliyi Almaniyanın Münxen və Nürnberq, Fransanın Paris, Belçikanın Brüssel, Niderlandın Haaqa şəhərlərində Azərbaycanın mina probleminə dair fotosərgilər keçirib.

2026-cı ildə QHT Agentliyi ilə Qarabağ Dirçəliş Fondunun birgə elan etdiyi qrant müsabiqəsinin qalibi olan "Gilavar Foto Klubu" İctimai Birliyi bu layihə çərçivəsində qarşıdakı aylarda İsveçrə, İtaliya, Avstriya, Xorvatiya, Sloveniya və Vyetnamda mina mövzusunda analoji fotosərgilərin təşkilini planlaşdırır.

# Muzeylərdə keçirilən tədbirlər milli-mənəvi dəyərlərin təbliğini gücləndirir

**Rəsul Rzanın ev-muzeyində il ərzində bir sıra yubiley tədbirlərinin keçirilməsi planlaşdırılır.**

Bu barədə AZƏRTAC-a açıqlamasında muzeyin direktoru Fidan Rzayeva məlumat verib.

O bildirib ki, bu cür tədbirlər görkəmli sənətkarların yaradıcılığının yeni nəslə tanıdılmasına, milli ədəbi irsin qorunaraq geniş auditoriyaya çatdırılmasına xidmət edir.



"Yubiley tədbirləri yalnız xatirə xarakteri daşımır, həm də milli-mənəvi dəyərlərin təbliğini gücləndirir. Xüsusilə gənclər klassik ədəbiyyatımıza daha çox maraq göstərir, görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığı ilə yaxından tanış olurlar", - deyə F.Rzayeva qeyd edib.

Onun sözlərinə görə, il ərzində ədəbi-bədii gecələr, poeziya saatları, tematik sərgilər və gənclərlə görüşlər təşkil olunacaq.




# Zəngilan şəhərində daha 59 ailəyə, Cəbrayıl rayonunun Şükürbəyli kəndində isə daha 97 ailəyə evlərinin açarları təqdim olunub

**İşğaldan azad olunan Zəngilan şəhərinə növbəti köç prosesi gerçəkləşib, dünən səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar. AZƏRTAC xəbər verir ki, Zəngilan şəhəri 59 ailə olmaqla, 235 nəfərə qucaq açıb.**







Zəngilan şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Qarşılanmadan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək evlərində məskunlaşıblar.

* * *

İşğaldan azad olunan Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç prosesi gerçəkləşib, dünən səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar. Şükürbəyli kəndi 97 ailə olmaqla, 419 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə sevinc göz yaşları ilə qədəm qoyub və doğma yurdlarında yaradılan gözəlliyi seyr ediblər. Qeyd edək ki, kənd müasir standartlara uyğun şəkildə yenidən qurulub və sakinlərin rahat yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb.

Şükürbəyli kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub. Ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək evlərində məskunlaşıblar.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik - 156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*



20 il AtaSığorta Sizinlə dost sığorta

## Bildiriş

AR Mərkəzi Bankının İdarə Heyətinin 17 aprel 2026-cı il tarixli qərarına əsasən, "AtaSığorta" ASC-də ləğv prosesinə başlanılmışdır. Ləğv Prosesində Olan "AtaSığorta" ASC-nin baş ofisi Bakı şəhəri, Nəsimi rayonu, Süleyman Rüstəm küçəsi, 9 ünvanına köçürülmüşdür.


# IV mərhələnin qalibi müəyyənləşib




**"Bakı-Xankəndi" Azərbaycan beynəlxalq velosiped yarışının dördüncü mərhələsi başa çatıb.**

AZƏRTAC xəbər verir ki, finişə İtaliyanın "Bardiani" komandasının üzvü Marko Manenti birinci çatıb.

O, Gəncədən Naftalana qədər 152,8 kilometr məsafəni hamıdan tez qət edib.

Qeyd edək ki, ilk mərhələdə Çinin "Li-Ninq Star" komandasının belaruslu üzvü Aleksey Şnirko, II və III mərhələdə isə müvafiq olaraq, Qazaxıstanın "XDS Astana" komandasının üzvləri Yevgeni Fyodorov və Qleb Suritsa 1-ci yeri tutublar.

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı yarışında dünyanın 20 ölkəsini təmsil edən 24 komanda mübarizə aparır. Beş mərhələdən ibarət olan yarışın ümumi mükafat fondu 50 min avrodan çoxdur. Yarışa mayın 14-də yekun vurulacaq.

## BEYNƏLXALQ HƏYAT

# İqtisadi bərabərsizlik dünyanın ən zəngin ölkələrində belə uşaqların rifahına mənfi təsir göstərir

**UNICEF-in yeni bir araşdırmasına görə, varlı ölkələrdə iqtisadi bərabərsizlik uşaqların sağlamlığına və məktəbdəki göstəricilərinə mənfi təsir göstərir. Nəticələr 44 yüksəkgəlirli ölkənin təhlilinə əsaslanır.**

Orta hesabla bu ölkələrdəki ən varlı 20 faiz ailənin gəliri ən yoxsul 20 faiz ailənin gəlirindən 5 dəfədən çoxdur. Eyni zamanda yoxsul ailələrdə təxminən hər beş uşaqdan biri yoxsulluq içində yaşayır.

"İqtisadi bərabərsizlik uşaqların necə öyrəndiklərinə, nə yediklərinə və həyatlarını necə qəbul etdiklərinə birbaşa təsir göstərir. Bərabərsizliyin ən ağır nəticələrini məhdudlaşdırmaq üçün təcili olaraq ən əlverişsiz icmalarda uşaqların sağlamlığına, qidalanmasına və təhsilinə investisiyaları artırmalıyıq". Bunu UNICEF-in İnnosenti Tədqiqat Mərkəzinin direktoru Viktor Nyulund bildirib.

Hesabata görə, yüksək iqtisadi bərabərsizlik səviyyəsi ilə uşaqların sağlamlığı arasında birbaşa əlaqə var. Məsələn, bərabərsizliyin ən yüksək səviyyəsi olan ölkələrdə böyüyən uşaqların bərabərsizliyin daha aşağı səviyyəsi olan ölkələrdəki həmyaşıdlarına nisbətən artıq çəkiyə tutulma ehtimalı 1,7 dəfə çoxdur. Bu, daha pis qidalanma və vaxtında yeməməklə bağlıdır.

Bu tendensiyanı Avropa İttifaqı ölkələri də təsdiqləyir - bu bölgədə ən aşağıgəlirli ailələrdən olan uşaqların yalnız 58 faizinin sağlamlıq göstəriciləri yaxşıdır, ən varlı ailələrdən olan uşaqların isə 73 faizi bu göstəriciyə malikdir.

Hesabatda həmçinin iqtisadi bərabərsizliklə təhsil səviyyəsi arasında əlaqə izlənilib. Qeyd olunub ki, zəngin və yoxsul arasında daha böyük fərq olan ölkələrdə uşaqlar daha aşağı test balları toplayırlar. Bundan əlavə, qeyd olunur ki, sosial bərabərsizliyin ən yüksək səviyyəsi olan ölkələrdə uşağın əsas oxu və riyaziyyat bacarıqları olmadan məktəbi tərketmə ehtimalı 65, bərabərsizliyin daha aşağı səviyyəsi olan ölkələrdə isə 40 faizdir.

Oxşar fərqlər ölkələr daxilində də müşahidə olunur. Orta hesabla, ən zəngin ailələrdən olan 15 yaşlıların 83 faizi əsas oxu və riyaziyyat bacarıqlarına malikdir. Ən aşağıgəlirli ailələrdən olan həmyaşıdlarının isə yalnız 42 faizi bu göstəriciyə malikdir.

Hesabatda yoxsulluğun azaldılması yolu ilə bərabərsizliyin uşaqların rifahına təsirini azaltmaq üçün tədbirləri gücləndirmək çağırışı yer alıb. Tədqiqatın müəllifləri heç bir uşağın yoxsulluq içində böyüməməsini təmin etmək üçün ailə və uşaq



müavinətləri və minimum əməkhaqqının artırılması da daxil olmaqla sosial dəstək sistemlərinin gücləndirilməsinin vacibliyini vurğulayırlar. Bundan əlavə, hesabatda xüsusən də infrastrukturun inkişafı, subsidiyalı mənzillərə çıxışın genişləndirilməsi və yaşıl sahələr və istirahət zonaları kimi ictimai məkanlara investisiya qoyuluşu yolu ilə əlverişsiz ərazilərdə yaşayan insanlara dəstək verməyin vacibliyi qeyd olunur.

Müəlliflər məktəblərdə sosial-iqtisadi bərabərsizliyin azaldılmasına, təhsil müəssisələrinin ailə gəlirlərindən asılı olmayaraq lazımi resurslara malik olmasının təmin edilməsinə və uşaqları sağlam məktəb yeməkləri ilə təmin etməyə çağırış edirlər. UNICEF həmçinin bərabərsizliyin onların və ailələrinin həyatına necə təsir etdiyini daha yaxşı başa düşmək və onların rifahını təşviq edən tədbirlər hazırlamaq üçün uşaqların öz fikirlərini nəzərə almağın vacib olduğunu vurğulayır.

# Hava proqnozu açıqlanıb

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 16-19, gündüz 23-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 751 millimetr civə sütunundan 755 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Səhər və axşam bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 14-18, gündüz 26-31, dağlarda gecə 7-12, gündüz 15-20, bəzi yerlərdə 24-26 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz olacaq. Lakin dağlıq ərazilərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14, gündüz 22-27 dərəcə isti təşkil edəcək.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə bəzi yerlərdə arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam tədricən kəsiləcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12, gündüz 17-22, bəzi yerlərdə 26 dərəcə isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12, gündüz 15-20, bəzi yerlərdə 26 dərəcə isti olacağı proqnozlaşdırılır.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17, gündüz 25-30 dərəcə isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi şərq rayonlarında arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-16, gündüz 22-27, dağlarda gecə 5-10, gündüz 18-23 dərəcə isti olacağı gözlənilir.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə arabir yağış yağacağı bildirilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 14-18, gündüz 26-31 dərəcə isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-18, gündüz 25-30, dağlarda gecə 15-17, gündüz 20-25 dərəcə isti olacaq.

# Belçikalılar hökumət islahatlarının ləğvini tələb edirlər

## Həmkarlar ittifaqlarının hökumətə qarşı mübarizəsi səngimir

**Çərşənbə axşamı 40 mindən çox insan bir sıra islahatlara etiraz etmək üçün Belçikanın paytaxtı Brüssel küçələrinə çıxıb. Həmkarlar ittifaqı nümayəndələri hökumətin planlaşdırdığı dəyişiklikləri "antisosial" adlandırırlar.**




Brüsseldəki nümayiş və tətil ictimai nəqliyyatda ciddi fasilələrə səbəb olub. Şarlerua hava limanı çərşənbə axşamı bütün uçuşları tamamilə ləğv edib.

Etirazçılar iş şəraitinin yaxşılaşdırılmasını, pensiya sistemindəki dəyişikliklərə son qoyulmasını, daha ədalətli vergi siyasətini və Belçikanın inflyasiyaya uyğun əməkhaqqı artımı mexanizminin qorunmasını tələb edirlər ki, bu da Yaxın Şərqdəki müharibə səbəbindən qiymətlərin əhəmiyyətli dərəcədə artması nəzərə alınmaqla xüsusilə aktualdır.

Xatırladaq ki, həmkarlar ittifaqları ilə hökumət arasında bu məsələlərlə bağlı uğursuz danışıqlar bir il yarımdır ki, davam edir. İki ay öncə keçirilən əvvəlki nümayişə 80 mindən çox iştirakçı qatılmışdı.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə əzizi

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Vüsal Nəsirli və agentliyin kollektivi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3818**
**Sifariş 627**

**Qiyməti 60 qəpik**